RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 279 (9734) 18 dekabr 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Bugünkü uğurlar sabaha daha inamla baxmağa əsas verir

Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilib. Burada beş milli prioritetdən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən olunub. Bu ilin dövlət başçısı tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də məhz həmin prioritetin məntiqi davamına çevrildi. Dünyada ən böyük beynəlxalq tədbirlərdən olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti - 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi də məhz "Yaşıl dünya naminə həmrəylik ili"mizdə baş tutdu. Və COP29-dan söz düşmüşkən qeyd edək ki, ölkəmiz bu möhtəşəm tədbirə yüksək səviyyədə evsahibliyi etdi. Dünya Azərbaycanın nailiyyətlərini, çoxlu sayda qonaq qəbul etmək və mötəbər tədbirlər keçirmək bacarığını bir daha gördü. Eləcə də "yaşıl gündəliyimiz" hamıya bir daha bəlli oldu.

Ümumiyyətlə, 2024-cü il xalqımızın, ölkəmizin həyatında zəngin hadisələrlə dolu bir ildir. Bu il müdrik dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevi yenidən Prezident seçdik. Rəhbərimizin ətrafında həmişə olduğu kimi sıx birləşərək yeni uğurlara imza atdıq. Respublikanın hər bölgəsində müsbət yeniliklər baş verdi: yeni müəssisələr açıldı, infrastruktur yaradıldı, yollar çəkildi, körpülər salındı. Düşmənin 30 il ərzində xarabalığa çevirdiyi yurd-yuvamızın yenidən qurulmasını sürətlə davam etdirdik. Başqa sözlə, bu il Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri daha geniş vüsət aldı. Bu il də yeni evlər tikildi, iş yerləri açıldı, neçə kənd və şəhər məskunlaşmağa başladı.

İşğaldan azad olunmuş ərazilərimizdə hətta beynəlxalq tədbirlər keçirildi. Deyilənlərə qayıdaraq qeyd edək ki, ümumiyyətlə, çoxsaylı beynəlxalq tədbirə evsahibliyi etdik. "Əsrin müqaviləsi"nin 30 illiyi qeyd olunan bu ildə növbəti "Bakı Enerji Həftəsi" də böyük uğurla keçirildi. İqtisadiyyatımızın bel sütunu olan neft-qaz sektorunda nailiyyətlər davam etdirilməklə yanaşı, "yaşıl enerji"yə keçiddə də irəliyə addımlar atıldı. "Yaşıl enerji" layihələri paytaxtdan bölgələrə "addımladı". Abşeronda, Neftçalada, Biləsuvarda, hətta işğaldan azad olunmuş Cəbrayıl rayonunda tikiləcək yeni bərpaolunan enerji stansiyalarının təməli qoyuldu.

Bu il sentyabrın 26-da Prezident İlham Əliyevin iqtisadi məsələlərə həsr olunmuş müşavirədə dediyi kimi: "İlin əvvəlindən iqtisadi inkişaf gözlənilən səviyyədədir. Və bu il iqtisadiyyatımız üçün uğurlu olacaq. İlin əvvəlindən əldə edilmiş nəticələr və iqtisadi göstəricilər də bunu təsdiqləyir".

Beləliklə, ilin ötən 11 ayına aid bəzi makroiqtisadi göstəricilər: yanvar-noyabr aylarında iqtisadi artım 4,1 faiz olub, o cümlədən qeyri-neft sektoru 6,4 faiz artıb. Strateji valyuta ehtiyatları 72 milyard dolları ötüb. Birbaşa xarici dövlət borcu ÜDM-in cəmi 7,3 faizini təşkil edir. Ölkədə makroiqtisadi və maliyyə sabitliyi təmin olunub.

→ 7

# Prezident İlham Əliyev Rusiyanın Tatarıstan Respublikasının Rəisi ilə görüşüb









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovun Azərbaycanın "Dostluq" ordeni ilə təltifedilmə mərasimi oldu. Prezident İlham Əliyevin sərəncamına əsasən, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Rüstəm Minnixanov "Dostluq" ordeni ilə təltif edilib.

**Prezident İlham ƏLİYEV** dedi: Layiq olduğunuz mükafat münasibətilə Sizi təbrik edirəm. Uzun illərdir ki, Siz ənənəvi əlaqələrimizin möhkəmlənməsi üçün çox iş görürsünüz. Ona görə də belə yüksək mükafatı Sizə təqdim etmək və yeni uğurlar arzulamaq mənim üçün çox xoşdur.

**Rüstəm MİNNİXANOV** dedi: Cənab Prezident, çox sağ olun. Bu, yüksək mükafatdır. Biz Rusiya-Azərbaycan münasibətləri çərçivəsində əlaqələrimizi yüksək qiymətləndiririk. Tatarıstan burada xüsusi yerə malikdir. Tarixən belə alınıb ki, qardaş xalqlarımız və ən başlıcası, liderlərimiz - Azərbaycanın Lideri Heydər Əliyev və birinci Prezidentimiz Mintimer Şaripoviç Şaymiyev bizim inkişaf etdirdiyimiz həmin kursun əsasını qoyublar.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov birgə nahar ediblər.

## R.N.Minnixanovun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Rüstəm Nurqaliyeviç Minnixanov "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2024-cü il*

# Fransanın müstəmləkəsində olan ölkələr mübarizələri ilə tarixlərini yenidən yazmaq istəyirlər

Ancaq müstəmləkəçilik siyasətini israrla davam etdirən Fransa hökuməti unudur ki, dünya dəyişməkdədir.

Uzun illərdir işğala məruz qoyduğu, təbii sərvətlərini talan edərək daşıyıb apardığı, yerli sakinlərini vətənində qorxusuz, təhlükəsiz şəraitdə yaşamaqdan, doğma dillərində yazıb-oxumaqdan, milli-mədəni irsinə sahib çıxmaqdan məhrum etdiyi ölkələrdən artıq azadlıq, müstəqillik çağırışları getdikcə daha gur səslə və daha qətiyyətlə səslənir. Onlar Fransanın neokolonializm siyasətinə qarşı çıxaraq öz hüquqlarının bərpa olunmasını, ədaləti tələb edirlər.

Müstəmləkəçilik siyasətinə son qoymağa çağırışlar artıq Fransanın özündə də səslənir. Belə ki, Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyası "Müstəmləkə ölkələrinə və xalqlarına müstəqilliyin verilməsi haqqında Bəyannamə"nin qəbul edilməsinin ildönümü günündə də Fransanın paytaxtı Parisin məşhur Eyfel qülləsinin önündə yerləşən Trokadero - İnsan Hüquqları meydanında "Dekolonizasiya gününə" həsr olunmuş etiraz aksiyası keçirildi.

→ 6




# Bakının "Qış nağılı" başladı

"Soyuq əllər, isti ürək" yarmarkası yeni qurulmuş 64 böyük və 20 balaca ev, 3 ədəd ikimərtəbəli restoran, oyun zonası, fotozona, 4D kinoteatr, qorxu otağı, kiçik köşklər, müxtəlif tematik guşələr, labirint otağı, Santa evi və böyük Yeni il ağacından ibarətdir. Ərazidə quraşdırılmış iki böyük monitorda yarmarka haqqında ətraflı məlumat və xəritə nümayiş olunur. Qonaqlar məkandakı köşklərdən maraqlı Yeni il hədiyyələri, suvenirlər, kitablar, geyimlər ala, tematik və digər guşələrə baş çəkə, müxtəlif isti və ya soyuq içkilərdən içə, Qərbin və Şərqin unikal ləzzətli təamlarını kəşf edə, maraqlı oyunlar oynaya bilərlər.

"Soyuq əllər, isti ürək"də müasirliklə ənənəviliyin ahəngdar əvəzlənməsi könülləri oxşayır. Avropa modernizmi ilə Şərq üslubu harmoniya təşkil edir, insanlar yarmarkada gəzərkən qeyri-ixtiyari bayram əhvali-ruhiyyəsinə köklənir, yorğunluğunu, gündəlik qayğılarını unudurlar.

→ 8

# Paşinyandan Moskva əleyhinə qərar

## Ölkədə gələn ildən Rusiya telekanalları bağlanır

Ermənistanda sosial gərginlik artır. Hər sahədə böhran yaşanır. Ermənistan cəmiyyətində yoxsullarla zənginlər arasında böyük uçurum yaranıb. Korrupsiya, rüşvət, biznesin gəlirli sahələrinin hakimiyyətə yaxın adamların əlində olması əhaliyə seçim imkanı saxlamayıb. Əməkhaqqının cüzi olması işləyənlərin də güzəranının yaxşılaşmasına imkan vermir. Özəl sahədə çalışanlar isə açıq-aşkar oliqarxlar tərəfindən istismar olunurlar. Ermənistanda informasiya texnologiyaları, bank və tikinti sahələrində işləmək üçün peşəkar kadrlar çatışmır. Ölkəni tərk etmək istəyənlər nəinki özlərinin, eyni zamanda, övladlarının da yaxşı gələcəyini görmürlər. Bütün bunlar ölkədən getmək üçün əsas səbəblərdir. Baş nazir Nikol Paşinyan sosial-iqtisadi inkişaf istiqamətində tədbirlər görəcəyini dəfələrlə bəyan etsə də, hələlik bu sahədə heç bir irəliləyiş müşahidə olunmur. Ekspertlər qeyd edirlər ki, yaxın gələcəkdə də Ermənistanda sosial-iqtisadi vəziyyətin düzələcəyinə heç ümid də yoxdur.

→ 6

# ELAN

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində seçkiqabağı təşviqat aparmaq məqsədilə ölkə üzrə bələdiyyələrin yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına aşağıda göstərilən media subyektlərində ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq:

- İctimai Televiziya və Radio Yayımları Şirkəti;
- "Azərbaycan" qəzeti;
- "Xalq qəzeti";
- "Respublika" qəzeti;
- "Bakinski raboçi" qəzeti.

Yuxarıda göstərilən qurumlar, o cümlədən digər televiziya və radio yayımçıları və dövri nəşrlərin redaksiyaları seçkiqabağı təşviqat üçün ödənişli efir vaxtı və yaxud dərc üçün yer ayrılmasının mümkünlüyünə dair qərar qəbul etdikdə, bu barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müvafiq bildirişlər göndərməli, efir vaxtının verilməsinə və dərc üçün yerin ayrılmasına görə ödənişin əsasları, şərtləri və məbləği barəsində məlumatları bələdiyyə seçkilərinin təyin edilməsi haqqında qərarın rəsmi dərc olunmasından sonra ən geci 30 gün keçənədək (2024-cü il dekabrın 28-dək) dərc etməlidirlər.

***Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası***

# "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1050 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 10-cu hissə əlavə edilsin:

"10. Bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydanın 3.1-1-ci bəndi 2030-cu il yanvarın 1-dək qüvvədədir.".

2. Həmin Fərmanla təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası" üzrə:

2.1. 1-ci hissə üzrə:

2.1.1. 1.2.9-cu yarımbənddə "aparılmasına," sözündən sonra "aqrotexniki xidmətlərdən istifadə edilməsinə," sözləri əlavə edilsin;

2.1.2. aşağıdakı məzmunda 1.2.9-1-ci yarımbənd əlavə edilsin:

"1.2.9-1. **dincə qoyulmuş torpaq subsidiyası** - bu Qaydanın 1.2.9-cu yarımbəndinə uyğun olaraq əkin subsidiyasına görə müraciət edilmiş torpaqlarda kənd təsərrüfatı bitkilərinin Şuranın müəyyən etdiyi dövr ərzində ardıcıl olaraq becərilməsindən sonra həmin torpaqların münbitliyinin bərpası və alaq otlarının azaldılması məqsədilə 1 (bir) il müddətinə dincə qoyulan sahəsinin hər hektarına görə verilən subsidiya;";

2.1.3. 1.2.12-ci yarımbənddə "buzova" sözündən sonra "və balağa (camış balasına)" sözləri əlavə edilsin.

2.2. 2-ci hissə üzrə:

2.2.1. 2.4.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.4.1. əkin subsidiyasının tətbiqi üçün vahid əkin sahəsi elan edilən yerlərin siyahısının, regionlar üzrə bitkilərin siyahısının və onlara tətbiq edilən əkin əmsallarının, həmçinin "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aqrar sığorta predmetinə aid bitkilərdən sığortalanması tələb olunanların (bundan sonra - sığortalanmalı olan bitkilər) siyahısının (bu Qaydanın 2.5-1-ci bəndi nəzərə alınmaqla) və onların əkin sahələrinin minimum ölçüsünə dair tələblərin təsdiqi;";

2.2.2. aşağıdakı məzmunda 2.4.1-1-ci və 2.4.3-1-ci yarımbəndlər əlavə edilsin:

"2.4.1-1. dincə qoyulmuş torpaq subsidiyasının tətbiqi üçün ərazilərin siyahısının, həmin ərazilərin ardıcıl becərilmə dövrlərinin və onlara tətbiq edilən dincə qoyulmuş torpaq əmsallarının təsdiqi;";

"2.4.3-1. bitkiçilik sahəsində subsidiyaların tətbiqi üçün torpağın sahəsi və keyfiyyət parametrləri, çoxillik bitkilərin əkin ili, əkilən toxum və tinglər, aqrotexniki tədbirlərin aparılması, müasir suvarma sistemlərinin tətbiqi nəzərə alınmaqla əmsalların fərqləndirilməsi;";

2.2.3. 2.5-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.5-1. Bu Qaydanın 2.4.1-ci yarımbəndinə uyğun olaraq Şura tərəfindən əkin subsidiyasının tətbiqi üçün sığortalanmalı olan bitkilərin siyahısı təsdiq edilərkən həmin bitkilərin ixracyönümlü olması və ya ərzaq təhlükəsizliyinin təmin edilməsindəki rolu əsas götürülür.".

2.3. 3-cü hissə üzrə:

2.3.1. 3.1-1-ci bənddə "İstifadəsində olan 10 hektar və daha çox torpaq sahəsində (sahələrində) bu" sözləri "Bu" sözü ilə əvəz olunsun və həmin bəndə "bitkinin" sözündən sonra "minimum ölçüdən az olmayan əkin sahəsində" sözləri əlavə edilsin;

2.3.2. aşağıdakı məzmunda 3.4-1-ci bənd əlavə edilsin:

"3.4-1. Dincə qoyulmuş torpaq subsidiyasının məbləği aşağıdakı qaydada hesablanır:

baza məbləği x dincə qoyulmuş torpaq əmsalı = dincə qoyulmuş torpaq subsidiyası

dincə qoyulmuş torpaq əmsalı - müəyyən ərazilər üzrə dincə qoyulmuş torpaqlar üçün Şuranın müəyyən etdiyi göstərici.";

2.3.3. 3.8.1-ci yarımbənddə "çoxillik əkmələr" sözlərindən sonra ", habelə dincə qoyulmuş torpaqlar" sözləri əlavə edilsin;

2.3.4. 3.12-ci bənd üzrə:

2.3.4.1. birinci cümləyə "çoxillik əkmələr" sözlərindən sonra ", dincə qoyulmuş torpaq subsidiyası ilə bağlı dincə qoyulmuş torpaq sahələri" sözləri əlavə edilsin;

2.3.4.2. ikinci və üçüncü (hər iki halda) cümlələrə ismin müvafiq hallarında "kart hesabı" sözlərindən sonra ismin müvafiq hallarında "(hüquqi şəxsin cari hesabı)" sözləri əlavə edilsin;

2.3.5. 3.13-cü bəndə "aparılması," sözündən sonra "aqrotexniki xidmətlərdən istifadə edilməsi," sözləri əlavə edilsin.

2.4. 4-cü hissə üzrə:

2.4.1. 4.1-ci bəndə "buzova" sözündən sonra "və balağa (camış balasına)" sözləri əlavə edilsin;

2.4.2. 4.4.4-cü yarımbənddə "iyun" sözü "sentyabr" sözü ilə əvəz edilsin.

2.5. 5-ci hissə üzrə:

2.5.1. 5.1.2-ci yarımbəndə "çoxillik əkmələrin" sözlərindən sonra ", habelə dincə qoyulmuş torpaq sahələrinin" sözləri əlavə edilsin;

2.5.2. 5.1.3-cü yarımbəndə "yerlərdə," sözündən sonra "dincə qoyulmuş torpaq sahələrində," sözləri əlavə edilsin;

2.5.3. 5.2-ci bəndin birinci abzas?na "əkmələrə" sözündən sonra ", habelə dincə qoyulmuş torpaq sahələrinə" sözləri əlavə olunsun və həmin abzasda "subsidiyası" sözü "və dincə qoyulmuş torpaq subsidiyaları" sözləri ilə əvəz edilsin;

2.5.4. 5.4-cü bəndin üçüncü cümləsində "DAİM-in mütəxəssisi" sözləri "Agentliyin və ya DAİM-in digər mütəxəssisləri" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2024-cü il*

# "Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 1 sentyabr tarixli 1436 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 1 sentyabr tarixli 1436 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 976 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2024-cü il*

# Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyəyə rəsmi səfərə gedib



**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti dekabrın 17-də Türkiyə Respublikasının paytaxtı Ankara şəhərinə rəsmi səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Ankaranın Esenboğa Beynəlxalq Hava limanında nümayəndə heyətini Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfərdə Milli Məclis Sədri Sahibə Qafarovanın bir sıra görüşləri və tədbirlərdə iştirakı nəzərdə tutulub.

*"Azərbaycan"*

# Energetika Nazirliyində kollegiya iclası keçirilib



**Energetika naziri Pərviz Şahbazovun sədrliyi ilə 2024-cü ilin yekunlarına dair hibrid formatda kollegiya iclası keçirilib.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, kollegiya sədri çıxışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş sosial-iqtisadi inkişaf siyasətinə uyğun olaraq cari ildə enerji sektorunda həyata keçirilmiş mühüm tədbirlər və əldə edilmiş nailiyyətləri qeyd edib. Azərbaycanın COP29-a uğurlu evsahibliyi, enerji sahəsində irəli sürülən təşəbbüslərin beynəlxalq miqyasda geniş dəstək qazandığı və bu dəstəyin konfransdan sonra da davam etdiyi vurğulanıb. "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində enerji təchizatı infrastrukturunun modernləşdirilməsi, bərpaolunan enerji mənbələrinin payının artırılması və enerji səmərəliliyi sahəsində atılan addımların energetika sektorunun inkişafında mühüm rol oynadığı bildirilib.

Sonra iclasın gündəliyində olan məsələlərə dair məruzələr dinlənilib. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının Tədbirlər Planında Energetika Nazirliyinin məsul olduğu tədbirlərin 2024-cü ildə icra vəziyyəti haqqında hesabat təqdim edilib. Hesabatda il ərzində enerji sektorunda beynəlxalq əməkdaşlıq çərçivəsində reallaşdırılan layihələr, eləcə də bərpaolunan enerji sahəsində həyata keçirilən tədbirlərin nəticələri vurğulanıb.

İclasda həmçinin Azərbaycan Respublikasının Energetika Nazirliyinin Kollegiyasının 2025-ci il üçün İş Planının layihəsi nəzərdən keçirilib, təsdiq edilməsinə dair qərar qəbul edilib.

Sonda kollegiya sədri növbəti ildə enerji sektorunun inkişafını hədəfləyən layihələrin reallaşdırılması istiqamətində qarşıda duran vəzifələrin səmərəli icrası ilə bağlı göstərişlər verib.

# Moldova Prezidenti Azərbaycanın diaspor rəhbərini "Vətəndaş xidmətlərinə görə" medalı ilə təltif edib

**Moldova Respublikasının Prezidenti Maya Sandu ölkə qarşısında xüsusi xidmətlərinə və yüksək peşəkarlıq bacarıqlarına görə bir sıra şəxslərə fəxri adlar, medallar təqdim edib.**



AZƏRTAC Moldova Prezidentinin saytına istinadla xəbər verir ki, təltif olunanlar arasında Moldova Azərbaycanlıları Konqresinin sədri Elçin Bayramov da var. Moldova Prezidenti Maya Sandu Elçin Bayramovu "Vətəndaş xidmətlərinə görə" medalı ilə təltif edib. Soydaşımız ikitərəfli əlaqələrin inkişafında və möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə bu medalla təltif olunub.

"Moldova-Azərbaycan dostluğu və əməkdaşlığının, habelə mədəniyyətlərarası dialoqun inkişafında fəal iştirakına görə Moldova Respublikası Azərbaycanlılar Konqresinin prezidenti Elçin Bayramov "Vətəndaş xidmətlərinə görə" medalı ilə təltif edilib", - deyə qərarda vurğulanıb.

Prezident Maya Sandu tədbirdə çıxışı zamanı bildirib ki, Moldova təltif olunanların işini yüksək qiymətləndirir.

"Biz sizin gündəlik işinizi yüksək qiymətləndiririk. Bunu qüsursuz etməkdən yorulmayın. Yalnız sizin kimi insanlarla biz cəmiyyəti birləşdirə bilərik, ancaq sizin kimi insanlarla cəmiyyətimizin, ölkəmizin qayğısına qala bilərik", - deyə dövlət başçısı vurğulayıb.

# Tatarıstan Respublikasının Rəisi Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



**Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov dekabrın 17-də Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib.**





AZƏRTAC xəbər verir ki, əvvəlcə Fəxri xiyabana gələn Rüstəm Minnixanov xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Tatarıstan Respublikasının Rəisi Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonağa Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

# Rusiyanın Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Ələt Azad İqtisadi Zonasında olub



**Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov dekabrın 17-də Ələt Azad İqtisadi Zonasında (ƏAİZ) olub.**



AZƏRTAC xəbər verir ki, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, ƏAİZ-in İdarə Heyətinin sədri Valeh Ələsgərov və Tatarıstanın Rəisi Rüstəm Minnixanovun başçılıq etdiyi nümayəndə heyətinin iştirakı ilə keçirilən görüş zamanı Ələt Azad İqtisadi Zonasının fəaliyyəti, unikal qanunvericilik bazası, eləcə də müasir mühəndis-kommunikasiya sistemləri ilə təchiz edilmiş, istifadəyə hazır daxili və xarici torpaq sahələri haqqında ətraflı məlumat verilib.

Qeyd olunub ki, 2023-cü ildən fəaliyyət göstərən FEZ1 Standart sənaye zonasında ümumi ərazisi 30 hektar olan investor sahələri mövcuddur. Diqqətə çatdırılıb ki, Ələt Azad İqtisadi Zonasında ümumilikdə 27 investor qeydiyyatdan keçib. Bunlardan dörd investor sahəsində fəal tikinti işləri aparılır.

Qeydiyyatdan keçmiş daha üç investor isə 2025-ci ilin əvvəlindən tikinti işlərinə başlayacaq.

Bildirilib ki, investor sahələrinə tələbat nəzərə alınaraq 18 ay əvvəl ümumi sahəsi 138 hektar olan yeni ərazidə infrastruktur işlərinə başlanılıb. Bu işlərin 2025-ci ilin birinci yarısında tamamlanması planlaşdırılır.

Bununla yanaşı, ağır sənaye təyinatlı FEZ3 adlı ərazidə də infrastruktur quruculuğu işləri aparılır. Ümumi sahəsi 350 hektar olan ərazidə tikinti işləri fəal davam edir.

Eyni zamanda ümumi sahəsi 4313 hektar olan 4-cü zonanın 748 hektarlıq hissəsində SW-AFEZCO şirkətinə məxsus hava limanının tikinti-quruculuq işləri sürətlə davam edir. Hava limanı xüsusilə innovativ texnologiyalar və farmasevtik məhsulların istehsalı üzrə müəssisələr üçün nəzərdə tutulub.

Görüşdən sonra Tatarıstan Rəisi Rüstəm Minnixanov tərəfindən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına üç ədəd mikroavtobus hədiyyə edilib. Mikroavtobuslar Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyevə təqdim olunub.

# Vyetnam nümayəndə heyəti Ümummilli Lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib




**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin dəvəti ilə Vyetnam Sosialist Respublikasının Baş Statistika İdarəsinin baş direktoru Nguyen Thi Huongun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib.**

Səfər çərçivəsində dekabrın 17-də Dövlət Statistika Komitəsinin rəhbərliyi və Vyetnam nümayəndə heyəti Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.



Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanı ziyarət olunaraq Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

*"Azərbaycan"*

# Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında anlaşma memorandumu imzalanıb

**Dekabrın 17-də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov ilə ölkəmizdə səfərdə olan Vyetnam Sosialist Respublikasının Baş Statistika İdarəsinin baş direktoru Nguyen Thi Huongun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**





Görüşdə Azərbaycan ilə Vyetnamın bir-birinin maraqlarına hörmət edən dost və tərəfdaş ölkə olduqları, dövlətlərarası münasibətlərin yüksələn xətt üzrə inkişafının böyük məmnunluq doğurduğu qeyd edilib.

Xalqlarımız arasındakı münasibətlərin təməlinin hələ SSRİ dövründə qoyulduğu xüsusi vurğulanaraq Vyetnam xalqının öndəri Ho Şi Minin 1959-cu ildə Azərbaycana, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərinin tarixi əhəmiyyəti qeyd olunub.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra qarşılıqlı səfərlərin əhəmiyyəti nəzərə çatdırılaraq 2014-cü ildə Prezident İlham Əliyevin Vyetnam Sosialist Respublikasına dövlət səfərinin, 2015-ci ildə isə Vyetnam Prezidenti Truonq Tan Sanqın Azərbaycana rəsmi səfərinin ölkələr arasında siyasi, iqtisadi, mədəni-humanitar və digər sahələrdə əməkdaşlığın dərinləşməsinə etibarlı zəmin yaratdığı vurğulanıb. Bu gün iki ölkənin liderlərinin siyasi iradələri sayəsində ölkələrimiz arasında fəal siyasi dialoqun və beynəlxalq təşkilatlarda səmərəli əməkdaşlığın mövcud olduğu bildirilib.

Milli maraqlara və müasir çağırışlara əsaslanan siyasət həyata keçirməklə davamlı sosial-iqtisadi inkişafı təmin edən və beynəlxalq müstəvidə mövqelərini möhkəmləndirən Azərbaycan ilə Vyetnamın iqtisadi-ticari, mədəni-humanitar, təhsil, turizm, enerji və digər sahələrdə işbirliyinin genişləndirilməsində maraqlı olduqları diqqətə çatdırılaraq müvafiq dövlət qurumları, o cümlədən Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında əməkdaşlığın önəmi vurğulanıb.

Hər iki ölkənin statistika sahəsində təcrübəsinin qarşılıqlı maraq doğurduğu qeyd olunaraq müvafiq dövlət qurumlarının fəaliyyəti barədə ətraflı məlumat verilib, islahatlardan və innovasiyaların tətbiqindən bəhs edilib.

Komitə sədri Tahir Budaqovun 2023-cü ildə Vyetnama səfəri çərçivəsində baş direktor Nguyen Thi Huongunlə görüşü məmnunluqla xatırlanaraq həmin görüş zamanı gələcək əməkdaşlığa dair səmərəli fikir mübadiləsinin aparıldığı bildirilib.

Daha sonra Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında "Statistika sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu" imzalanıb. Memorandumu Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və Vyetnam Baş Statistika İdarəsinin baş direktoru Nguyen Thi Huong imzalayıblar.

Memorandumdan irəli gələn vəzifələrin icra olunmasının səmərəli nəticələr verəcəyinə - statistika sahəsində əməkdaşlığın inkişafına, beynəlxalq səviyyədə müqayisə edilə bilən və hər iki ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik məlumatlar mübadiləsinin genişləndirilməsinə və dövlətlərarası əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edəcəyinə əminlik ifadə olunub.

*"Azərbaycan"*

# Yeni Azərbaycan Partiyası müşavirə keçirib




**Dekabrın 17-də Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planına uyğun olaraq səsvermə gününədək müşahidə aparacaq şəxslərin təlimatlandırılması məqsədilə onlayn müşavirə keçirilib.**

Seçki prosesində müşahidəçilik institutunun rolu və əhəmiyyəti, müşahidə aparılması qaydaları, müşahidəçilərin hüquq və vəzifələri barədə ətraflı məlumat və izahat verilib.

Daha sonra iştirakçıları maraqlandıran suallar cavablandırılıb, müvafiq tapşırıq və tövsiyələr diqqətə çatdırılıb.

*"Azərbaycan"*

# *Ceyhun BAYRAMOV:* "Azərbaycan AQEM-in transformasiyasına və dayanıqlı inkişafa töhfə verəcək"

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Nazirlər Şurasının 7-ci görüşündə çıxış edib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, çıxışında AQEM üzv dövlətlərinə Azərbaycana göstərdikləri etimad və inama görə təşəkkürünü bildirən nazir deyib: "AQEM sədrliyini Azərbaycan qlobal diplomatiyada "körpü qurmaq" təcrübəsi, çoxtərəfli platformalarda liderliyi, sülhə, sabitliyə və dayanıqlı inkişafa olan möhkəm sadiqliyinə əsaslanaraq quracaq. Azərbaycanın AQEM-ə sədrliyi təkcə Müşavirənin tarixi deyil, o cümlədən Asiyanın və bütün dünyanın dəyişən geosiyasi və iqtisadi mənzərəsi üçün çox vacib bir anda başlayır. İndi Asiyanın qlobal inkişafda, texnoloji innovasiya və siyasi təsiretmədə aparıcı qüvvə kimi rolu həmişəkindən daha vacibdir. Dünyada çoxqütblülüyün vüsət aldığı və çoxtərəfliliyin yeni çağırışlarla üzləşdiyi bir zamanda Asiya bu çağırışlara birlik, əməkdaşlıq və ortaq məsuliyyətlə cavab verməlidir. Regionun ən inklüziv dialoq platforması olmaqla, AQEM əməkdaşlığı təşviq etmək və qarşılaşdığımız çağırışların öhdəsindən gəlmək üçün unikal mövqeyə malikdir".

C.Bayramov bildirib ki, Azərbaycanın sədrliyi "Daha güclü AQEM, Asiyada bağlantılar, rəqəmsallaşma və dayanıqlı inkişaf" mövzusuna əsaslanmaqla, 3 fundamental istiqaməti prioritetləşdirəcək: "Birincisi, AQEM-in transformasiyası və institusional inkişafı, ikincisi, etimad-quruculuğu tədbirlərinin icrası vasitəsilə sahəvi əməkdaşlıq, üçüncüsü, AQEM ilə digər beynəlxalq və regional təşkilatlar arasında qarşılıqlı əlaqənin təşviqi. Biz son 30 ildə əldə olunmuş uğurlar əsasında AQEM-in tam formalaşmış beynəlxalq təşkilata çevrilməsi ilə bağlı hazırkı keçid prosesini davam etdirəcəyik. Qazaxıstan sədrliyi dövründə başladılmış və 2022-ci ildə 6-cı AQEM Zirvə Toplantısı tərəfindən təsdiq olunmuş bu proses üzv dövlətlər tərəfindən idarə olunan və konsensus əsaslı qalmaqla, AQEM-i sürətlə dəyişən dünyanın tələblərinə cavab vermək üçün hazırlıqlı olmaq məqsədlərinə yönəldəcək. AQEM-in hüquqi qüvvəyə malik əsas sənədinin işlənib-hazırlanması, habelə onun institusional potensialının və maliyyə müstəqilliyinin gücləndirilməsinə yönəlmiş səylər də Azərbaycan sədrliyinin vacib prioriteti kimi qalacaq. Sədrliyimiz, həmçinin AQEM katibliyinin funksional imkanlarının gücləndirilməsinə diqqət yetirəcək. Bu məqsədlə Azərbaycan katibliyə həm maliyyə töhfəsi, həm də işçi heyətinin təmin olunması vasitəsilə dəstək göstərəcək. Biz bütün üzv dövlətləri həm maliyyə, həm də əyani yardımla Katibliyin işinə dəstək göstərməyə çağırırıq. Həmçinin biz katibliyin statusunun, habelə AQEM katibliyinin, onun heyətinin və müşavirə üzvlərinin nümayəndələrinin imtiyaz və immunitetləri haqqında konvensiyanın ratifikasiyasını təşviq etməyə davam edəcəyik. Azərbaycan, o cümlədən AQEM Maliyyə Zirvəsinin təsis olunmasını dəstəkləyir və bununla bağlı ekspertlər səviyyəsində aparılmış mühüm işlər əsasında konsensusun əldə olunması məqsədilə çalışacaq".

Etimad quruculuğunun AQEM prosesinin əsasını təşkil etdiyini vurğulayan nazir əlavə edib: "Müsbət təcrübənin əsasında Azərbaycanın Sədrliyi mövcud etimad quruculuğu tədbirlərinin səmərəliliyi və təsirinin genişləndirilməsini prioritetləşdirəcək, həmçinin əməkdaşlığın dərinləşdirilməsi üçün yeni, innovativ həll yollarını nəzərdən keçirəcək. Bu xüsusda biz mühüm mövzular kimi  bağlantılar, rəqəmsallaşma və dayanıqlılığa diqqət göstərəcəyik. 2025-ci ildə müşavirənin 5 ölçüsü üzrə sədrliyin 20-dən çox tədbiri planlaşdırılır. Sədrlik üzv dövlətlər, etimad quruculuğu üzrə əlaqələndiricilərlə Biznes və Gənclər üzrə şuralar, Beyin Mərkəzləri Forumu və Aparıcı Universitetlərin Tərəfdaşlıq Şəbəkəsi kimi müvafiq AQEM orqanları arasında qarşılıqlı əlaqənin inkişafı istiqamətində səy göstərəcək. Bu yanaşma etimad quruculuğu tədbirlərinin səmərəliliyinin gücləndirilməsinə və AQEM-daxili birliyin təşviqinə yönəlib. Sədrlik iqtisadi ölçü üzrə nəqliyyat bağlantıları, kiçik və orta sahibkarlığın təşviqi, qadın sahibkarlığı və yaşıl iqtisadiyyat mövzularını prioritetləşdirəcək.

Biz nəqliyyat dəhlizlərinin genişləndirilməsi və Asiyada daha təhlükəsiz, dayanıqlı və səmərəli infrastrukturun təşviqi üçün çalışacağıq. Kiçik və orta sahibkarların sərmayələrə, bazarlara çıxışı və onların elektron kommersiya kimi innovativ metodlarla beynəlxalq ticarətdə iştirakı, həmçinin kənd təsərrüfatında innovativ yanaşmalar da sədrliyin bu çərçivədə diqqət yetirəcəyi sahələr arasında olacaq.

Yeni çağırışlar və təhdidlər ölçüsü üzrə diqqət qabiliyyət quruculuğunun təşviqi, eləcə də kibertəhlükəsizlik və şəxsi məlumatların mühafizəsi üzrə uğurlu təcrübələrin mübadiləsinə yönələcək. Biz AQEM məkanında məlumatların mühafizəsi üzrə hüquqi çərçivənin harmonizasiyası, habelə kibertəhlükəsizlik və məlumatların məxfiliyi mədəniyyətinin təşviqi üçün çalışacağıq.

Ətraf mühit ölçüsünün mərkəzində müxtəlif sahələrdə konkret layihələr vasitəsilə yaşıl keçid və dayanıqlı inkişafın təşviqi duracaq. Bu xüsusda müxtəlif prioritet sahələr arasında qarşılıqlı əlaqənin təşviqi üçün bir-biri ilə kəsişən mövzuları əhatə edən gündəlik irəliləditləcək. İnsan ölçüsünün vacib elementi kimi insanlararası əlaqələrin və turizmin təşviqi də bizim sədrliyimizin gündəliyində vacib yer tutacaq. Biz gənclərin AQEM Gənclər Şurası çərçivəsində Asiyada sülh, əməkdaşlıq və dayanıqlı inkişafa töhfə verə bilməsinin yolları ətrafında səmərəli müzakirəyə cəlb olunması istiqamətində fəaliyyət göstərməyə davam edəcəyik. Biz, həmçinin mədəni irsin qorunmasını prioritetləşdirəcəyik. Müxtəlifliyi və zəngin tarixi ilə seçilən regionumuzda, mədəni mübadilə və irsin qorunub saxlanılması qarşılıqlı anlaşma və hörmətin təşviqi üçün mühüm əhəmiyyətə malikdir.

Bir sıra AQEM üzv dövlətləri ərazilərinin, minlərlə mülki şəxsin həyatına son qoyan, iqtisadi məqsədlər üçün istifadə oluna biləcək ərazilərə əlçatanlığı məhdudlaşdıran, təbii resurslardan dayanıqlı istifadədən məhrum edən mina və partlayıcı sursatlarla çirklənməsi səbəbindən çox ciddi çətinliklərlə üzləşirlər. Bu səbəbdən sədrlik AQEM çərçivəsində humanitar minatəmizləmə fəaliyyətinin qarşılıqlı fəaliyyət sahəsi kimi təşviqi imkanlarını nəzərdən keçirəcək".

Nazir qeyd edib ki, AQEM çərçivəsində təhsil və elm sahələrinin potensialı da az istifadə edilmiş olaraq qalır. Biz hazırkı Nazirlər Şurasında təsis olunmasının yekunlaşacağı gözlənilən "Aparıcı Universitetlərin Tərəfdaşlıq Şəbəkəsi" vasitəsilə bu sahədə əməkdaşlığımızın genişləndirilməsi üzərində işləyəcəyik. Şəbəkə tam işlək vəziyyətə gətirildikdə, Sədrlik yüksək potensial və imkanların müşahidə olunduğu sektorlar üzrə əməkdaşlığın canlandırılması üçün bu platformanın fəaliyyətə başladılması məqsədilə fəaliyyət göstərəcək.

Sadalanan birbaşa prioritetlərdən başqa, sədrlik regionumuzun dəyişən ehtiyaclarının təmin olunması naminə qarşılıqlı əlaqə və etimad quruculuğu tədbirləri üzrə yeni istiqamətlərin araşdırılmasına açıqdır. Bu məqsədlə sədrlik əlaqələndiricilər və həməlaqələndiricilərlə yaxından işləyəcək.

"AQEM özünün inklüzivliyi, regional təhlükəsizliyə, inkişafa və əməkdaşlığa vahid yanaşması ilə nisbi üstünlüyə malikdir. Lakin hazırkı qarşılıqlı asılı dünyada heç bir təşkilat təcrid olunmuş şəkildə inkişaf edə bilməz. Azərbaycanın sədrliyi AQEM-in beynəlxalq aktivliyinin artırılmasına və onun digər beynəlxalq və regional təşkilatlarla tərəfdaşlıq şəbəkəsinin genişləndirilməsinə diqqət yetirəcək. Biz birgə çağırışları daha effektiv həll etmək üçün Birləşmiş Millətlər Təşkilatı, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatı (APEC) kimi qurumlarla, eləcə də digər regional platformalarla qarşılıqlı sinerji yaratmağa çalışacağıq. Bizim beynəlxalq təşkilatlarla əlaqələrimiz AQEM-in aktivliyini yüksəltməklə yanaşı, həmçinin onun Asiyada müsbət dəyişikliklər üçün hərəkətverici qüvvə kimi çıxış etmək qabiliyyətini artıracaq, habelə daha təhlükəsiz və çiçəklənən Asiya naminə inklüziv regional platforma kimi Təşkilatın beynəlxalq mövqeyini gücləndirəcək.

Azərbaycanın sədrliyi fürsət və məsuliyyət anıdır. Azərbaycanın sədrliyi daha güclü AQEM vasitəsilə dövlətlərimizin və onların əhalisinin təhlükəsizliyinə, inkişafına və rifahına müsbət təsir göstərməyə yönəlib. Birgə işləmək, innovasiyaları mənimsəmək və davamlı inkişafa kollektiv öhdəliyimizi gücləndirməklə, biz regionumuz və dünya üçün daha parlaq gələcək formalaşdıra bilərik. Azərbaycan AQEM-in bu transformativ prosesinə rəhbərlik etməyə hazırdır və biz sülhsevər, firavan və bir-biri ilə sıx əlaqəli Asiya haqqında ümumi baxışımıza nail olmaq üçün bütün üzv dövlətlərlə davamlı əməkdaşlığımıza inanırıq", - deyə C.Bayramov vurğulayıb.

# Azərbaycan 2024-2026-cı illər üzrə AQEM-ə sədrlik edəcək

**Dekabrın 17-də ölkəmizin evsahibliyi ilə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Xarici İşlər Nazirləri Şurasının virtual formatda 7-ci iclası keçirilib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Nazirlər Şurasının iclasında 27 üzv ölkədən nazirlər, dövlət nazirləri, nazir müavinləri, habelə nümayəndə heyətlərinin rəhbərləri iştirak ediblər. Tədbirə, həmçinin 3 müşahidəçi dövlət və 8 tərəfdaş beynəlxalq təşkilatın rəhbərləri qatılıb.

Nazirlər Şurasının 7-ci iclasında Müşavirəyə 2024-2026-cı illər üzrə sədrlik Qazaxıstandan Azərbaycana keçib.

İclasda çıxış edən nazir Ceyhun Bayramov 2024-2026-cı illər üzrə AQEM-də sədrliyi Azərbaycana həvalə etməklə ölkəmizə göstərilən etimada görə bütün üzv dövlətlərə təşəkkürünü bildirib.

Nazir həmçinin çoxqütblülüyün gücləndiyi və çoxtərəfliliyin yeni çağırışlarla üzləşdiyi bir dövrdə Asiya qitəsinin həmin çağırışlara birlik və əməkdaşlıq şəraitində, eyni zamanda, ortaq məsuliyyət prinsipi əsasında cavab verməli olduğunu, AQEM-in bu əməkdaşlığı daha da inkişaf etdirərək çağırışları dəf etmək üçün unikal bir platforma olduğunu diqqətə çatdırıb.




Azərbaycanın AQEM-ə sədrliyinin "Daha güclü AQEM - Asiyada əlaqəlilik, rəqəmsallaşma və dayanıqlı inkişaf" mövzusuna həsr olunduğu və AQEM-in transformasiyası və institusional inkişafı, etimad-quruculuğu tədbirlərinin icrası vasitəsilə sahəvi əməkdaşlığın gücləndirilməsi və AQEM-in digər beynəlxalq və regional təşkilatlarla birgə fəaliyyətinin təşviqi istiqamətlərinin 3 əsas prioritet olaraq irəlilədiləcəyi qeyd edilib.

C.Bayramov həmçinin Azərbaycan tərəfindən 2025-ci il üçün AQEM-in 5 ölçüsü üzrə 20-dən çox tədbirin təşkilinin planlaşdırıldığını vurğulayıb. Bu xüsusda nəqliyyat dəhlizləri, kiçik və orta sahibkarlığın inkişafı, kənd təsərrüfatı, kibertəhlükəsizlik, ətraf mühit, gənclər, turizm, mədəni irsin mühafizəsi, humanitar minatəmizləmə, elm və təhsil kimi sahələrə xüsusi diqqət ayrılacağı bildirilib.

Azərbaycanın AQEM-ə sədrliyinin Müşavirənin beynəlxalq aktivliyinin artırılmasına və digər beynəlxalq və regional təşkilatlarla tərəfdaşlıq münasibətlərinin genişləndirilməsinə xüsusi diqqət ayırdığı qeyd olunub.

AQEM-in Baş katibi Kayrat Sarıbay tərəfindən Müşavirənin 2020-2024-cü illər ərzində - Qazaxıstan sədrliyi dövründəki fəaliyyəti barədə hesabat verilib.

İclasın yekununda "AQEM üzv dövlətləri arasında münasibətlərin rəhbər prinsipləri haqqında Bəyannamə"nin 25 illiyi ilə bağlı Nazirlər Şurasının Bəyanatı, Etimad quruculuğu tədbirlərinin icrasının modallıqlarına dair Nazirlər Şurasının qərarı, Etimad quruculuğu tədbirlərin kataloqunun yenilənmiş versiyası və AQEM üzv dövlətlərinin Aparıcı Universitetlərinin Tərəfdaşlıq Şəbəkəsinin təsis edilməsinə dair memorandum layihələri qəbul edilib.

# Əbədiyaşarlıq rəmzi

## Naxçıvanda "Heydər Əliyev və Azərbaycan həmkarlar ittifaqları" mövzusunda konfrans keçirilib

**Dekabrın 17-də Naxçıvan şəhərində muxtar respublikanın 100 illiyi çərçivəsində "Heydər Əliyev və Azərbaycan həmkarlar ittifaqları" mövzusunda konfrans keçirilib.**









Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və AHİK-in üzv təşkilatı Naxçıvan Həmkarlar İttifaqı Şurasının birgə təşkilatçılığı ilə keçirilən konfransın iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub.

Heydər Əliyev Sarayında təşkil edilən tədbirdə müasir müstəqil Azərbaycanın qurucusu Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Konfrans iştirakçılarını salamlayan və təşkilatçılara təşəkkürünü bildirən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixindəki müstəsna rolundan, xilaskarlıq missiyasından, dövlət quruculuğu siyasətindən söz açıb, Naxçıvanın həyatında dahi rəhbərin gördüyü işləri, sabitliyin təmin olunması və sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması istiqamətində atdığı mühüm addımları qeyd edib. Bildirilib ki, 1990-1993-cü illərdə Naxçıvanda fəaliyyət göstərən böyük şəxsiyyət bu il 100 illik yubileyi qeyd edilən muxtar respublikanı bütün təhdidlərdən qoruyub, müstəqil dövlətçiliyimizin əsaslarını məhz burada işləyib hazırlayıb. Muxtar respublikanın inkişafının yeni dövrünə qədəm qoyduğunu diqqətə çatdıran Fuad Nəcəfli qeyd edib ki, bu gün Naxçıvan dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkəmizin siyasi-iqtisadi qüdrətinin yüksəlməsində yaxından iştirak edir.

Konfransda çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov adı tariximizə qızıl hərflərlə yazılan Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz üçün əsrlərə bərabər nəhəng işlər gördüyünü, gələcək nəsillərə zəngin irs, dövlətçilik ənənələri miras qoyduğunu vurğulayıb. Ümummilli Liderin rəhbərliyi ilə həyata keçirilən sistemli və kompleks tədbirləri qeyd edən Konfederasiya sədri xalqın xahişi və təkidli tələbi əsasında Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıtmasından sonra həmkarlar ittifaqlarının da həyatında əsaslı dönüş yarandığını diqqətə çatdırıb. 1994-cü ildə postsovet məkanında ilk dəfə məhz Azərbaycanda "Həmkarlar ittifaqları haqqında" qanunun qəbul olunması, işçilərin sosial müdafiəsinə yönəlmiş çoxsaylı normativ-hüquqi aktların qəbulu, Beynəlxalq Əmək Təşkilatının əsas konvensiyalarının ratifikasiyası Ulu Öndərin müdrik və uzaqgörən siyasətinin nəticəsi və vətəndaş cəmiyyətinin inkişafına verdiyi dəyərin təzahürüdür. Konfederasiya sədri Ümummilli Liderin siyasi kursunu cənab Prezident İlham Əliyevin böyük uğurla davam etdirdiyini vurğulayaraq ölkəmizin ərazi bütövlüyünün bərpasının, Azərbaycanın sürətli inkişafının Heydər Əliyev ideyalarının reallaşdırılmasının məntiqi nəticəsi olduğunu bildirib. Ulu Öndərin işıqlı ideyalarının təbliğində, zəngin siyasi irsinin öyrənilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun xidmətlərini xüsusi qeyd edən Sahib Məmmədov Fondun sosial layihələrinin həmkarlar ittifaqları üçün əsl örnək olduğunu vurğulayıb.

AHİK sədrinin müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev çıxışında Ulu Öndərin tarixi və misilsiz xidmətlərindən bəhs edib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev muxtar respublikanın 100 illik tarixi inkişaf yolundan, qazanılan uğurlarda Ümummilli Liderin əvəzsiz xidmətlərindən bəhs edib.

Sonra Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü və həmkarlar ittifaqlarına göstərdiyi diqqət və qayğıdan bəhs edən videoçarx nümayiş olunub.

Tədbir bədii hissə ilə davam edib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Bakıda "Hüquq münasibətlərində transmilli aspektlər: müasir çağırışlar və hədəflər" mövzusunda beynəlxalq konfrans




**Dekabrın 17-də Bakıda Türk Ədliyyə Təlim Şəbəkəsinə (TƏTŞ) Azərbaycanın sədrliyi çərçivəsində "Hüquq münasibətlərində transmilli aspektlər: müasir çağırışlar və hədəflər" mövzusunda beynəlxalq konfrans işə başlayıb.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Baş Prokurorluğu və Ədliyyə Nazirliyi ilə yanaşı, Özbəkistan, Qazaxıstan və Qırğızıstanın ədliyyə və prokurorluq təlim-tədris mərkəzləri və akademiyaları, eləcə də müşahidəçi statusunda Şimali Kiprin müvafiq qurumları iştirak edirlər.

Konfransda çıxış edən Azərbaycanın Baş prokuroru Kamran Əliyev 2009-cu il oktyabrın 9-da Naxçıvan şəhərində imzalanan müqavilə ilə Türk Dövlətlərinin Əməkdaşlıq Şurasının təsis edilməsinin daha sonra isə həmin təsisatın təkmilləşdirilərək Türk Dövlətləri Təşkilatına çevrilməsi ilə qardaş xalqlar arasında inteqrasiya prosesləri yeni müstəviyə qədəm qoyduğunu deyib.

Onun sözlərinə görə, ötən dövr ərzində türk dövlətlərinin hüquq mühafizə-orqanları, məhkəmə akademiyaları və təlim mərkəzləri ilə əməkdaşlıq əlaqələrinin institusionallaşması ilə bağlı əməli addımlar atılıb: "2022-ci il dekabrın 11-də İstanbul şəhərində özündə üzv statusunda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstanın ədliyyə və prokurorluq orqanlarının təlim-tədris mərkəzlərini və akademiyalarını, eləcə də müşahidəçi statusunda Macarıstan və Şimali Kiprin müvafiq qurumlarını birləşdirən Türk Ədliyyə Təlim Şəbəkəsi (Turkish Judicial Training Network) təsis edilib. Azərbaycan tərəfini həmin Şəbəkədə Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi təmsil edir. Azərbaycan 2024-cü ildə Şəbəkəyə sədrlik etməyə başlayıb".

K.Əliyev vurğulayıb ki, bu gün öz işinə başlayan beynəlxalq konfransda aktivlərin bərpası prosesinin səmərəliliyinin artırılması, ekoloji hüquqpozmalara qarşı mübarizə, transmilli hüquqpozmaların qurbanlarının mülki-hüquqi müdafiəsi, türkdilli ölkələrin kommersiya hüququ sahəsində qanunvericilik bazasının inkişafı kimi məsələlərin müzakirəsi planlaşdırılıb: "Bizim üçün qardaş ölkələrin bu sahədə təcrübəsinin öyrənilməsi, öz müsbət təcrübəmizlə bölüşmək çox əhəmiyyətlidir. Əminəm ki, hakim və prokurorların peşə hazırlığında da müasir texnologiyaların, proqram təminatlarının tətbiqi ilə bağlı müzakirələr xüsusi əhəmiyyətə sahib olacaq".

Azərbaycanın ədliyyə naziri Fərid Əhmədov çıxışında türk dövlətləri arasında münasibətlərin getdikcə dərinləşməkdə olduğunu, son bir neçə il ərzində dövlətlərarası münasibətlərin demək olar bütün sahələrdə genişləndiyini və inkişaf etdiyini diqqətə çatdırıb: "Təbii ki, ədliyyə sahəsi də istisna deyil. Təkcə bu il ədliyyənin bütün sahələrini əhatə etməklə 30-a yaxın müxtəlif seminar, konfrans, fərdi tədbirlər keçirilib. Həm məhkəmə sisteminin nümayəndələri, həm məhkəmə-hüquq şuraları, prokurorluqlar, Ədliyyə nazirlikləri arasında əməkdaşlıq nəzərdə tutulub. Həmin əməkdaşlıq hətta notariat sahəsini də, bütövlükdə akademiyalar arasında əməkdaşlığı da əhatə edir".

Vəkillər Kollegiyasının sədri Anar Bağırov isə bildirib ki, aktual məsələlərdən biri də türk dövlətlərinin ortaq hüquq konsepsiyasının və fəaliyyət planının hazırlanması, türk dövlətlərinin hüquq peşələrini bir araya gətirən müştərək hüquq platformasının təsis olunmasıdır. Həmin platforma hüquqi bilik və təcrübə mübadiləsini asanlaşdıracaq, hüquq peşələri arasında əməkdaşlığı genişləndirəcək və ortaq hüquqi problemlərə daha effektiv və çevik həll yolları tapmağa şərait yaradacaq. Platforma eyni zamanda transmilli cinayətlərin qurbanlarına keyfiyyətli hüquqi yardım standartlarının işlənib hazırlanması və lazım olduqda onlara Pro Bono hüquqi yardımın göstərilməsi əsaslarının müəyyən edilməsi üçün də bir baza rolunu oynaya bilər.

Sədr qeyd edib ki, hüquqşünas kadrların hazırlanmasında irəliləyişə nail olunması hüquq münasibətlərində transmilli aspektlərin hüquqi tənzimlənməsinin əsaslarından biridir. Bu zaman hüquqşünas kadrların hazırlanması üzrə bakalavr və magistratura istiqamətlərində ikili diplom proqramlarının qurulması əhəmiyyətli olardı. Həmçinin birgə hüquq nəşrlərinin dərc edilməsi, bu sahədə türk ölkələrinin hüquq sistemlərinin müqayisəli öyrənilməsi və ortaq hüquq lüğətinin tərtib olunması da bizim üçün prioritet məsələlərdən olmalıdır.

Konfrans öz işini panel sessiyalarla davam etdirib.

İki gün davam edəcək tədbirdə 90-a yaxın nümayəndə iştirak edir.

# Milli Məclisin Mədəniyyət komitəsinin iclası olub



**Dekabrın 17-də Milli Məclisin Mədəniyyət komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə iclası açan komitə sədri Polad Bülbüloğlu gündəliyə bir məsələnin - "Kitabxana işi haqqında" və "Muzeylər haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) daxil edildiyini bildirib.**

Polad Bülbüloğlu diqqətə çatdırıb ki, mövcud qanunvericiliyə əsasən, kitabxana və muzeylər müəyyən olunmuş qaydalar əsasında təsərrüfat fəaliyyəti ilə məşğul ola bilərlər və bu fəaliyyətdən əldə olunan vəsait onların sərəncamında qalır.

Komitə sədri bildirib ki, təklif olunan dəyişikliklərdə isə dövlət kitabxanalarının və muzeylərin bu fəaliyyətindən əldə edilən vəsaitdən müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydaya uyğun olaraq istifadə ediləcək.

Qanun layihəsinin müzakirəsində komitə üzvləri Aqil Abbasov, Əlibala Məhərrəmzadə, Cavanşir Feyziyev, Tənzilə Rüstəmxanlı, Sahib Alıyev, Şahin Seyidzadə çıxış ediblər. Deputatlar kitabxanaların və muzeylərin müasir dövrün tələblərinə uyğunlaşdırılması, kitabxana fondunun zənginləşdirilməsi, muzeylərin turizmlə əlaqələndirilməsi, bu sahələrdə dövlət-özəl tərəfdaşlığının tətbiq edilməsi kimi kitabxana və muzey işinin inkişafının bəzi aktual məsələləri ilə bağlı fikirlərini bölüşüblər, təklif olunan dəyişikliklər haqqında rəylərini və suallarını səsləndiriblər.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu və parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev deputatların qaldırdıqları məsələlərə münasibət bildiriblər, suallarına aydınlıq gətiriblər. Vurğulanıb ki, sənəd mədəniyyət müəssisləri tərəfindən büdcədənkənar fəaliyyətdən əldə edilən gəlirlərin idarə olunması ilə əlaqədar qanunvericilikdə mövcud ziddiyyətlərin aradan qaldırılması məqsədilə hazırlanıb.

Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*



# Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının inkişafı məsələsi müzakirə edilib

**Dekabrın 17-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan general-leytenant Tuncay Altuğun rəhbərlik etdiyi Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları Komandanlığının nümayəndə heyəti ilə görüşüb.**

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, türkiyəli qonaqlar əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanı və Türk şəhidliyini ziyarət edərək əklil və gül dəstələri qoyub, xatirələrinə dərin ehtiram nümayiş etdiriblər.

Azərbaycan Ordusunun Baş Qərargahında keçirilən görüşdə iki ölkə arasında mövcud uğurlu hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu bildirən general-polkovnik Kərim Vəliyev bu müttəfiqliyin ordu quruculuğuna verdiyi töhfələrdən danışıb və daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

General-leytenant T.Altuğ ölkələrimiz arasında qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinə yönəldilmiş hərbi əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib, Azərbaycanın Türkiyənin vacib tərəfdaşı olduğunu göstərən birgə təlimlərin əhəmiyyətinə diqqət çəkib.

Görüşdə həmçinin regional təhlükəsizlik, hərbi əməkdaşlığın inkişaf perspektivləri və digər maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonra qardaş ölkənin nümayəndə heyəti müdafiə nazirinin müşaviri general-polkovnik Bəxtiyar Ersay ilə görüşüb. Türkiyə Respublikası Silahlı Qüvvələri modelinin Azərbaycan Ordusunda tətbiqi istiqamətində görülən işlərin müsbət nəticələri və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Türkiyə nümayəndə heyəti sonda Mərkəzi Komanda Məntəqəsinə gələrək burada yaradılan şəraitlə tanış olub.

# Buraxılış mərasimində kurs iştirakçılarına sertifikatlar verilib

**Dekabrın 17-də Milli Müdafiə Universitetinin (MMU) Hərbi İdarəetmə İnstitutunun Xarici dil mərkəzində italyan dili kursunun növbəti buraxılış mərasimi keçirilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə Milli Müdafiə Universitetinin rektorunun elm üzrə müavini - Hərbi Elmi-Tədqiqat İnstitutunun rektoru general-mayor Arif Həsənov çıxış edərək Azərbaycan ilə İtaliya arasında hərbi təhsil sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayıb. O, keçirilən kursun əhəmiyyətindən danışaraq təhsili uğurla başa vuran hərbi qulluqçulara gələcək xidmətlərində uğurlar arzulayıb.

İtaliya Respublikasının Azərbaycan Respublikasındakı hərbi attaşesi 1-ci dərəcəli kapitan Cianfranko Vizzini kursun təşkilində və tədbirin ərsəyə gəlməsində əməyi olan MMU-nun professor-müəllim və zabit heyətinə minnətdarlığını bildirib.

Qeyd olunub ki, bu dilin öyrənilməsi ilə hərbi qulluqçularımız İtaliya Respublikasında müxtəlif ixtisaslar üzrə keçiriləcək kurslarda iştirak edərək öz bilik və bacarıqlarını daha da artıracaqlar.

Ölkəmizdə səfərdə olan İtaliya Müdafiə Nazirliyinin nümayəndə heyətinin də iştirak etdiyi buraxılış mərasiminin sonunda kurs iştirakçılarına sertifikatlar təqdim edilib.

# Sosial-iqtisadi siyasətin uğuru

**"Milli Məclisdə 2025-ci ilin dövlət büdcəsi layihəsi üçüncü oxunuşda qəbul olundu. Qanun layihəsinin müzakirələri zamanı deputatların verdiyi təkliflərə əsasən, dövlət büdcəsinin gəlir və xərclər bölmələri 40 milyon manat artırılaraq gəlirlər hissəsi 38,4 milyard manat, xərclər hissəsi isə 41,4 milyard manat təsdiq olundu".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov deyib. Deputat bildirib ki, xərc qrafalarında da müəyyən dəyişikliklər edilməklə vacib sahələr üzrə xərclərin artırılması qərara alınıb. Belə ki, ölkənin müdafiə və təhlükəsizlik xərclərində artım edilərək 8,5 milyard manata çatdırıldı. Digər bir məsələ isə ölkənin beynəlxalq fəaliyyətinin maliyyələşdirilməsinin təminatının gücləndirilməsi məqsədilə xərclər 34 milyon manat artırıldı. Dövlət büdcəsi qanun layihəsinin müzakirələri zamanı siyasi partiyalara ayrılacaq vəsaitin artırılması da təklif olunmuşdu. "Hökumət bu təklifi də qəbul edərək qanun layihəsində müvafiq dəyişiklik etdi və siyasi partiyalara ayrılacaq vəsaitin həcmi 1 milyon manat artırıldı. Bu da ölkədə siyasi partiyaların fəaliyyətinin gücləndirilməsinə dövlətin göstərdiyi dəstək deməkdir. Qanun layihəsində edilən düzəlişlərdən biri də Naxçıvan Muxtar Respublikasının su ehtiyatlarının inkişaf etdirilməsinə ayrılan vəsaitin 34,8 milyon manat artırılması ilə bağlı idi. Bu da həllini tapdı, muxtar respublikaya mərkəzləşdirilmiş dövlət büdcəsindən ayrılan dotasiyanın tərkib hissəsində dəyişiklik edilərək müvafiq maliyyə təminatı yaradılacaq", - deyə o əlavə edib.

A.Badamov qeyd edib ki, ümumiyyətlə, 2025-ci ilin dövlət büdcəsinin xərclər qrafasında xərclərin strukturunda müəyyən dəyişikliklər edilərək daha vacib sahələrin maliyyələşdirilməsi qərara alındı. 2025-ci ilin təsdiq olunmuş dövlət büdcəsi haqqında qanun ölkəmizdə sosial-iqtisadi fəaliyyətin təmin olunmasına və nəzərdə tutulan proqramların icrasına lazımi maliyyə təminatı yaradacaq.

Deputat bunu Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan sosial-iqtisadi siyasətin uğuru hesab edir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Müstəqillik dövrünün ən böyük büdcə zərfi

**"2025-ci ilin büdcə layihəsi müstəqil Azərbaycan Respublikasının tarixində ən böyük büdcə zərfidir. Bu ali maliyyə sənədi parlamentdə qəbul edildi. Gələn il büdcə gəlirləri 38 milyard 316 milyon manat nəzərdə tutulur ki, bu da cari ildə dürüstləşdirilmiş büdcənin gəlirləri ilə nisbətdə təxminən 1 milyard manat çoxdur".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat bildirib ki, büdcə gəlirlərinin 18 milyard 773 milyon manatı neft-qaz sektorunun, 19 milyard 543 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşür. Qeyri-neft gəlirləri büdcədə 51 faizə yaxın olmaqla yenə də üstünlük təşkil edir. Dövlət büdcəsinin xərcləri 41 milyard 368 milyon manat məbləğində nəzərdə tutulub ki, bu rəqəm 2024-cü ilin təsdiq edilmiş ilk büdcəsinə nisbətən 4 milyard 605 milyon manat və yaxud 12,5 faiz, yenidən baxılmış büdcəyə nisbətən isə 1 milyard 625 milyon manat və yaxud 4,1 faiz çoxdur.

Aydın Hüseynov qeyd edib ki, büdcənin xərc prioriteti sırasında ilk yeri müdafiə və təhlükəsizlik istiqaməti tutur: "Müdafiə və təhlükəsizlik xərclərinin məbləği 8 milyard 396,3 milyon manat olmaqla cəmi xərclərin 20 faizini təşkil edəcək. Büdcə xərclərində ikinci başlıca istiqamət isə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsidir, bu məqsədlər üçün 4 milyard manat vəsait nəzərdə tutulub".

Deputat vurğulayıb ki, 2025-ci ilin büdcə zərfi də sosialyönümlüdür, büdcədə sosial xərclərin məbləği 41 faiz təşkil edəcək. Bu, dövlətin yürütdüyü siyasətdə mühüm prioritetdir və vətəndaşların sosial rifahının daha da yüksəldilməsinə xidmət edir. Gələn il növbəti sosial islahat paketi icra olunacaq. Minimum əməkhaqqı və pensiya, təqaüd və sosial müavinətlər artırılacaq. Minimum əməkhaqqı 345 manatdan 400 manata qaldırılacaq, yəni təxminən 16 faizədək artırılacaq. Minimum pensiya da təxminən 10 faiz artacaq. 2025-ci il üçün yaşayış minimumu və ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə ehtiyac meyarı həddi 285 manat məbləğində müəyyən edilib. Ehtiyac meyarının 270 manatdan 285 manata çatdırılması sayəsində ünvanlı sosial yardımın aylıq məbləğinin də yüksəlməsi və əhatəsinin genişlənməsi üçün hüquqi əsaslar yaranacaq.

A.Hüseynov bildirib ki, ümumiyyətlə, 2025-ci ildə əhalinin həssas təbəqəsinin xərcləri üçün dövlət büdcəsindən 3 milyard manatdan çox vəsait ayırmaq nəzərdə tutulub ki, buna yaşa, əlilliyə, ailə başçısını itirməyə və digər sosial müavinətlərin və müharibə əlillərinə, ümumi səbəbdən əlilliyi olan şəxslərə, müharibə veteranlarına, şəhid ailələrinə ödənilən Prezident təqaüdlərinin maliyyələşdirilməsi, ünvanlı dövlət sosial yardımlarının verilməsi və digər xərclər daxildir.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Asiya ombudsmanları ilə "Biznes və İnsan Hüquqları" mövzusunda beynəlxalq tədbir təşkil edilib

**Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın təşəbbüsü və Asiya Ombudsman Assosiasiyasının (AOA) təşkilatçılığı ilə Asiya regionunda fəaliyyət göstərən ombudsman və milli insan hüquqları institutları üçün "Biznes və İnsan Hüquqları" mövzusunda onlayn tədbir keçirilib.**

Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Pakistan, İndoneziya, Türkiyə, Malayziya, Tailand, Tatarıstan və digər ölkələrin ombudsman və milli insan hüquqları institutlarının nümayəndələri, İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyasının üzvləri, dövlət qurumlarının və transmilli şirkətlərin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Səbinə Əliyeva insan hüquqlarının səmərəli müdafiəsi ilə bağlı biznes və insan hüquqları mövzusuna Asiya Ombudsman Assosiasiyası kimi geniş bir regionu əhatə edən təşkilat tərəfindən xüsusi diqqət yetirilməsinin əhəmiyyətini vurğulayıb.



Qeyd olunub ki, cari ildə Ombudsman Aparatı tərəfindən beynəlxalq ekspertlərin rəy və təklifləri nəzərə alınmaqla "Biznes və İnsan Hüquqları" üzrə milli qiymətləndirmə sənədi hazırlanıb. Ölkəmizdə bu sahənin inkişafına təkan verən təklifləri də ehtiva edən bu sənəd barədə tədbirdə geniş məlumat təqdim olunub.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının ölkəmizdəki nümayəndəliyinin dəstəyi ilə dəvət olunmuş beynəlxalq ekspert tərəfindən BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsipləri barədə təqdimat edilib. Tədbir iştirakçıları ilə ombudsmanların və milli insan hüquqları institutlarının bu sahədəki rolunun gücləndirilməsi istiqamətində geniş müzakirələr aparılıb.

# Hərbi vəzifəlilərin təlim toplanışı keçirilib

**Bu ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində hərbi hissələrdə ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin cəlb edildiyi növbəti təlim toplanışı keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, hərbi vəzifəlilər müvafiq qeydiyyatdan və həkim müayinəsindən sonra hərbi geyim və digər təminat növləri ilə təmin olunublar.

Təlim toplanışında müxtəlif mövzular üzrə tapşırıqlar icra edilib.

Hərbi vəzifəlilərdən fiziki hazırlıq üzrə normativlər qəbul edilib, onlarla əlbəyaxa döyüş üsulları, habelə silahsız özünümüdafiə fəndlərinin öyrənilməsi və ilkin tibbi yardımın göstərilməsi üzrə məşğələlər keçirilib.

Toplanış müddətində hərbi vəzifəlilərə Azərbaycan Ordusunun arsenalında olan müasir silah və hərbi texnikaların taktiki-texniki xüsusiyyətləri, istifadə qaydaları, həmçinin sıra hazırlığının elementləri öyrədilib.

Həmçinin hərbi vəzifəlilər üçün Komando hərbi hissələrində şərti düşmən obyektinə yaxınlaşma, yaşayış məntəqəsinin ələ keçirilməsi və digər tapşırıqlar üzrə taktiki-xüsusi məşğələ keçirilib.

Ehtiyatda olan hərbi vəzifəlilərin təlim toplanışında qarşıya qoyulan tapşırıqlar uğurla icra edilib.

29 yanvar bələdiyyə seçkiləri günüdür

# Seçki hazırlığı davam edir

**Bələdiyyə seçkilərinə hazırlıq davam edir. Qeyd edək ki, Mərkəzi Seçki Komissiyasının 2024-cü il 27 noyabr tarixli qərarı ilə bələdiyyə seçkiləri 2025-ci il yanvarın 29-na təyin edilib. Bu, indiyə kimi respublikamızda keçirilən 6-cı əsas bələdiyyə seçkisi olacaq.**

### Seçkilər 685 bələdiyyəyə keçiriləcək

Xatırladaq ki, respublikamızda sonuncu dəfə bələdiyyə seçkiləri 5 il əvvəl - 2019-cu il dekabrın 23-də keçirilib. O zaman 1606 bələdiyyəyə seçkilər keçirilmişdi.

Son illərdə respublikamızda aparılmış genişmiqyaslı islahatlar, dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində və ölkəmizin sosial-iqtisadi inkişafında əldə edilmiş nailiyyətlər, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin də fəaliyyətinin müasir səviyyədə qurulmasını zəruri edib. Bu məqsədlə bələdiyyələrin yerləşdiyi yaşayış məntəqələrinin sosial-iqtisadi vəziyyəti və digər yerli xüsusiyyətləri əsas götürülərək cari ildə bələdiyyələrin birləşməsi həyata keçirilib. Xarici təcrübə də onu göstərir ki, bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması, iqtisadi və maliyyə potensialının gücləndirilməsi yollarından biri də onların birləşməsidir. Bunun da nəticəsində bələdiyyələrin ümumi sayı azaldılaraq 685-ə çatdırılıb. Bu birləşmə prosesi yerli özünüidarəetmə orqanları üçün yeni üfüqlər və imkanlar açır, bələdiyyələr böyüyür və güclənir.

Beləliklə, budəfəki bələdiyyə seçkiləri 118 seçki dairəsi üzrə 685 bələdiyyəyə keçiriləcək.

### YAP namizədlərini müəyyən edib

MSK tərəfindən ötən ayın 27-də bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planı təsdiq olunub. İndiyə kimi 12 siyasi partiyadan 300-dən artıq səlahiyyətli nümayəndə qeydə alınıb, 5 min nəfərdən artıq şəxsin namizədliyi irəli sürülüb.

Onu da qeyd edək ki, avanqard siyasi qüvvə kimi hər zaman ictimai-siyasi proseslərin önündə gedən Yeni Azərbaycan Partiyası bələdiyyə seçkiləri ilə əlaqədar namizədlərini artıq müəyyən edib. Bu barədə YAP İdarə Heyətinin dekabrın 16-da keçirilən iclasında məlumat verilib. Qeyd edilib ki, seçkilərin keçiriləcəyi 685 bələdiyyə üzrə YAP-ın ümumilikdə 8071 nəfər namizədi müəyyən edilib. "İnanırıq ki, növbəti bələdiyyə seçkiləri Ulu Öndər Heydər Əliyevin dəyərli mənəvi-siyasi mirası olan və Prezident İlham Əliyevin rəhbərliyi ilə şərəfli inkişaf yolunda əmin addımlarla irəliləyən Yeni Azərbaycan Partiyasına xalqımızın inam və etimadının növbəti bariz nümunəsi olacaq", - deyə YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib.

Namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin dairə seçki komissiyasına təqdim edilməsi dekabrın 10-dan başlayıb və dekabrın 30-u saat 18.00-dək davam edəcək.

Seçki kampaniyasının əsas mərhələlərindən biri isə namizədlərin seçkiqabağı təşviqatının həyata keçirilməsidir. Bələdiyyə seçkilərində seçkiqabağı təşviqat aparmaq məqsədilə ölkə üzrə bələdiyyələrin yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına aşağıda göstərilən media subyektlərində ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq. Ödənişsiz dərc üçün yer "Azərbaycan", "Xalq qəzeti", "Respublika" və "Bakinski raboçi" qəzetləri tərəfindən, ödənişsiz efir vaxtı isə İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən ayrılacaq.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*



# Orta dəhlizə qoşulan ölkələrin sayı artır

## Bu həm də dəhlizin coğrafiyasının genişlənməsi deməkdir

**Ənənəvi beynəlxalq marşrutlarda yaranan problemlər "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinə olan marağı artırıb. Bu baxımdan hər iki mühüm strateji kommunikasiyaların qovuşduğu Azərbaycanın üzərinə böyük məsuliyyət düşür.**

Odur ki, ölkəmiz hər iki marşrutun beynəlxaql miqyasda fəaliyyətini artırmaq üçün ciddi səy göstərir. İlk növbədə tərəfdaş ölkələrlə əməkdaşlığı genişləndirərək yükdaşımaların həcminin artırılmasına çalışır. Bu da təsadüfi deyil, çünki hər iki marşrutun aktiv fəaliyyət göstərməsi ölkəmizin beynəlxalq aləmdə siyasi çəkisini artırmaqla yanaşı, iqtisadi cəhətdən də yaxşı mənfəət əldə olunmasını təmin edəcək.

Orta dəhlizlə yüklərin daşınmasını artırmaq üçün Azərbaycan, Gürcüstan və Qazaxıstan dəmir yolları idarələri vaxtaşırı müzakirələr aparır. Son görüşdə Orta dəhlizin inkişafı üçün atılacaq növbəti addımlar müzakirə olunub. Eyni zamanda ötən il yaradılmış birgə müəssisənin aktivləşdirilməsi barədə razılığa gələrək Çindən gələn yüklərin ərazilərindən keçməsi barədə vacib qərarlar qəbul edilib. Belə ki, 3 ölkə gələn il Çindən gələn blok qatarların həcmini 3 dəfə artırmaqla sayını 1000-ə çatdırmaq istəyir.

Azərbaycan "Şimal-Cənub" marşrutunda da aktiv rol oynayır, marşrut üzərindən yüklərin daşınmasını artırmaq üçün müxtəlif təsirli tədbirlər görür. İndiyəcən Rusiya ərazisindən İrana qədər uzanan dəmir yolunun təmiri və modernləşdirilməsi istiqamətində bir çox layihə icra olunub, avtomobillə yüklərin daşınması üçün yeni ödənişli yol çəkilib.

Azərbaycan dəmiryolçuları təkcə şimal-cənub deyil, həmçinin cənub-şimal istiqamətində də yükdaşımaların həcmini artırmaq üçün Rusiya və iranlı həmkarları ilə danışıqlar aparır. Bununla yanaşı, marşrut üzərindən yükdaşımaları artırmaq üçün gələn il hazırda tikilməkdə olan Astara terminalında inşaat işlərini yekunlaşdırmağı planlaşdırıb. Bunun sayəsində yükdaşımaların həcmini 4 milyona çatdırmaq mümkün olacaq.




Prezident İlham Əliyev Orta dəhlizə yeni dövlətlərin qoşulması istiqamətində aktiv siyasət aparır. Dövlət başçısının hər iki marşrut üzrə apardığı məqsədyönlü siyasət Çin və Rusiya liderləri tərəfindən yüksək qiymətləndirilir. Bu da səbəbsiz deyil - hər iki marşrut üzrə ən çox yüklər bu ölkələrdən ixrac olunur. Prezident İlham Əliyevin növbəti təşəbbüsü Pakistanın Orta dəhlizə qoşulmasını təşviq etməsidir. İri iqtisadiyyata və çoxsaylı əhaliyə malik Pakistanın bu marşruta qoşulması Orta dəhlizin yükdaşıma imkanlarını artırmaqla yanaşı, onun siyasi və coğrafi əhəmiyyətini də artıracaq. Belə ki, Pakistanın Kəraçi, Məhəmməd bin Qasim və Qvadar limanlarından istifadə edilməklə yüklərin qərbdən Hind və Sakit okeanları ölkələrinə, həmçinin əksinə daşınması imkanı yaranacaq.

Artıq iki dost ölkə ərazilərindən yükdaşımaların prosedurunu sadələşdirmək barədə razılığa gəliblər. Prezident İlham Əliyev cari ilin iyulunda Pakistana etdiyi səfər zamanı iki ölkə üçün önəmli olan bir sıra sənədlər imzalayıb. Həmin səfər çərçivəsində Pakistanla ticarət və yükdaşımaların sadələşdirilməsi üçün Tranzit və Preferensial Ticarət Sazişi sənədinə də imza atılıb. Bu sənəd Azərbaycanla Pakistan arasında ticarətin genişlənməsi və iki ölkə üzərindən tranzit malların daşınmasını stimullaşdıracaq.

Məlum olduğu kimi, Çinin "Bir kəmər, bir yol" layihəsi dünya ticarətinin təhlükəsiz aparılmasına və yükdaşımaların müddətinin qısaldılmasına böyük töhfə verir. Ancaq Çinin bu həmləsi qlobal ticarət marşrutlarına nəzarət edən ABŞ-ni qane etmir. Məlum olduğu kimi, əvvəllər Asiyadan Avropaya gedən ticarət yolları okean və dənizlər üzərindən keçirdi. Amma "Bir kəmər, bir yol" layihəsinin icrası həmin marşrut üzrə ticarətin xeyli azalmasına səbəb olub. Orta dəhlizə daha çox ölkənin qoşulması və onun şaxələnib daha böyük coğrafiyanı əhatə etməsi isə yükdaşımaların əksəriyyətinin quru yolla daşınmasına imkan yaradıb. Pakistanla Özbəkistanın birlikdə Trans-Əfqanıstan dəmir yolu dəhlizi yaradılması barədə razılığa gəlməsi də Orta dəhlizə yeni güc qatacaq. 5 milyard dollar dəyərində qiymətləndirilən layihənin icrası Avropa İttifaqı, Rusiya, Özbəkistan, Əfqanıstan, Pakistan, Hindistan və Cənub-Şərqi Asiya ölkələri arasında ticarətin canlanmasına təkan verəcək. Uzunluğu 600 kilometr olan dəmir yolu layihəsinin tikintisi başa çatdıqdan sonra mütəxəssislərin hesablamalarına görə, bu marşrutla ildə 20 milyon ton yük daşımaq mümkün olacaq.

Məlumdur ki, Hindistan sürətli iqtisadi inkişaf yolunu götürüb. Hazırda dünyada iqtisadiyyatın böyüklüyünə görə 5-ci olan bu Asiya ölkəsi qonşusu Çinlə ciddi rəqabət aparır. Amma əhalinin sayına görə Çini keçsə də, iqtisadi cəhətdən onu ötmək üçün hələ çox iş görməlidir. Bu işlərdən biri də ÇXR-in "Bir kəmər, bir yol" layihəsinə alternativ marşrut yaratmaq istəməsidir. Hətta Hindistan bu işə İranı və Ermənistanı cəlb etmək niyyətindədir. Lakin Hindistan, İran və Ermənistan arasında yeni beynəlxalq dəhlizin yaradılması barədə aparılan uzun-uzadı müzakirələrin heç bir real nəticəsi yoxdur və olmayacaq da. Çünki layihənin baş tutmasına beynəlxalq səviyyədə heç bir etimad göstərilmir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Fransanın müstəmləkəsində olan ölkələr mübarizələri ilə tarixlərini yenidən yazmaq istəyirlər

**Müstəqil ölkənin vətəndaşı olmaq, vətənini azad görmək dünyada müqayisəyəgəlməz xoşbəxlik, ən böyük səadətdir. Əslində, bu hər bir xalqın qanuni haqqı, hüququdur.**



Lakin yüz illərdir ki, Fransa müstəmləkəçilik siyasəti həyata keçirdiyi ölkələrin əsl sakinlərini, yerli əhalisini bu hüquqdan məhrum edib. Həm də bu, uzun illərdir ki, özlərini demokratiya, beynəlxalq hüquq tərəfdarı, təəssübkeşi kimi göstərən bir sıra böyük dövlətlərin gözləri önündə baş verir. Fransa Əlcəzairdə qətliamlar, soyqırımlar törədəndə də onlar "görmədilər". Halbuki rəsmi Parisin zülmlərindən, işgəncələrindən əlcəzairlilərin fəryadı, ah-naləsi ərşə bülənd olmuşdu. 1830-cu ildə fransızlar Əlcəzairdə müstəmləkələrinə çevirərək qəddar hakimiyyət qurdular. Əlcəzairlilər evlərindən qovuldular, təhsildən məhrum edildilər. Fransa onların mədəniyyətini belə məhv etdi. 1830-1962-ci illəri əhatə edən işğal dövründə fransızlar 1,5 milyona yaxın əlcəzairlini amansızcasına qətlə yetirdi. Bu səbəbdən Əlcəzair "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Ümumilikdə 10 milyona yaxın əlcəzairli Fransanın müstəmləkəçilik dövrünün qurbanı olub. Hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümükləri müharibə qənimətləri kimi saxlanılır.

Əlcəzairdə 17-dən çox nüvə sınağı aparan Fransanın törətdiyi qırğınların izləri bu gün də qalır. Təəssüf ki, baş verənlər rəsmi Parisin bu gün də ədalətsiz siyasətindən, zalımlığından, təxribatlar törətməkdən birdəfəlik əl çəkmək niyyətində olmadığını təsdiqləyir. Fransanın Əlcəzairdəki səfiri Stefan Romatenin həmin ölkənin xarici işlər nazirliyinə çağırılmasının, sonuncu xəbərdarlıq edilməsinin də səbəbi budur. Əlcəzairin AL24 televiziyasına istinadla yayılan xəbərə görə, bu dövlətin xüsusi xidmət orqanları Fransanın ölkədə sabitliyi pozmaq cəhdinin qarşısını alıb. Əlcəzairin Fransanın hakimiyyət orqanlarının təhdid və şantajlarını qəbul etməyəcəyi səfirin diqqətinə çatdırılıb.

Əlcəzairin rəsmi qəzetlərinin məlumatına əsasən, ölkəyə qarşı olan qüvvələr vaxtaşırı Fransa səfirliyinə məxsus binalarda toplaşırlar. Fransa hökuməti terrorçu qruplaşmalara himayədarlıq edir.

O da aşkardır ki, Emmanuel Makron hökuməti öz caynaqlarını müstəmləkəçilik zülmlərindən cana doymuş, çıxış yolu arayan digər ölkələrdən də çəkmək niyyətində deyil. Korsika, Kanaki (Yeni Kaledoniya), Martinik, Fransız Qvianası, Qvadelupa, Boneyr, Sent-Martin və Mayotdan gələn xəbərlər bunu təsdiq edir.

Rəsmi Parisin kolonializm siyasətinin ağır nəticələri ilə bu ölkələrin də əhalisi üzləşib. Emmanuel Makron hökumətinin yaxın zamanlarda törətdiyi cinayətlər belə vəziyyətin nə qədər dəhşətli olduğunu söyləməyə əsas verir. Diqqətə çatdıraq ki, Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında Fransa dövləti 13 nəfərin həyatına son qoydu. 169 nəfər yaralandı. 1700 nəfər həbs olundu. Eyni zamanda bu il Martinik və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs edildi.

Noyabrın 13-də dövlətimizin başçısı İlham Əliyev COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində çıxışında Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sent-Maarten, Boneyr, Sent Yefstaxiy və Saba kimi xalqların XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkdiklərini, hazırda Fransa Polineziyasının və Yeni Kaledoniyanın 1946-1947-ci illərdə BMT tərəfindən qeyri-özünüidarə edən ərazilər kimi tanındığını, bununla belə, onların dekolonizasiya prosesinin hələ də yubandığını vurğuladı.

COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində Fransanın törətdiyi cinayətlərdən danışan dövlətimizin başçısı bildirdi ki, bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi: "Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat - Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyası məhbuslar dərhal azad olunmalıdır".

Ancaq müstəmləkəçilik siyasətini israrla davam etdirən Fransa hökuməti unudur ki, dünya dəyişməkdədir. Uzun illərdir işğala məruz qoyduğu, təbii sərvətlərini talan edərək daşıyıb apardığı, yerli sakinlərini vətənində qorxusuz, təhlükəsiz şəraitdə yaşamaqdan, doğma dillərində yazıb-oxumaqdan, milli-mədəni irsinə sahib çıxmaqdan məhrum etdiyi ölkələrdən artıq azadlıq, müstəqillik çağırışları getdikcə daha gur səslə və daha qətiyyətlə səslənir. Onlar Fransanın neokolonializm siyasətinə qarşı çıxaraq öz hüquqlarının bərpa olunmasını, ədaləti tələb edirlər.

Müstəmləkəçilik siyasətinə son qoymağa çağırışlar artıq Fransanın özündə də səslənir. Belə ki, Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyası "Müstəmləkə ölkələrinə və xalqlarına müstəqilliyin verilməsi haqqında Bəyannamə"nin qəbul edilməsinin ildönümü günündə də Fransanın paytaxtı Parisin məşhur Eyfel qülləsinin önündə yerləşən Trokadero - İnsan Hüquqları meydanında "Dekolonizasiya gününə" həsr olunmuş etiraz aksiyası keçirildi. Komor adalarını, Qvadalupanı, Fransa Polineziyasını, Reuniyonu, Yeni Kaledoniyanı, Sen Marteni, Korsikanı və Martinikanı təmsil edən müstəqillik hərəkatlarının nümayəndələri iştirak etdikləri aksiyada "Kolonializmə son, azadlıq", "Azadlıq üçün mübarizə edək", "Azad gələcək üçün birlikdə", "Dekolonizasiya indi başlayır", "Gəlin tarixi öz sözlərimizlə və öz mübarizəmizlə yenidən yazaq!", "Torpaqlarımızı və tariximizi bizə geri ver!" kimi şüarlar səsləndirildi.

Qeyd edək ki, sözügedən bəyannamə 1960-cı il dekabrın 14-də qəbul edilib. Sözügedən aksiya Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı və Fransa müstəmləkələrinin müstəqillik hərəkatlarının üzvlərinin iştirakı ilə təşkil olundu.

Xatırladaq ki, müstəmləkə altında olan ölkələrin nümayəndələri bu qrupun - Bakı Təşəbbüs Qrupunun (BTQ) ətrafında birləşiblər. Bakı Təşəbbüs Qrupu ölkəmizin sədrliyi dövründə Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən yaradılıb, müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda ədalətli mübarizəsinə dəstək verir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# İcma: "İrqçi mühakimələr yürüdən dairələr Azərbaycanın daxili işlərinə müdaxilədən əl çəkməlidir"

**İsveçrə parlamentinin aşağı palatasında Azərbaycan əleyhinə qəbul edilmiş qətnamədə yer almış şər-böhtan, hansısa "sülh forumunun çağırılması" kimi cəfəng çağırışlar ona səs verənlərin hər gün Zəngəzur dağlarından Azərbaycan tərəfə binoklla baxan təxribatçı siyasətçilər və diplomatlarla birlikdə hərəkət etdiyini göstərir.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda həmçinin deyilir: "Qətnaməni dəstəkləyən deputatların ermənilərin qayıdışının vacibliyini qabardaraq biz Qərbi azərbaycanlılara münasibətdə Ermənistana çağırış etməməsi, etnik və dini təəssübkeşliyin girovuna çevrilməsi, 20-ci əsrin əvvəllərində baş verdiyi iddia edilən uydurma hadisələrə istinad etmələri, Azərbaycana qarşı xüsusilə şanlı Vətən müharibəsindən sonra Qərbdə bəziləri tərəfindən aparılan "səlib yürüşü"nə qoşulmaları ikrah doğurur.

Regiondan uzaqda yerləşən, məsələlərin mahiyyətini dərk etməyən, diletant, irqçi mühakimələr yürüdən dairələr Azərbaycanın suverenliyinə qəsdən, onun daxili işlərinə müdaxilədən və qondarma təşəbbüslərdən əl çəkməlidir".

# Azərbaycan vətəndaşlarının repatriasiyası və hüquqlarının təmini ombudsmanın diqqətindədir

**Xarici ölkədə çətin həyat şəraitində olan vətəndaşlarımızın repatriasiyası, onların hüquq və azadlıqlarının təmini vəziyyəti ombudsman tərəfindən diqqətdə saxlanılır.**

Bu barədə AZƏRTAC-a Ombudsman Aparatının Mətbuat xidmətindən bildirilib. Qeyd olunub ki, son illərdə Suriya Ərəb Respublikasının ərazisində yerləşən düşərgələrdə saxlanılan yaxın qohumlarının, xüsusilə qadın və uşaqların ölkəmizə qaytarılmasında köməklik göstərilməsi ilə bağlı ombudsmana ünvanlanan müraciətlər üzrə zəruri tədbirlər görülüb. Həmin ərizəçiləri qəbul edən ombudsman mövcud problemin araşdırılması, həlli, vətəndaşlarımızın ölkəyə qaytarılması, onlar barəsində məlumatların alınması və dəqiqləşdirilməsi, təxirəsalınmaz humanitar dəstəyin və tibbi yardımın göstərilməsi istiqamətində səlahiyyətli qurumlarla əməkdaşlığını davam etdirir.

Müraciətlər üzrə aidiyyəti qurumlara göndərilmiş sorğular nəticəsində uşaqların Azərbaycana qayıtması üçün zəruri sənədlərin hazırlanması və digər məsələlər həll edilib.

Eyni zamanda ümumilikdə ombudsman Suriyada qalan vətəndaşlarımızın qaytarılması və onların hüquqlarının təmini istiqamətində zəruri tədbirlərin görülməsi məqsədilə müxtəlif vaxtlarda Nazirlər Kabinetinə, həmçinin digər səlahiyyətli dövlət qurumlarına müraciətlər edib.

Bununla yanaşı, Beynəlxalq Qızıl Xaç Komitəsinin və BMT-nin Uşaq Fondunun Azərbaycandakı Nümayəndəliyi ilə bu istiqamətdə müzakirələr aparılıb.

Məlum olduğu kimi Azərbaycan Hökuməti tərəfindən görülən tədbirlər nəticəsində müntəzəm olaraq Suriyada saxlanılan vətəndaşların ölkəyə repatriasiyası həyata keçirilir.



Ombudsman və onun nümayəndələri müxtəlif vaxtlarda ölkəyə repatriasiya edilmiş həmin şəxslərlə görüşüb, onların hüquqlarının təmini vəziyyəti yerində araşdırılıb.

Repatriantlarla görüş zamanı onların ümumi və psixoloji vəziyyəti qiymətləndirilir, problemləri və ehtiyacları öyrənilir, hüquqlarının müdafiəsi ilə bağlı tövsiyələr verilir. Repatriantların yerləşdirildikləri müəssisə tərəfindən onların reabilitasiyası üzrə görülmüş tədbirlər barədə lazımi məlumatlar Aparatın əməkdaşlarına təqdim olunur. Görüş çərçivəsində, həmçinin repatriantlara müvəkkilə müxtəlif vasitələrlə müraciət imkanları barədə məlumat verilir.

Qeyd edək ki, ombudsman və onun nümayəndələri tərəfindən Suriya Ərəb Respublikasından repatriasiya edilmiş Azərbaycan Respublikası vətəndaşlarından 54-ü uşaq, 16-sı qadın olmaqla 70 nəfərlə görüş keçirilib, onların hüquqlarının təmini vəziyyəti öyrənilib. Eyni zamanda repatriantların hüquqlarının təmin olunmasına dair ombudsmana ünvanlanan müraciətlər üzrə müvafiq qurumlarla əməkdaşlıqda lazımi tədbirlər görülüb. Görülmüş tədbirlər nəticəsində müraciətlərdə qeyd olunan əsasən uşaqların doğum haqqında şəhadətnamələrinin, sosial yardımın verilməsi, psixoloji dəstək xidmətlərinin göstərilməsi və digər bu kimi məsələlər təmin edilib.

# Bir ay keçməsinə baxmayaraq...

## COP29 beynəlxalq aləmdə əsas müzakirə mövzularından olaraq qalır

**Azərbaycanın evsahibliyi etdiyi COP29-dan təxminən bir ay keçir. Buna baxmayaraq, bəşəriyyətin gələcəyi ilə birbaşa bağlı olan tədbirin yekunları və ev sahibi kimi Azərbaycanın gördüyü işlər barədə yüksək səviyyədə rəylər gəlməkdə davam edir.**

Azərbaycan COP29-la istər regional, istərsə də qlobal iqlim problemlərinin həllində lider imicini möhkəmləndirdi, mötəbər tədbirlərin təşkilində məsuliyyətini nümayiş etdirdi. Bu da onu deməyə əsas verir ki, ölkəmiz müxtəlifyönlü beynəlxalq tədbirlərin keçirilməsi üçün ən uyğun və təhlükəsiz bir ünvandır. Azərbaycanın bəşəriyyətin gələcək taleyinin həllinə kömək məqsədilə bütün mümkün resurslarını ortaya qoyması bu əminliyin təminatıdır.

Bu günlər ABŞ-nin Xəzər Siyasət Mərkəzi Londonda "Xəzər Enerji Təhlükəsizliyi və COP29-dan sonra" mövzusunda konfrans təşkil etmişdir. Konfransda Xəzər Siyasət Mərkəzinin direktoru Əfqan Niftinin söylədiyi "Biz COP-da razılaşmanın əldə olunmasından çox məmnunuq və Azərbaycan sədrliyini buna nail olduğu üçün təbrik edirik" sözlərini həm də qlobal tədbirin müsbət əks-sədası kimi qəbul etmək olar. Avropa İttifaqının Böyük Britaniyadakı Nümayəndəliyinin enerji məsləhətçisi Nikolas Rey, "TelosNRG" şirkətinin sədri Anqus Miller, Exeter Universitetinin Biznes Əlaqələri və İnnovasiya üzrə prorektor müavini Dr. Stuart Brocklehurst da çıxışlarında Azərbaycanın tədbirə hazırlaşmaq üçün qısa vaxtının olmasına baxmayaraq, olduqca yüksəksəviyyəli bir qonaqpərvərliyindən, peşəkarlıqla tədbirə evsahibliyi etdiyindən danışmışlar.

Söz düşmüşkən qeyd edək ki, bir qayda olaraq COP sessiyalarının keçirilməsi üçün ona evsahibliyi edəcək ölkə iki il əvvəldən hazırlıqlara başlayır. Amma Azərbaycanın cəmi 10 gün vaxtı vardı və ölkəmiz bu müddətdə bütün hazırlıqlarını başa vurdu, Bakı Olimpiya Stadionunun qapıları 196 ölkənin 70 mindən çox nümayəndəsinin üzünə açıldı. Bu barədə Stuart Brocklehurst belə demişdir: "Müqayisə üçün, Avstraliya hələ rəsmi olaraq COP31-in ev sahibi elan olunmasa da, bu tədbir üçün artıq onların diplomatik komandası hazırlıqlara başlayıb. Bakının isə hazırlıq üçün bir ildən az bir zamanı var idi. Bu qədər qısa müddət ərzində belə bir tədbirin təşkili böyük bir uğurdur". Brokliharst onu da bildirmişdir ki, Bakıda keçirilən tədbirdə siyasi liderlərdən tutmuş biznes rəhbərlərinə, mütəxəssislərə qədər çox geniş spektrli şəxslər iştirak ediblər: "Onların bəziləri bəlkə də adi halda Xəzər dənizi regionuna səfər etməzdi. İştirakçılar tədbir zamanı Azərbaycan insanlarının və mədəniyyətinin qonaqpərvərliyi ilə bağlı çox müsbət təəssüratlarla qayıdıblar. Veteran COP iştirakçıları arasında tədbirin son illərdəki bütün COP-lardan daha yaxşı təşkil edildiyini vurğulayan çox sayda insan var idi".

Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Reşetnikov bu yaxınlarda "İnterfaks" agentliyinə müsahibəsində bildirib ki, BMT-nin beynəlxalq iqlim konfransında (COP29) yekun sənədin qəbulu Azərbaycanın diplomatik qələbəsidir: "Burada Azərbaycanın sədrliyinin əsas rolunu və onların komandasının danışıqlarda ustalığını ayrıca qeyd etmək istərdim".

Ötən həftə Pakistanın paytaxtı İslamabadda "Post-COP29" seminarı keçirilib. Tədbirdə Pakistan Baş nazirinin iqlim dəyişikliyi və ətraf mühit üzrə koordinatoru Romina Xurşid Alam, Azərbaycanın bu ölkədəki səfiri Xəzər Fərhadov və digər vəzifəli şəxslər iştirak ediblər. Xəzər Fərhadov çıxışında COP29-un uğurla keçdiyini, çox sayda dünya liderinin Azərbaycana gəldiyini, müzakirələrdə 76 mindən çox insanın iştirak etdiyini diqqətə çatdırıb. Romina Xurşid Alam COP29-da Pakistanın texniki və siyasi danışıqlarından söz açaraq, onların beynəlxalq müşahidəçilər tərəfindən də yüksək qiymətləndirildiyini söyləyib. O, Pakistanın tezliklə yol xəritəsini formalaşdırmaq üçün V20 (The Vulnerable Twenty) toplantısına evsahibliyi edəcəyini bildirib.

Son bir həftədə Qırğızıstan, CAR, Türkiyə, İtaliya, Braziliya, İsveç, Moldova, Qazaxıstan, Çin, Tacikistan, Səudiyyə Ərəbistanı, Kiprdə qlobal iqlim dəyişmələri və ətraf mühitin qorunması ilə bağlı baş tutan tədbirlərdə də COP29-un yüksək peşəkatrlıqla keçirilməsindən söz açılıb. Müxtəlif xarici dövlətlərdən gələn rəsmi nümayəndə heyətlərinin, o cümlədən çox sayda əcnəbi qonağın hava limanında qarşılanması, hotellərdə xidmətin təşkili, habelə nəqliyyat və təhlükəsizlik məsələlərinin həlli, eləcə də sərgi pavilyonlarında rahatlığın və geniş imkanların yaradılması vurğulanıb.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Paşinyandan Moskva əleyhinə qərar

## Ölkədə gələn ildən Rusiya telekanalları bağlanır

**Ermənistanda media azadlığı sahəsində vəziyyət olduqca gərgindir. Məğlub ölkədə jurnalistlər təqib olunur, mətbu orqanlar müxtəlif bəhanələrlə bağlanılır. Jurnalistlər addımbaşı qadağalar və təzyiqlərlə üzləşir, tez-tez döyülürlər. Əgər hakimiyyət media üzərində təzyiqlərinə davam edərsə, vəziyyət daha da pis olacaq. İndi ölkə mətbuatı heç vaxt olmadığı qədər təhlükə altındadır. Baş nazir Nikol Paşinyan jurnalist olduğunu unudub. Bir il ərzində ölkədə jurnalistlərə qarşı 70-ə yaxın zorakılıq halı qeydə alınıb.**



Hökumət media təmsilçilərinin mitinqləri işıqlandırması haqqında beynəlxalq səviyyədə öhdəlik götürsə də bunun əksi müşahidə olunur. Bütün bunların fonunda "Keçmiş" qəzeti yazır ki, uzun müddətdir Rusiya kanallarının Ermənistanın milli multipleksiyasından çıxarılması məsələsi fəal şəkildə müzakirə olunur.

Qeyd edilib ki, bu proses yeni ildən qüvvəyə minə bilər: "Hakim "Mülki Müqavilə" fraksiyasına yaxın mənbələr bildirirlər ki, Paşinyan hökuməti Ermənistanda Rusiya telekanallarını birdəfəlik bağlamaq üçün yekun qərar qəbul edib. Bildirildiyinə görə, bu proses yanvarda başlayacaq. Yeri gəlmişkən, hakimiyyətin "multipleks olmayan" Rusiya kanallarının, xüsusən də "informasiya-siyasi" adlanan kanalların yayımını məhdudlaşdırmaq variantları tapmağa çalışdığı barədə məlumatlar var".

Ermənistanda hazırda Rusiyanın "Perviy Kanal", "RTR Planeta", "Rossiya. Kultura" və dövlətlərarası televiziya kanalı "Mir" yayımlanır.

Ümumiyyətlə, Ermənistanda sosial gərginlik artır. Hər sahədə böhran yaşanır. Ermənistan cəmiyyətində yoxsullarla zənginlər arasında böyük uçurum yaranıb. Korrupsiya, rüşvət, biznesin gəlirli sahələrinin hakimiyyətə yaxın adamların əlində olması əhaliyə seçim imkanı saxlamayıb. Əməkhaqqının cüzi olması işləyənlərin də güzəranının yaxşılaşmasına imkan vermir. Özəl sahədə çalışanlar isə açıq-aşkar oliqarxlar tərəfindən istismar olunurlar. Ermənistanda informasiya texnologiyaları, bank və tikinti sahələrində işləmək üçün peşəkar kadrlar çatışmır. Ölkəni tərk etmək istəyənlər nəinki özlərinin, eyni zamanda, övladlarının da yaxşı gələcəyini görmürlər. Bütün bunlar ölkədən getmək üçün əsas səbəblərdir. Baş nazir Nikol Paşinyan sosial-iqtisadi inkişaf istiqamətində tədbirlər görəcəyini dəfələrlə bəyan etsə də, hələlik bu sahədə heç bir irəliləyiş müşahidə olunmur. Ekspertlər qeyd edirlər ki, yaxın gələcəkdə də Ermənistanda sosial-iqtisadi vəziyyətin düzələcəyinə heç ümid də yoxdur.

Yerli medianın yazdığına görə, Ermənistan hakimiyyəti öz cibindən savayı, hər yerdə maliyyə vəsaiti axtarır. Necə deyərlər, pul üstündə oturaraq, pul istəyirlər. Bu sözlər hakimiyyətin bütün sisteminə aiddir. Bu sistemə Ermənistanda indi hakimiyyətdə təmsil olunan, eləcə də böyük biznesdə iştirak edən məmurlar daxildir. Ermənistan hakimiyyəti sisteminin nümayəndələrinin şəxsi hesablarında (Ermənistanda və xaricdə açılan hesablarda) milyonlarla, bəlkə də milyardlarla vəsait toplanıb. Bu yaxınlarda xarici təşkilatlardan birinin araşdırmasında Ermənistanla bağlı deyilirdi ki, son 22 ildə bu ölkədən qanunsuz yolla 10 milyardan çox dollar çıxarılıb.

"4rd.am" nəşri yazır ki, Ermənistanda iqtisadi fəallığın azalması kənd təsərrüfatına da təsirsiz ötüşməyib. Hazırda bu ölkənin kənd təsərrüfatını bürüyən tənəzzül elə həddə çatıb ki, artıq sadə erməni kəndlisi də torpağı becərmək həvəsindən düşüb. Yetişdirdiyi məhsulu sata bilməyən kəndlilər məcburən istehsal etdiklərini dövlət orqanlarının tabeliyində olan qəbul məntəqələrinə verməli olurlar. Amma bu da onların problemlərini həll etmir. Çünki qəbul məntəqələrindən məhsulun pulunu ala bilmirlər. Erməni kəndlisi bankdan götürdüyü kredit hesabına yetişdirdiyi məhsulu nə sata bilir, nə də qəbul məntəqələrindən pul ala bilir. Ona görə də məhsulların böyük hissəsi zay olub gedir.

Qeyd olunur ki, ölkədə emal müəssisələrinin olmaması da erməni kəndlisi üçün böyük problemlər yaradır: "Reallıq budur ki, artıq əyalətlərdə yaşayış sönüb. Kənd təsərrüfatında çalışanlar səfil həyatdan beziblər. Ümidsizliyə qapılan erməni kəndlilərinin də sayında son zamanlar xeyli azalmalar müşahidə edilməkdədir".

Beləliklə, baş verən proseslər onu göstərir ki, Ermənistanın indiki çöküşü davam edəcək, ölkə daha böyük sürətlə tənəzzül girdabına yuvarlanacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Nəqliyyat dəhlizləri Azərbaycanın tranzit imkanlarını artırıb

**"Son 5 ildə Azərbaycanın xarici ticarət dövriyyəsi 2 dəfədən çox artaraq 52 milyard dollara çatıb". Bunu Prezidentin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov "Gömrük-Biznes Forumu 2024: Dialoq" tədbirində çıxışı zamanı deyib.**

Şahmar Mövsümov qeyd edib ki, gömrük prosedurlarının sadələşdirilməsi, bürokratik maneələrin aradan qaldırılması sayəsində yerli və xarici investorlar üçün daha əlverişli imkanlar yaradılıb. Onun sözlərinə görə, nəqliyyat dəhlizləri Azərbaycanın tranzit imkanlarını artırıb və biznes subyektləri üçün əhəmiyyətli imkanlar yaradıb: "Xüsusilə Orta dəhliz vasitəsilə Çindən Avropaya daşınan yüklərin tranzit müddəti 8-10 günə qədər azalıb".

## Gəlirlərin toplanması istiqamətində elektron bildiriş sistemi hazırlanıb

**"Gömrük rüsumları və vergiləri 2023-cü ilin dövlət büdcəsinin 18 faizini, ÜDM-in 5,2 faizini təşkil edib". Bunu Dövlət Gömrük Komitəsinin (DGK) sədri Şahin Bağırov "Gömrük-Biznes Forumu 2024: Dialoq" tədbirində çıxışı zamanı deyib.**

DGK sədri onu da bildirib ki, büdcə daxilolmaları üzrə gömrük gəlirlərində 2023-cü ildə 2022-ci illə müqayisədə 12,4 faiz artım müşahidə olunub. Onun sözlərinə görə, komitə gəlirlərin toplanması istiqamətində elektron bildiriş sistemi və təminat əsasında malların buraxılış mexanizmini hazırlayıb. "Gəlirlərin toplanması istiqamətində beynəlxalq standartlara uyğun metodik vəsait, elektron bildiriş sistemi və təminat əsasında malların buraxılış mexanizmi hazırlanıb", - deyə o vurğulayıb.

## Qarabağda əmək qabiliyyətli vətəndaşların 85 faizi işlə təmin olunub

**"Son 6 ildə əməkhaqqı fondunun 3,2 dəfədən çox artması biznesin inkişafının əsas göstəricilərindəndir". AZƏRTAC xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev "Gömrük-Biznes Forumu 2024: Dialoq" tədbirində çıxışı zamanı deyib.**

Onun sözlərinə görə, qeyd edilən dövr ərzində Azərbaycanda əmək müqavilələrinin artımının 80 faizi özəl sektorun sayəsində olub. Nazir bildirib ki, Qarabağda əmək qabiliyyətli vətəndaşların 85 faizi işlə təmin edilib: "Qalan vətəndaşların məşğulluğunun təmin edilməsi istiqamətində işlər davam edir".

# Bugünkü uğurlar sabaha daha inamla baxmağa əsas verir

**2024-cü ilin tarixə qovuşmasına iki həftədən də az vaxt qalır. Odur ki, ilboyu baş verən mühüm hadisələr, keçirilən əhəmiyyətli tədbirlər bir-bir yada düşür. Hər sahədə görülmüş işlər bir daha təhlil edilərək onlara yekun vurulur və qarşıdakı ildə həyata keçiriləcək layihələrin, nəzərdə tutulan tədbirlərin planı tutulur, konturları çəkilir. Bu da təsadüfi deyil, çünki hər yeni ilin təməli elə əvvəlki illərin özüdür.**



Məlum olduğu kimi, Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilib. Burada beş milli prioritetdən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən olunub. Bu ilin dövlət başçısı tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də məhz həmin prioritetin məntiqi davamına çevrildi. Dünyada ən böyük beynəlxalq tədbirlərdən olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti - 29-cu sessiyasının (COP 29) Azərbaycanda keçirilməsi də məhz "Yaşıl dünya naminə həmrəylik ili"mizdə baş tutdu. Və COP29-dan söz düşmüşkən qeyd edək ki, ölkəmiz bu möhtəşəm tədbirə yüksək səviyyədə evsahibliyi etdi. Dünya Azərbaycanın nailiyyətlərini, çoxlu sayda qonaq qəbul etmək və mötəbər tədbirlər keçirmək bacarığını bir daha gördü. Eləcə də "yaşıl gündəliyimiz" hamıya bir daha bəlli oldu.

Ümumiyyətlə, 2024-cü il xalqımızın, ölkəmizin həyatında zəngin hadisələrlə dolu bir ildir. Bu il müdrik dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevi yenidən Prezident seçdik. Rəhbərimizin ətrafında həmişə olduğu kimi sıx birləşərək yeni uğurlara imza atdıq. Respublikanın hər bölgəsində müsbət yeniliklər baş verdi: yeni müəssisələr açıldı, infrastruktur yaradıldı, yollar çəkildi, körpülər salındı. Düşmənin 30 il ərzində xarabalığa çevirdiyi yurd-yuvamızın yenidən qurulmasını sürətlə davam etdirdik. Başqa sözlə, bu il Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri daha geniş vüsət aldı. Bu il də yeni evlər tikildi, iş yerləri açıldı, neçə kənd və şəhər məskunlaşmağa başladı.

İşğaldan azad olunmuş ərazilərimizdə hətta beynəlxalq tədbirlər keçirildi. Deyilənlərə qayıdaraq qeyd edək ki, ümumiyyətlə, çoxsaylı beynəlxalq tədbirə evsahibliyi etdik. "Əsrin müqaviləsi"nin 30 illiyi qeyd olunan bu ildə növbəti "Bakı Enerji Həftəsi" də böyük uğurla keçirildi. İqtisadiyyatımızın bel sütunu olan neft-qaz sektorunda nailiyyətlər davam etdirilməklə yanaşı, "yaşıl enerji"yə keçiddə də irəliyə addımlar atıldı. "Yaşıl enerji" layihələri paytaxtdan bölgələrə "addımladı". Abşeronda, Neftçalada, Biləsuvarda, hətta işğaldan azad olunmuş Cəbrayıl rayonunda tikiləcək yeni bərpaolunan enerji stansiyalarının təməli qoyuldu.

Bu il sentyabrın 26-da Prezident İlham Əliyevin iqtisadi məsələlərə həsr olunmuş müşavirədə dediyi kimi: "İlin əvvəlindən iqtisadi inkişaf gözlənilən səviyyədədir. Və bu il iqtisadiyyatımız üçün uğurlu olacaq. İlin əvvəlindən əldə edilmiş nəticələr və iqtisadi göstəricilər də bunu təsdiqləyir".

Beləliklə, ilin ötən 11 ayına aid bəzi makroiqtisadi göstəricilər: yanvar-noyabr aylarında iqtisadi artım 4,1 faiz olub, o cümlədən qeyri-neft sektoru 6,4 faiz artıb. Strateji valyuta ehtiyatları 72 milyard dolları ötüb. Birbaşa xarici dövlət borcu ÜDM-in cəmi 7,3 faizini təşkil edir. Ölkədə makroiqtisadi və maliyyə sabitliyi təmin olunub.

Azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərinə 2020-ci ildən başlayaraq ümumilikdə 22 milyard manata yaxın, o cümlədən 2025-ci ildə 4 milyard manat vəsait ayrılıb. Böyük Qayıdış çərçivəsində bu günədək 2417 ailə - 9306 nəfər öz doğma yurd-yuvasına köçürülüb.

Ölkə ərazisində qazlaşdırılma səviyyəsi 96,6 faizə çatıb (o cümlədən Naxçıvanda 100 faiz). Bu göstəriciyə görə Azərbaycan MDB ölkələrini və digər qonşu ölkələri qabaqlayır. 2021-ci ildən bu günədək ölkə üzrə 2700 kilometrdən çox avtomobil yolu yenidən qurulub və təmir olunub. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə 45 layihə icra edilir.

Gələcək üçün qurulan planlarımız əsaslı, proqnozumuz nikbin, əzmimiz böyükdür. 2025-ci ildə dövlət büdcəmizin gəlirləri təxminən 38,4 milyard manat, xərcləri isə 41,4 milyard manat proqnozlaşdırılır. Dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti 2,4 faizdir. Büdcə layihəsi müasir Azərbaycan tarixində ən böyük büdcədir. Makroiqtisadi proqnozlara əsasən, 2025-ci ildə ümumi daxili məhsulun 3,5 faiz (129,2 milyard manat), qeyri-neft sektoru üzrə isə 4,9 faiz real artım tempi gözlənilir. Gələn ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri ümumi büdcə xərclərinin 20,6 faizini təşkil edir.

Növbəti ilin büdcəsinin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı olacaq. Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətinin prioritetləri sırasında qalmağa davam edəcək. Dövlət büdcəsində "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan layihələrin maliyyələşdirilməsinə 1,1 milyard manat və investisiya xərclərindən sosial və infrastruktur təyinatlı layihələrə 540 milyon manat vəsait ayrılacaq.

Ümumilikdə bütün istiqamətlər üzrə sosialyönlü xərclər dövlət büdcəsi xərclərinin 40 faizini üstələyir. 2025-ci ildə minimum əməkhaqqı, pensiya, müavinət və digər sosial ödənişlərdə yeni artımlar 3 milyona yaxın vətəndaşı əhatə edəcək.

Ölkəmizdə iqtisadiyyatın inkişafı ilə sosial məsələlərin miqyasının genişlənməsi bir-biri ilə sıx bağlıdır. Başqa sözlə, iqtisadiyyatımız inkişaf etdikcə vətəndaşların rifah halı daha da yaxşılaşır. Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, dövlətimizin siyasətinin mərkəzində vətəndaşın maraqları dayanır. Bu il də belə olub, gələn illərdə də belə olacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycan Ər-Riyadda BMT-nin 19-cu İnternet İdarəçilik Forumunda iştirak edir

**Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində BMT-nin 19-cu İnternet İdarəçiliyi Forumu keçirilir.**



Bu barədə Səudiyyə Ərəbistanının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi məlumat yayıb.

Bildirilib ki, tədbirdə 170 ölkədən 10 mindən çox qonaq iştirak edir. Həmçinin mindən çox beynəlxalq mütəxəssisin çıxışı gözlənilir. Qeyd olunub ki, dekabrın 19-dək davam edəcək forum çərçivəsində 300-ə yaxın panel iclasın və xüsusi seminarın keçirilməsi planlaşdırılır. Forum çərçivəsində internet idarəçiliyinin yenilikləri ilə bağlı beynəlxalq siyasətlər və meyillər müzakirə olunacaq, ən yaxşı təcrübələr paylaşılacaq. Forumun əsas məqsədi ideyaların mübadiləsi üçün bir platforma yaratmaq, bu yolla iqtisadi inkişafı və cəmiyyətin rifahını təşviq etmək, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə töhfə verməkdir.

Forumda Azərbaycanı İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin nümayəndə heyəti təmsil edir. Strateji tərəfdaşlıq və beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Orxan İsmayılov AZƏRTAC-a bildirib ki, nümayəndə heyətinin üzvləri Azərbaycanın dayanıqlı rəqəmsal inkişaf konsepsiyası, rəqəmsal hökumət həlləri və innovasiya ekosistemi, ölkəmizdə rəqəmsal savadlılığın artırılması, Azərbaycan İnnovasiya Mərkəzinin fəaliyyəti və hədəfləri barədə danışacaq. Qeyd olunub ki, nümayəndə heyəti "Quql"un Ər-Riyad ofisində görüş keçirəcək.

Forumda dörd əsas - rəqəmsal məkanda innovasiyaların tətbiqi və risklərin balanslaşdırılması, rəqəmsal texnologiyaların sülhə, inkişafa və dayanıqlılığa töhfəsini artırmaq, rəqəmsal dövrdə insan potensialını artırmaq və inklüzivliyi təşviq etmək, həmçinin internetin rəqəmsal idarəçiliyini təkmilləşdirmək mövzuları olacaq.

## Qusarda 23 kilometrlik avtomobil yolu yenidən qurulub

**Qusar rayonunda 5 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Qusar-Xudat (18 km) - Langi - Caqarqışlaq - Urvaoba - Atlıxan - Kuzunqışlaq-Zindanmuruqqışlaq - Avaranqışlaq avtomobil yolunun əsaslı təmiri yekunlaşıb.**



Uzunluğu 23 kilometr olan avtomobil yolu uzun müddət təmir olunmadan istifadə edildiyindən və təbii faktorların təsirindən yararsız vəziyyətdə idi. Bu səbəbdən əsaslı şəkildə yenidən qurulmasına və bərpasına ehtiyac yaranan yollar 4-cü texniki dərəcəyə uyğun təkmilləşdirilib, yolların eni 10 metrə qədər genişləndirilib.

10 km hissəsi yararsız asfalt, 13 km hissəsi isə torpaq əsasdan ibarət olmuş yollarda Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən torpaq işləri, qazma, yolun normativ eninin alınması üçün genişləndirmə işləri görülüb, yolboyu suların ötürülməsi məqsədilə zəruri yerlərdə suötürücü boruların tikintisi işləri icra olunub. Texnoloji ardıcıllığa uyğun daha sonra yol əsasının tikintisi aparılıb, yola 2 qat olmaqla yeni asfalt-beton örtüyü döşənib.

Layihənin sonuncu mərhələsində hərəkətin normal təşkili üçün yol nişanlarının quraşdırılması, yolcizgi və yolgöstərici xətlərinin çəkilməsi işləri aparılıb.

# "Dayaq" sahibkarlara dayaq durur

**İqtisadiyyatda özəl bölmənin xüsusi çəkisinin artırılması Azərbaycanın dövlət siyasətinin prioritetləri sırasında yer alır. Davamlı olaraq liberal iqtisadiyyatın inkişafı, bu sektorda istehsal və ixrac imkanlarının genişləndirilməsi təşviq olunur, bu məqsədlə praktiki müstəvidə lazım olan bütün tədbirlər görülür.**



Məlum olduğu kimi, Azərbaycanda iqtisadiyyatın prioritet sahələrinin üstün inkişafına nail olmaq üçün yeni nəsil islahatlar reallaşdırılır. Təbii ki, özəl sektor həmin islahatlardan kənarda qalmır. Əksinə, yeni iqtisadi şəraitdə Azərbaycanın dövlət başçısının imzaladığı fərman və sərəncamları ilə reallaşdırılan bu cür islahatların böyük bir qismi məhz sahibkarlığın inkişafının təşviq edilməsinə, ölkədə biznes mühitinin cəlbediciliyinin artırılmasına hesablanır.

Bu gün müasir Azərbaycanın güclü sahibkar ordusunun milli iqtisadiyyatımızda getdikcə artan rolunu inkar edə bilmərik. Bunu şərtləndirən amillər ölkəmizdəki sabitlik, güclü iqtisadi potensial, yeni çağırışlara uyğun yaradılan mükəmməl hüquqi baza, müasir infrastruktur təminatı və əlverişli sərmayə mühitinin yaradılmasıdır. Bu səbəbdən də sahibkarlar öz vəsaitlərini ölkə daxilində müxtəlif layihələrə yönəltməyə üstünlük verirlər. Həmin işdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) hər zaman sahibkarların yanında olur, onlara bineslərini qurmaqda və inkişaf etdirməkdə hərtərəfli dəstək verir.

KOBİA tərəfindən 2022-ci ildə təsis edilmiş "Dayaq" mükafatı da məhz sahibkarlara çıxdıqları yolda dayaq olmaq üçün təsis olunub. Məqsəd biznesində innovativ və müasir yanaşmalar tətbiq edən, ixracyönümlü məhsul və xidmətlər istehsal edən, aktiv investisiya fəaliyyəti ilə seçilən, məşğulluğun təmin edilməsinə öz töhfəsini verən şirkətləri mükafatlandırmaqla stimullaşdırmaq, eləcə də sahibkarların qazandıqları uğurları ictimaiyyətin diqqətinə çatdırmaq, biznes düşüncə tərzini təşviq etmək, dövlət və özəl sektor arasında əlaqələri daha da möhkəmləndirməkdir. Rəmzi məna daşıyan "Dayaq" mükafatı həm də dövlətin daim sahibkarların yanında olduğunu göstərir.

Mükafat 3 ildir biznes nümayəndələrinə təqdim edilir. Bu günlər 2024-cü il ərzində sadalanan istiqamətlər üzrə seçilən daha 15 biznes subyektinə mükafat təqdim olunub. Dövlət qurumlarının nümayəndələrinin, millət vəkillərinin, sahibkarların, beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilən təqdimetmə tədbirində çıxış edənlər sosial-iqtisadi sahədə, özəl bölmədə əldə olunmuş uğurlar, həmçinin növbəti illərdə iqtisadiyyat və sahibkarlıq sahəsində gözlənilən yeniliklərdən danışıblar, sahibkarlıq sahəsində qanunvericilik təşəbbüsləri, KOB-ların dayanıqlı və davamlı iqtisadi inkişafda, "yaşıl keçid"də rolu, dövlət-özəl əməkdaşlığı barədə fikirlərini bölüşüblər.

Sonra 2024-cü ildə uğur qazanmış 15 sahibkarlıq subyektinə dövlət qurumlarının rəhbər şəxsləri tərəfindən müxtəlif nominasiyalar üzrə "Dayaq" mükafatları təqdim olunub. Sahibkarlar "Turizm", "Fəal xarici şirkət", "Fəal ixracatçı şirkət", "Uğurlu fermer", "Gənc sahibkar", "Uğurlu qadın sahibkar", "İlin investoru", "Əlillik məhdudiyyət deyil", "İnnovativ həllər", "Uğurlu startap", "Naxçıvan Muxtar Respublikasında uğurlu şirkət", "Halal biznes", "Azad olunmuş ərazilərdə uğurlu biznes", "Yaşıl biznesin təşviqi" və "Təmiz ətraf mühit və yaşıl artım" nominasiyaları üzrə mükafatlandırılıblar. Həmçinin KOBİA tərəfindən Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) KOB evlərində "G2B xidmətlərinin səmərəli təşkili" nominasiyası üzrə mükafata layiq görülüb.

Tədbir çərçivəsində KOB-ların təhsil, elm, tədqiqat və dəstək istiqamətləri üzrə layihələrinin maliyyələşdirilməsi məqsədilə KOBİA tərəfindən elan edilmiş 6-cı qrant müsabiqəsinin 20 qalibinə qrant mükafatları da təqdim olunub. Qeyd edək ki, KOB-ların sözügedən layihələrinin maliyyələşdirilməsinə dəstək üçün indiyədək 6 qrant müsabiqəsi keçirilib və bu müsabiqələr çərçivəsində 99 layihəyə 1,7 milyon manat həcmində qrant ayrılıb.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində 20 mininci şəxsə aktivlər təqdim edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" üzrə 20 mininci şəxsə aktivlər təqdim edilib.**

Həmin şəxs Bakı şəhər sakini, şəhid ailəsi üzvü İlahə Eyvazovadır. O, "Qadın gözəllik salonu" zərfi üzrə proqrama müraciət edib. Təlim və qiymətləndirmə mərhələsini uğurla tamamladıqdan sonra İlahə Eyvazovaya öz işini qurması üçün lazım olan avadanlıqlar verilib.

Qeyd edək ki, özünüməşğulluq proqramının genişləndirilməsində mühüm dəstək olan "Məşğulluğa Dəstək Layihəsi" əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, aztəminatlı ailələrin üzvləri və digər həssas qruplara aid işsiz şəxslərin istehsal və xidmət sahələri üzrə kiçik biznesə çıxışına imkan yaradır.

2020-2025-ci illəri əhatə edən və 22 min işsiz şəxsi əhatə etməsi nəzərdə tutulan layihənin uğurlu icrasının nəticəsi olaraq 2025-ci ilin sonunadək bu rəqəmin 25 minə çatdırılması hədəflənir.



# Bakının "Qış nağılı" başladı









**Hər il Yeni il ərəfəsində Bakının digər küçə və meydanları kimi, Fəvvarələr meydanı da öz libasını dəyişərək bizi nağıllar aləminə aparır. Artıq 11 ildir ki, bayram günlərində fəaliyyətinə başlayan "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkası bu meydanın bəzəyinə çevrilir. Böyükdən kiçiyə hər kəsin səbirsizliklə gözlədiyi yarmarka paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının üzünə açıqdır.**




"Soyuq əllər, isti ürək" yarmarkası yeni qurulmuş 64 böyük və 20 balaca ev, 3 ədəd ikimərtəbəli restoran, oyun zonası, fotozona, 4D kinoteatr, qorxu otağı, kiçik köşklər, müxtəlif tematik guşələr, labirint otağı, Santa evi və böyük Yeni il ağacından ibarətdir. Ərazidə quraşdırılmış iki böyük monitorda yarmarka haqqında ətraflı məlumat və xəritə nümayiş olunur. Qonaqlar məkandakı köşklərdən maraqlı Yeni il hədiyyələri, suvenirlər, kitablar, geyimlər ala, tematik və digər guşələrə baş çəkə, müxtəlif isti və ya soyuq içkilərdən içə, Qərbin və Şərqin unikal ləzzətli təamlarını kəşf edə, maraqlı oyunlar oynaya bilərlər.

"Soyuq əllər, isti ürək"də müasirliklə ənənəviliyin ahəngdar əvəzlənməsi könülləri oxşayır. Avropa modernizmi ilə Şərq üslubu harmoniya təşkil edir, insanlar yarmarkada gəzərkən qeyri-ixtiyari bayram əhvali-ruhiyyəsinə köklənir, yorğunluğunu, gündəlik qayğılarını unudurlar.

Yeni il sehrini kəşf etmək istəyənlər mütləq bu məkana baş çəkməlidirlər. Şam ağacının ətrafında qaçışan uşaqlar, Şaxta baba ilə rəsm çəkdirmək üçün növbə gözləyən balacalar, övladlarının sevincinə baxıb qürurlanan valideynlər, pavilyonların qarşısında əllərində isti içkilər söhbət edib gülüşən gənclər sanki sulu boya ilə çəkilən rəsm əsərinə bənzəyir. Bu mənzərəyə tamaşa etmək insanın üzündə xoş gülüş yaradır.

Havanın çox soyuq olmasına baxmayaraq, yarmarkaya maraq yüksək səviyyədədir. Köşklərin hər biri qonaq-qaralıdır, insanlar şəkillər çəkdirir, Yeni il ağacının ətrafına toplaşıb musiqilərin fonunda gəzişir və alış-veriş edirlər. Bir sözlə, burada insanların əylənməsi üçün, demək olar ki, hər cür şərait yaradılıb.

Bu ünvanda həm milli, həm xarici təamları dadmaq mümkündür. Maraqlısı isə odur ki, ətrafa yayılan yeməklərin qoxusu bir-birinə qarışsa da, heç kəsi narahat etmir, əksinə, evlərin qarşısında hər kəs iştahla növbə gözləyir. Növbədə dayananlar da əliboş deyil, kiminin əlində xırtıldayan kartof, kiminin əlində fərqli markalarda qəhvə fincanları var, kimlərsə də qovrulmuş şabalıd və südlü qarğıdalı yeyirdi.

Yarmarkada yerli sakinlərlə yanaşı, çoxsaylı turistə də rast gəlmək mümkündür. İş ilə əlaqədar ölkəmizdə qonaq olan amerikalı Rachel Harris deyir ki, hər il yaşadığı şəhərdə Yeni il yarmarkasını mütləq ziyarət edir: "Bütün ilboyu bu dövrü gözləyirəm. Uşaqlıqdan ən sevdiyim bayramdır. Bu il ziyarət edə bilməyəcəyim üçün çox üzülmüşdüm, ta ki təsadüfən burdan keçəndə yarmarkanı görənə qədər. Yarmarka yüksək səviyyədə, əsl bayram ab-havasında təşkil olunub. Milli təamlarınızı dadmaq üçün səbirsizlənirəm".

Yarmarkada gəzərkən ən böyük növbənin Santa evinin qarşısında olduğunu gördük. Uşaqların gözlərindən, üzlərindəki təbəssümdən Santa Klaus ilə şəkil çəkdirmək üçün necə səbir və həvəslə gözlədikləri hiss olunur. Nəvələri ilə yarmarkaya gələn Bəyim nənə deyir ki, bu növbədə gözləmək onun üçün ənənəvi hala çevrilib: "Nəvələrim neçə gündür yarmarkanın açılmasını gözləyirlər. Ona görə də elə açılışın ilk günü buradayıq. Hər il mütləq Santa Klaus ilə şəkil çəkdiririk. Belə bir izdiham gözləmirdim. Hava soyuq olduğu üçün deyirdim burada insan az olar".

Oyun zonasının yanından keçdikdə uşaqların həvəslə yarışdıqlarını müşahidə edirik. Övladlarının yanında dayanan valideynlərə yaxınlaşırıq.







Oyunda ciddi mübarizə aparan Seymur və Turanın anası Şəlalə xanım gülərək deyir ki, uşaqlar ilboyu bu yarmarkanın açılmasını gözləyirlər: "Buradakı oyunlar da, yeməklər də onlara ayrı bir zövq verir. Nə evdə, nə də digər kafe və restoranlarda yemədikləri təamlar burada onlara çox dadlı və maraqlı görünür. Bayram ərəfəsində fürsət tapdıqca yenə gələcəyik".

Böyük şam ağacının yanından keçərkən bir əli ilə babasının əlindən tutub, digər əli ilə yolkanın oyuncaqlarına toxunan balaca qızcığazın səsini eşidirik: "Baba, baba, bura elə gözəldir ki, elə bil nağıllar aləmidir".

Doğrudur, bura nağıllar aləminə bənzəyir. Bu bənzərlik yalnız "Soyuq əllər, isti ürəy"in bəzənməsində, ab-havasında deyil, həm də nəcib missayasındadır. Belə ki, Yeni il yarmarkası nəinki Azərbaycanda, həm də regionda keçirilən ən böyük xeyriyyə layihələrindən biridir. 2013-cü ildən etibarən bu layihə Nərgiz Fondu tərəfindən həyata keçirilir. Hər il olduğu kimi, builki yarmarkada da toplanan vəsait müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların müalicə və əməliyyat xərclərinin qarşılanmasına sərf ediləcək. "Soyuq əllər, isti ürək" yarmarkası sayəsində ağır xəstəliklərlə mübarizə aparan uşaqlar sağlamlıqlarına qovuşurlar.

Bu il yarmarka yanvarın 15-dək davam edəcək. Burada iştirak etməklə hər birimiz həm əfsanəvi "Qış nağılı"nın parçası ola, həm də dəstəyimizə ehtiyacı olan uşaqlara əsl möcüzə bəxş edib, bu körpələrimizin əllərini də qəlbləri kimi isidə, onlara yeni nəfəs verə bilərik.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Xankəndidə və Xocalıda yeni uşaq bağçaları istifadəyə verilib

**İşğaldan azad edilmiş Xankəndi şəhərində və Xocalı rayonunda uşaq bağçaları fəaliyyətə başlayıb. AZƏRTAC xəbər verir ki, Xankəndi şəhər 1 nömrəli körpələr evi-uşaq bağçası əsaslı təmirdən sonra istifadəyə verilib.**











Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları, Qarabağ Regional Təhsil İdarəsinin rəhbərliyi bağçada yaradılmış şəraitlə tanış olublar. Bildirilib ki, 34 ildən sonra fəaliyyəti bərpa edilən uşaq bağçası 80 yerlikdir. Burada 4 yataq otağı, 4 yemək və oyun otağı, 5 mətbəx, 1 tibbi otaq, 4 inzibati otaq, 1 anbar, 1 iclas zalı, 1 musiqi otağı və 7 sanitar qovşağı mövcuddur.

Uşaq bağçası 4 qrupdan ibarətdir. 1 yaşdan 3 yaşadək kiçik qrup, 3 yaşdan 4 yaşadək orta qrup, 4 yaşdan 5 yaşadək böyük qrup və 3 yaşdan 6 yaşadək böyük qarışıq qrup var. Kiçik qrup üzrə 10, orta qrup üzrə 12, böyük qrup üzrə 16, böyük qarışıq qrup üzrə 5 uşaq olmaqla 43 uşaq hazırda bağçada təlim-tərbiyə alır. Burada 15 nəfər işlə təmin olunub.

Xocalı şəhərində isə 32 ildən sonra ilk körpələr evi-uşaq bağçasının açılışı olub. Açılış mərasimində rəsmi qonaqlarla yanaşı, valideynlər və bağça kollektivi də iştirak edib. Qarabağ Regional Təhsil İdarəsinin müdiri Sənan Mənsimli yeni fəaliyyətə başlayan uşaq bağçasının kollektivinə uğurlar arzulayaraq, dövlətin təhsilə olan diqqət və qayğısından bəhs edib. İşğaldan azad olunmuş torpaqlarımızda yenidən yaradılan təhsil müəssisələrinin infrastrukturunun əsaslı şəkildə müasirləşdirilməsindən, yeni istifadəyə verilən bağçalarda uşaqlara yaradılan şəraitdən danışıb. Xocalı şəhərindəki uşaq bağçası 40 yerlikdir və 2 qrupdan ibarətdir. 24 uşağın təlim-tərbiyəsi ilə 14 işçi məşğul olur. Müasirliyi ilə seçilən bu uşaq bağçasında 2 yataq otağı, 2 yemək və oyun otağı, 2 mətbəx, 2 inzibati otaq, 1 anbar, 1 tibb otağı və 2 sanitar qovşağı mövcuddur.

# "Yeni ilin sehirli ulduzları" adlı inklüziv tədbir təşkil edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi və Azərbaycan Dövlət Uşaq Filarmoniyasının birgə təşkilatçılığı ilə "Yeni ilin sehirli ulduzları" adlı inklüziv tədbir təşkil edilib.**





Bu barədə AZƏRTAC-a agentliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən məlumat verilib. Tədbirdə agentliyin sosial xidmət mərkəzlərində sosial reabilitasiya proqramına cəlb olunan uşaqlar və onların valideynləri, eləcə də valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün sosial xidmət müəssisələrinin sakinləri iştirak ediblər.

Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədrinin müşaviri Vüqar Əliyev çıxış edərək iştirakçıları qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edib.

Tədbirdə həssas kateqoriyadan olan şəxslərə, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqlara göstərilən dövlət dəstəyindən danışılıb.

Sosial xidmət mərkəzlərinin "Parla" inklüziv-mədəni kollektivi, 1 saylı uşaq evi-sosial xidmət müəssisəsinin "Azəri" mahnı və rəqs kollektivi, Azərbaycan Dövlət Uşaq Filarmoniyasının "Sədəf" Xalq Çalğı Alətləri Ansamblı və Uşaq Folklor Mahnı-Rəqs Ansamblı müxtəlif rəqs, musiqi və bədii qiraət nümunələri təqdim ediblər.

Tədbir həssas kateqoriyadan olan şəxslərin sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası, asudə vaxtlarının səmərəli təşkili məqsədilə keçirilib.

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 6 may (Çərşənbə axşamı günü) tarixli 173-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Səşənbə, 5 şabanül-müəzzəm sənə 1337.
6 mayıs 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## ELAN

Ticarət və Sənaət Nəzarəti [Ticarət və Sənaye Nazirliyi] bununla elan edir ki, Nəzarət sabiq "Natsional" mehmanxanasındadır. (Olqinski və Lalayevski küçələrin küncündə).

Nazir qəbul edir: Seşənbə [çərşənbə axşamı], çaharşənbə [çərşənbə] və şənbə günləri saat 11-dən 2-yədək. Telefon nömrə 40-35. Müavini-nazir: Hər gün saat 11-dən 2-yədək. Telefon nömrə 51-35. Müdir isə hər gün saat 11-dən 1-ədək. Telefon nömrə 40-00.

*Dəftərxana müdiri (imza)*
*T-120*

## BƏHRİ-XƏZƏR İSTEHLAK CƏMİYYƏTLƏRİ İTTİFAQI "KOOPERATSİYA"

Bununla Bakı və dairəsi idarəsi istehlak cəmiyyətləri vəkillərinə elan edir ki, çaharşənbə günü may ayının 7-sində saat 4-də "Kooperatsiya" binasında (Qorçakovskaya nömrə 4, Tsaturovların evində) təcili nümayəndələr iclası çağırılır.

Gündəlik məramnamə:

1) Yeni məhsulat idarələrinin alınması barəsində.

Kvorum təyin olunan vaxta qədər gəlməzsə, 2-ci iclas saat 5-də qanuni hesab olunacaqdır.

*8764*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Məşixəti-İslamiyyə [Şeyxülislamlıq] İdarəsindən qazılara müttəhidül-məzmun [vahid məzmunlu] hökmdür**

Ruznamələrdən [qəzetlərdən] və məşixətə vasil olan rəsmi və qeyri-rəsmi əhvalatdan məlum olur ki, əxzi-əsgər əmrində [əsgərliyə çağırış işində] bəzi mollalar dəftərlərə müxalif olaraq şəhadətnamələr verməklə, əsgərlik sinninə [yaşına] təsadüf edənlərin təvəllüd tarixlərini gahi əskildib, gahi artırırlar. Halbuki, böylə hərəkat fövqəladə naşayəstə [çox nalayiq] və millətə böyük xəyanət və islamiyyətdən nəhayət kənardır.

Mollalar və kəza [habelə] islam camaatı bunu unutmamalıdırlar ki, əsgərsiz millətin ayaq altında payimal olmaqları [tapdalanmaqları] şübhəsizdir. Necə ki, bu vaxtadək Azərbaycan millətindən əsgər alınmadığı səbəbə, keçən sənə və ondan dəxi müqəddəmki [əvvəlki] faciələrin müsəlman millətinə nə qədər tələfat və zülümlər oldu və hərbi nizam bilmədiklərindən müdafiə etməyə müqtədir olmayıb, irz və namusları əllərindən getdi.

Pəs, əlbəttə, tamam millət bu barədə bilittifaq [birgə] qeyrət və namus ilə çalışmalıdırlar, ta ki, əxzi-əsgər işinə heç bir tərəfdən xəyanət yol tapmasın.

Fəlihəza [ona görə], cənabınıza əkidən müqərrər olur ki [möhkəm tapşırılır ki], ruhani mollalara vəz və nəsihət və tövsiyə edəsiniz ki, əsgərlik əmri nizam və qayda üzrə cari olmaq üçün bəzli-hümmət [hümmət sərf etsinlər] və artıq diqqət etsinlər və əlbəttə düşünsünlər ki, bu halda hökuməti-islamiyyənin əsgərə artıq ehtiyacı vardır və bu yolda səy və hümmət etmək vəzaifidiniyyənin ən mühüm əmrlərindəndir və mollalara əlavə məlum edəsiniz ki, hər-ayinə [mütləq] ehyanən [bəzən] əsgərlik əmrində dəftərə müxalif olaraq şəhadətnamələr verələr və yainki dəftərə əl vurub təğyir və təbdil edələr [dəyişdirələr], məhşər günündə böyük cavabdehəndə və hökumət indində [nəzdində] müqəssir hesab olub, xidmətlərindən məzul olmaqdan [qovulmaqdan] əlavə, cəzalara giriftar olacaqlar.

*Şeyxülislam*
*Axund Ağa Ağaəlizadə*

## TELEQRAF XƏBƏRLƏRİ

**Romaniya-Macar müharibəsi**

Peştədən xəbər verirlər ki, Romaniya ordusunun hücumu dayandırılmışdır. Bir çox yerlərdə Qırmızı ordu əks-hücuma keçməyə müvəffəq olub neçə gün əqdəm [qabaq] tərk edilmiş şəhərləri işğal etmişdir.

**Macarıstanda əsgərlik**

Peştədən xəbər verirlər ki, Romaniya ordusunun hücumu könüllü sifətilə əsgər cəm edilməsinə bais olmuşdur. Peştədə və ətrafında fəhlələr qırmızı bayraq altına cəm olmaqdadırlar. Paytaxtda fəhlə alayları təşkil edilməkdədir. Bu alaylardan səkkizi Şura Hökuməti qarşısında rəsmi-keçid yapacaqdır.

**Mitinqdə Orlandonun nitqi**

Parisdən teleqrafla xəbər verirlər ki, Kvirinal meydançasında nümayiş olan zaman İtaliya nümayəndəsi Orlando camaatına xitabən söylədiyi nitqində demişdir ki, İtaliya aclığa davam etmişsə [dözmüşsə də] də, heç vaxt namuzsuzluğa davam etməz [dözməz]. Orlandonun nitqi sürəkli alqışlarla qarşılanmışdır. Camaat İtaliya ordusu baş komandanını alqışlayıb izhar etmişdir ki, lazım olduğu təqdirdə ordu və donanma öz vəzifəsini ifa etməyə hazırdır. İtaliyanın hər yerində nümayişlər olmaqdadır.

**Fransa və bolşeviklər**

Parisdən İstanbula teleqraf edirlər ki, yekşənbə [bazar] gecəsi Fransa Məclisi-Məbusanı 8 milyard 500 milyon frank təzə istiqraz məsələsini müzakirə etməyə başlamışdır. Renodel bu məbləğin 10 milyona qədər azalmasını təklif etmişdir. O zaman hökumət etibar məsələsini qaldırmışdır. Nəticə[də] sosialistlərin təklifi 131 səs əleyhinə 362 səslə rədd edilmişdir. İclasın axırında Xariciyyə Nəzarəti katibi Abrami hökumət namından böylə bəyanat vermişdir:

*"Fransa hökuməti bolşeviklərlə mübarizə edən millətlərə həqiqi müavinət [köməklik] göstərməyi qərara almışdır. Fransa hökuməti əslihə [silah], pul, libas, mühimmati-hərbiyyə [hərbi ləvazimat] və hər cür şeylərlə müavinət edəcəkdir. Bu işdə Fransa hökuməti hamı Müttəfiq dövlətlərlə müttəhid [birgə] hərəkət edir."*

Katibin bu bəyanatından sonra Pişon dəxi müxtəsər surətdə bəyanat vermişdir. Axırda hərbi istiqraz 97 səs əleyhinə 411 səslə qəbul edilmişdir.

- İstanbuldan xəbər verirlər ki, bura məhafili-siyasiyyəsində [siyasi dairələrində] belə hesab edirlər ki, Fransa Vəkillər Palatasının hərbi istiqrazı əksəriyyətlə qəbul edilməsi Fransa siyasətinin tərəddüdatı haqqında olan güftgulara [söz-söhbətlərə] və Fransanın bolşeviklər əleyhinə olan hərəkətdə iştirak etməmək arzusunda olması xüsusunda olan danışıqlara nəhayət verir. Fransanın bolşeviklər əleyhinə mübarizə üçün para, əslihə və mühimmatla müavinət edəcəyi xəbəri İstanbulda böyük təsir bağışlamışdır. Bununla əlaqədar olaraq Klemansonun hökumət başına qayıdacağını bu yaxın günlərin işi hesab edirlər. Verilən xəbərlərə görə, Pişon və Klemanso Palatada bəyanat verməkdən qabaq Venizelos ilə uzun müzakiratda bulunmuşlar. Venizelos isə dərhal Atinaya teleqraf göndərib, tezliklə Cənubi Rusiyaya qoşun göndərilməsini əmr etmişdir.

**Yunan komandanlığının təklifi**

Yunan generalı demişdir ki, Rusiyaya əsgər gətirildikdən sonra Yunanıstan təklif edəcəkdir ki, bolşevik dəstələrini tək başına Ukraynaya qovmaq ona vagüzar edilsin [tapşırılsın].

- Vilnanın [Vilnüsün] polyak qoşunları tərəfindən işğal edildiyi barəsində polyakların verdikləri xəbərlər uydurmadır. Vilna əhalisi aclıqdan zinhara gələrək bolşeviklərin əleyhinə çıxaraq, onları oradan qovmuşlardır. Moskvadan gələn polyak bolşevik alayı üsyançılara qoşulmuşlar. Bəzi xəbərlərə görə, polyak qoşunları küçə müharibəsində iştirak etmişlərdir.

Samara – Kazansk altında qırmızı qoşunlar tərəfində könüllü alayı məğlub edilmişdir. Onların köməyinə göndərilmiş olan 8-ci Orenburq və 47-ci atıcı alayı bolşeviklərlə mübarizədən imtina etmişlərdir. Bu alay nəfəratı tamamilə atılmaqla edam edilmişlərdir.

- Nyu-York ətrafında olan silah zavodunun fövqəladə bir surətdə genişləməsini və o zavodun Almaniyadakı böyük "Krupp" zavoduna döndərilməsinə hərbi departman qərar vermişdir.

**Bolşeviklərin məlumatı**

Cənubi cəbhə - Baxmut dairəsi - Düşmənlər Xatsepetovka mövqifini [stansiyasını] işğal etmişlərsə də, lakin bizim qitəatın [hərbi hissələrin] əks-həmləsi ilə oradan çıxarılmışlar. Şərq tərəfdə isə düşmənin qüvvəsi artıq olduğundan biz Çernuxino mövqifini tərk eylədik.

Luqansk dairə[si] - Bizim qitələr həmləyə keçərək Pervozvanovka mövqifini işğal etmişlərdir.

Kamensk[oye] dairə[si] - Maniç nəhrinin cənub cərəyanının cənub cəhətində bizim həmləmiz vüsətlənir.

Tixoretsk dairəsində - Düşmənlərin Torqovaya qarşı ediləcək həmlələri onlar üçün böyük tələfatla dəf edilmişdir.

Şərq cəbhəsində - Orenburq dairəsi - Orenburqun beş verstliyində düşmənlər Menovoy dvoru işğal etmişlərsə də, əks-həmləmizlə geri püskürtülmüşlər.

Buzuluk və Buquruslanski dairə[si] - Bizim yürüşümüz getdikcə vüsətlənir.

Sergeyevsk[oye] dairəsi – Sergeyevs-k[oye]nin 18 verstliyində düşmənlər Karavayevonu işğal etdilər.

Buqulmin[ski] dairəsi - Dəmiryolun cənubunda bizim hissələr 15 verst geriyə çəkilmişlərdir.

**Fəhlələrin işdən imtinası**

Rusiya Şura Hökuməti ilə mübarizə etməkdən ötrü gəmiləri sazlayıb bəhriyyə [donanma] könüllüləri ixtiyarına vermək üçün hökumət tərəfindən verilən əmrə qarşı gəmi fəhlələri qan tökmək və ruslarla müharibə etmək istəməyib, gəmiləri sazlamaqdan imtina etmişlərdir. Hökumət fəhlələrə güzəştdə bulunmuşdur.

## SÜLH ƏTRAFINDA

Sülh Konfransı iclasında İtaliya nümayəndələrinə məxsus olan üç yerin boş olduğu, nümayəndələrin iclasda iştirak etmədiklərini göstərir. Dünən Konfrans işləri təcilən [sürətlə] irəliləyirdi. İtaliya məsələləri əvəzinə digər məsail [məsələlər] qoyulmuşdur. Sülh müahidənaməsi [sazişi] qəti surətdə qurtarmışdır, cümə günü Almaniya sülh nümayəndələrinə təqdim ediləcəkdir. Nemeslərin bir hissəsi dünən varid olmuşlar [gəlib çatmışlar], bir hissəsi də sabah gözlənir. Paris əhalisi nemeslərin vüruduna bietinadırlar [gəlişinə etinasızdırlar]. Sülh Konfransı həkəza [habelə] Paris əhalisi[nə] hökumətin adi iclaslarından artıq maraqlı deyildir. Almaniya nümayəndələrinin əmniyyətdə olmaları üçün fransız saldatlarından qarovullar qoyulmuşdur.

Londondan xəbər verirlər ki, Konfrans müttəhidülrəy [yekdilliklə] Cəmiyyəti-Əqvamın [Millətlər Cəmiyyətinin] yeni nizamnaməsini qəbul eyləmişdir. Bu nizamnaməyə bəzi maddələr əlavə edilmişdir. Böylə ki, Cəmiyyəti-Əqvama daxil olanların iki ildən sonra oradan çıxa biləcəkləri qeyd edilmişdir. Cəmiyyəti-Əqvamın qərargahı Cenevrədə olacaqdır. Fəqət buradan başqa yerə də köçürülə biləcəkdir. Hər ittifaqa [ehtimala] qarşı Cəmiyyəti-Əqvam üzvlərinin həpsi üçün həkəm (arbitraj) məcburi olacaqdır.

**Yaponiya məsələsi**

Yaponiya nümayəndələri nimrəsmi [yarı-rəsmi] surətdə ciddi mübahisəyə girişmişlər. Üçlər Şurasının səhərki cələsəsində [iclasında] eyni surətlə onlara cavab verilmişdir. Yaponiya nümayəndələri iclasın axırına qədər orada qalmışlarsa da, lakin aralıqda razılıq əmələ gəlməmişdir. Bu məsələ gündüzkü iclasda yenidən müzakirə ediləcəkdir.

Üçlər Şurası Makino ilə danışıqdan sonra Belçika tələbatı müzakirəsinə girişmişdir. Deyirlər ki, Belçika, tələbatı qəbul edilmədiyindən dolayı narazılığını izhar eyləmişdir. Sabah Dördlər Şurası Avropa məsələsinə keçəcəkdir.

**Ermənistan sülh nümayəndələrinin pul iddiaları**

İstanbulda müntəşir [nəşr olunan] "Jamanak" qəzetəsi xəbər verir ki, ermənilər Parisdə Sülh Konfransına Avropa müharibəsi zamanı ermənilərə yetişən maddi xəsarət üçün 19 milyard frank iddia edirlər. Bu barədə tələbnamələrini Konfransa təqdim etmişlərdir.

1) Kənd fəllahət [əkinçilik] işlərinin pərişan edilməsindən dolayı 4 milyard 739 milyon frank.

2) Şəhərlərdə ev müxəlləfatının [əşyalarının] dağılmasına görə 3 milyard 60 milyon frank.

3) Davada məqtul olan [müharibədə öldürülən] şəxslərin ailələri üçün 7 milyon frank.

4) Xəstə və yaralı erməni saldatları üçün 250 milyon.

5) 4 il müharibə zamanı 160 min erməni ailəsinə toxunan xəsarət üçün, hər ailəyə 4 min frank olmaq üzrə 540 milyon frank.

6) 350 min nəfər erməniyə edilən təcavüz və xəsarətdən ötrü, hər birinə 1000 frank olmaq üzrə 350 milyon frank.

7) Qafqaziya fərarilərini [qaçqınlarını] saxlamaq üçün 300 milyon frank.

8) Milli və kəlisa [kilsə] xəsarətləri 75 milyon frank

9) Cəbrən [zorla] zəbt edilən şeylərdən ötrü 200 milyon.

Yekunu 14 milyard frank edir ki, Ermənistan Cümhuriyyətinin zərəri ilə hamısı 19 milyard frank edir.

## YENİ BİR MÜXTİRƏ

**Milliyyət prinsipi və türklərin haqqı – İstanbul məsələsi – Hərb borclarımız nasıl itfa edilməli [bağlanmalı]?**

İsveçrədə, Cenevrə şəhərində iniqad edən [baş tutan] Türk Hürriyyətpərvəran Konqresi tərəfindən Sülh Konfransı nəzdində türklərin hüququnu müdafiəyə məmur edilən Şərif paşanın Sülh Konfransına verdiyi müxtirələrdən [yazılı müraciətlərdən, qeydlərdən] birini dün nəşr etmişdik. Bu gün də müşarünileyhin [adı çəkilən şəxsin], məmləkətimizin müqəddəratına dair Konfransa vermiş olduğu müdəlləl [dəlilli-sübutlu] və əhəmiyyətli ikinci müxtirəsini də nəşr ediriz. Bu müxtirə də, dün nəşr etdiyimiz müxtirə kimi Sülh Konfransına iştirak edən bütün dövlətlər mürəxxəslərindən [nümayəndələrindən] başqa, fransız əyan və məbusa nına da tövdi [təqdim] edilmişdir:

*Əvvəlü-axir əfkari-əsriyyəyə [zamanənin rəyinə] tərəfdar olan Osmanlı Hürriyyətpərvəran Firqəsi bütün istiqbal və səadəticahanın məsnəd və müttəkası [bütün dünyanın gələcəyinin və səadətinin istinad etdiyi və söykənəcəyi] olacaq olan milliyyət prinsipini kəndi proqramına kamali-səmimiyyət və xülus ilə qeyd və əlavə etməkdə heç tərəddüd etmədi.*

*Məmləkətimizin əraziyi-vaseəsində əqvami-müxtəlifə sakin olmaqdadır [geniş ərazisində müxtəlif xalqlar yaşamaqdadır] ki, bunların bəzi həvalidəki əksəriyyəti-irqisi [bəzi yerlərdə irqi baxımdan çoxluq təşkil etmələri] heç bir etiraza məhəl [yer] buraxmayacaq qədər aşikardır. Bu etibarla, Sülh Konfransının böylə bir vəziyyətdə bulunan əqvama, tələb etdikləri hüdudi-təbiiyyəni [təbii sərhədləri] bəxş etməsi tamamilə doğrudur.*

*Buna müqabil, baxüsus Asiyayi-süğrada [xüsusilə Kiçik Asiyada, Anadoluda] öylə bəzi həvali vardır ki, burada böyük tarixi istilalar bir taqım miləli-məxlutənin [qarışıq millətlərin], müxtəlif ənasiri-əsliyyə və fatehədən ibarət kütəlati-mütəkasifənin [müxtəlif yerli ünsürlərlə oranı fəth edən ünsürlərin qarışmasından ibarət sıx kütlələrin] peydasına səbəbiyyət vermişdir ki, bunlar arasında türk milləti; işbu müxtirəyə mərbut olub [bu sənədə əlavə edilib], səhhəti-mündəricatı məhəllinə göndəriləcək müxtəlit bir komisyonun təhqiqat və təhqiqatı ilə əlbəttə sabit olacaq [mündəricatının doğruluğu yerlərə göndəriləcək qarışıq tərkibli komissiyanın tədqiqat və araşdırmaları ilə şübhəsiz təsdiqlənəcək] olan ehsaiyyat [statistika] cədvəllərindən anlaşılacağı vəchlə, aşkar surətdə əksəriyyətdə bulunur. Mərülzikr [qeyd edilən] cədvəllərə nəzərən, qeyri-türk ənasirinin [ünsürlərinin] ədədi-nüfus məcmusu [əhalisinin sayının cəmi] türk əksəriyyətinin ancaq bir süls[ü] [üçdə biri] nisbətindədir.*

*Eyni istatistiklərin səhhəti [doğruluğu] Fransa Xariciyyə nazirinin 3 təşrini-sani [noyabr] 1896 tarixində Məclisi-Məbusanda irad etdiyi [söylədiyi] atidə[ki] [aşağıdakı] sözlərlə məaziyadə tədqiq və təyid olunmuşdur [artıqlaması ilə təsdiq edilmişdir]:**

*"Əllərimizdə bulunan istatistik cədvəllərinə nəzərən əlyövm [hal-hazırda] yalnız mövzui-bəhs və münaqişə olan türk vilayətlərdəki erməni əhalisi səkəneyi-ümumiyyənin [ümumi əhlinin] hər halda yüzdə on üçündən fəzləsini təşkil etməz. Bütün məmaliki-Osmaniyyədə sakin ermənilərin məcmuyi-nüfusu şübhəsiz üç milyona baliğ deyildir [çatmır]."*

*Anadolu vilayətində erməni ünsürünün nüfus etibarı ilə tərzitəqsim və tövzisi pək qeyri-müsavidir [olduqca qeyri-bərabər bir şəkildə paylanmış və yayılmışdır]. Bəzi tərəflərdə onlar daha mütəkasif [sıx] bir halda və bəzi tərəflərdə isə daha seyrək və dağınıq bir surətdə yaşayırlar. Vəlhasil, bu bədbəxt əhalinin həqiqətən əksəriyyəti təşkil etdikləri və ətrafında az-çox haizimuxtariyyət [muxtariyyətə nail] bir hökumətin təəssüs edəbiləcəyi [qurula biləcəyi] bir mərkəzi vücuda gətirə biləcəkləri tək bir nöqtəni baladakı [yuxarıdakı] vilayətdə görüb bulmaq mümkün deyildir.*

*Bu şərait təhtində [altında] bizə mübaliğəli görünüən müddəiyyatdan [iddialardan] qeyri mətalibatı [mətləbləri] nəzərietibara almamaq surəti ilə əqəliyyətdə [azlıqda] bulunan bir ünsürə bəxşi-istiqlal etmək, milliyyət prinsipinin xilafına olaraq əksəriyyətin hüquqi-milliyyəsini sadəcə heçə sanmaq demək olar.*

*Məzkur [deyilən] prinsipin adilanə bir surətdə tətbiqi mətlub və mültəzəm [tələb olunan və lazımlı] isə, Sülh Konfransı əlaqədar tərəflərdən biri və ya digəri tərəfindən ərz və iraə [təqdim] olunan istatistik cədvəllərinə təməssükdən sərfinəzər edərək [statistika cədvəllərinə istinad etməkdən əl çəkərək], əksəriyyət və ya əqəliyyətin [çoxluq və ya azlığın] hanki qövmə mənsub olduğu eyicə bilinməyən, binaənileyh [buna görə], münazefih [mübahisəli] olan həvalidə rəyiamm [referendum] üsuluna müraciət etməlidir.*

*Milliyyət prinsipi hər tərəfdə tanınmış və hər kəscə qəbul edilmiş olmasına binaən, balada [yuxarıda] tövsiyə etdiyimiz tərzimüamilə [hərəkət tərzi] hər kəsin məzhəri-təsvibi [hər kəsin təsdiqinə nail] olacaq və bunun nətayici [nəticələri] önündə hər kəs baş əyməkdən başqa bir şey yapmayacaqdır.*

*İstanbul şəhərinə gəlincə, bu, hər şeydən əvvəl bir türk şəhəridir. Onsuz Türkiyənin bəqa və davamı qabili-təsəvvür deyildir. Cameləri ilə, minarələri ilə, abidati-ümumiyyəsi [bütün abidələri] ilə digər heç bir yerdə təsadüf edilməyən bir mədəniyyəti-məxsusə nümunəsini ibraz edən [göstərən] Dərsəadətdə [İstanbulda] türklər bir əksəriyyəti-qahirə [qahir əksəriyyət, böyük çoxluq] təşkil edirlər. Əgər buna və hər şeyə rəğmən bu şəhər beynəlmiləlləşdirilərsə, Türkiyənin vücudundan yalnız bir ət parçası deyil, fəqət qəlbi qoparılacaqdır. Zira, Dərsəadətsiz bir Türkiyə, damarlarında artıq qan qalmamış və mənbeyi-həyatından məhrum buraxılmış bir cəsəd olacaqdır. Fəzlə olaraq, Bəhri-səfid [Aralıq dənizi] qapılarına dayanmaq üzrə bulunan bolşevizm hərəkət və cərəyanına qarşı bir səddi-hail [maneə, çəpər] çəkməyə qadir bir qüvvət bilə-bilə imha ediləcəkdir. Nəhayət, vəziyyəti-coğrafiyyəsindən dolayı iki qiteyi-ərzə [dünyanın iki qitəsinə] şüalar saçan Dərsəadəti beynəlmiləl bir şəhər halına qoymaq, milliyyət prinsipinə qələbə çalmaq istedadını göstərən bəzi fəsadkar fikirlər üçün bir mərkəzi-sirayət [yayılma mərkəzi] vücuda gətirmək deməkdir.*

* * *

*Ərazi məsələsinin mahiyyəti nə olursa-olsun, Gənc türk Hökumətinin bidayəti-hərbdən [müharibənin əvvəlindən] bəri Almaniyada əqd etdiyi [imzaladığı] borclar haqqında Sülh Konfransının nəzəri-diqqətini cəlb etmək istərəm.*

*Almaniya kəndi mənfəətinə olaraq Türkiyəni hərbə sövq və təşviq etdiyi üçün məmləkətimizin məriülzikr [deyilən] borcları təsviyəyə [təmizləməyə] məcbur edilməsi qətiyyən caiz [uyğun] deyildir. Bina-ənileyh [ona görə], Sülh Konfransının mütəntən [təntənəli] bir qərarı ilə Türkiyəni bu borclardan qurtarmaq, bunları Almaniyaya təhmil etmək [yükləmək] bir lazimeyi-nisfət və ədalətdir [insaf və ədalət baxımından zəruridir]. Hökuməti-Osmaniyyə ilə Şərqdə bilaxirə [sonradan] təşəkkül edəcək yeni hökumətlər arasında düyuni-Osmaniyyənin təqsimi [Osmanlı borclarının bölünməsi] məsələsinə gəlincə, məlulini-əsgəriyyəyə və mütəqaidini-mülkiyyə və əsgəriyyəyə [hərb əlillərinə, mülki və hərbi təqaüdçülərə] verilməsi iqtiza edən [lazım gələn] təzminat və maaşat [maaşlar] daxil olmaq üzrə, hərbdən əvvəlki düyuni-Osmaniyyənin [Osmanlı borclarının] bizimlə Türkiyədən ayrılan qitələrin [parçaların, hissələrin] vüsət [genişlik] və qiymətinə görə təqsim edilməsinə [bölünməsinə] kimsənin mane və mötəriz olmayacağına [etiraz etməyəcəyinə] əminiz.*

*Türkiyənin Balkan hərbindən sonra qaib etdiyi vilayətlərlə Rumeliyi-şərqiyə [Şərqi Rumeliyə] aid hisseyi-deynin [borc hissəsinin] təsviyəsi məsələsi vəqti-axirə təliq edildiyindən [axır vaxta saxlandığından], Sülh Konfransının bu məsələni şimdiki konqredən daha səlahiyyətdar bir mərcəyə [quruma] tövcih ediləməyəcək [yönləndirilməyəcək] olan şikayat və mətalibati-müstəqbələyə [gələcəkdəki şikayətlərə və tələblərə] meydan verilməmək üzrə baladakı məsail [yuxarıdakı məsələlər] ilə birlikdə kəsib atması əcəba münasib və müvafiq olmazmı?*

* Fransa Cümhuriyyəti cərideyi-rəsmiyyəsi [rəsmi qəzeti] 4 təşrini-sani [noyabr] 1896 tarixli nüsxə, səhifə 1357-1358.

## XƏZİNƏ OĞURLUĞU

Rus bürokratiyasının Qafqazda buraxdığı çox bədkirdarlıqlardan [yaramazlıqlardan, pis hərəkətlərdən] biri də xəzinə oğurluğudur ki, buna rus ədəbiyyatında gözəl bir təbirlə "казнокрадство" deyirlər. Qafqazın işğal olunduğu gündən başlayaraq canişinlərin tədbir və ənvai vəsilələri [növbənöv vasitələri] ilə rus ünsürü buraya bir çox məmurluğa dəvət olunur. Lakin rusların halal və namuskar qismi yeni işğal olunmuş uzaq və əcnəbi bir ölkənin məmurluğuna çox da meyil və həvəs göstərmədiyindən, əcnəbilər arasında məmurluğu qəbul etmiş ruslara bir çox imtiyazlar verilir ki, ümdəsi yüz cürə ünvanlar altında xəzinədən məvacibdən əlavə, "iaşələr" əxz etmək idi. Bu iaşələrin öylə uydurma adları vardır ki, türkcəyə tərcümə olunmadığından, timsal üçün bir neçələrini burada rusca qeyd etməliyəm. Məsələn: Третное не въ зачетъ жалованья, Подъёмныя, Суточныя, Курьерскія, Квартирныя, Обму- ндировочныя...

Bunlardan əlavə, sairləri də çoxdur ki, yazmaqla vəsfə gəlməz. Bunlar hamısı ondan ötrü icad olunmuşdu ki, rus ünsürünü Qafqaz məmurluğuna həvəsləndirsinlər. Söz yoxdur ki, rusların tamahkar qismi bu iaşələrə aldanıb fövc-fövc [dəstə-dəstə] ölkəmizə gələrək, canişinlərin qoyduğu qanunlara istinadən kamali-cürətlə Qafqaz xəzinəsini soymağa başladılar. Bir bu qədər uydurma ünvanlı iaşələri almış məmurlar Qafqaz xəzinəsini özlərinin südlü inəyi bilib həddindən artıq sağırdılar. Qafqaz füqəra və zəhmətkeşlərindən cəbrən [güclə] və zorən alınmış vergilər ki, xəzinənin ümdə varidatı idi, həman uydurma ünvanlar altında asanca rus məmurlarının ciblərinə daxil olurdu. Buna kifayət etməyərək, rus məmurları məmləkətin torpaqlarını, meşələrini, sularını, mədənlərini böyük rüşvətlərlə bəzi sərvətdarlara qeyri-rəsmən satırdılar, yaxud icarəyə verirdilər. Torq [hərrac] və müzayidə kimi xəfi [gizli] məsələlərin sirrini də böyük rüşvətlərlə açırdılar. Xülasə, Qafqaz xəzinəsi həm açığına, həm də gizlin vasitələrlə soyulurdu, talan edilirdi. Bunu müşahidə etmiş canişinlər gözlərini yumub özlərini bilməməzliyə vururdular. Əhalinin dərisini soyub yüz cürə vergi almış hökumət bu vergiləri xəzinədən hər təriqlə [yolla] olur-olsun çıxarıb, məmurların ciblərini doldurmağa məhz bundan ötrü razı olurdular ki, rus məmurları istibdadın Qafqazda tərəfdar və köməkçiləri olsunlar. Odur ki, xəzinədən oğurlanmış pulların üstü açılmazdı. Təsadüfən açıldığı halda öylə təftişlər yapılardı ki, nəticəsində "oğrular doğru" çıxardı.

Qafqaz əhli xəzinəyə xəlifələrin beytülmalı nəzəriylə baxdığından, bir bu qədər xəzinə oğurluqlarına qarşı mat və məbhut [heyrətdə] qalırdılar. Sonralardan yerli məmurlar da, əvvəlcə gürcü və ermənilər və axırda da müsəlman məmurları xəzinədən çap vurmağa alışdılar. Böylə ki, Aleksandr və Nikolay dövrlərində xəzinə oğurluğu adi məsələlərin ən adisi olmuşdu. Xəzinədən oğurlamayan məmurlara gülürdülər. "Filankəs abid olubdur" – deyə məsxərəyə qoyurdular.

Bugünkü xəzinə oğruları yenə rus istibdadı əli ilə tərbiyələnmiş həman şəxslərdir ki, xəzinəyə köhnə nəzərlə baxıb, mövqeyi düşdükcə camaatın beytülmalını rahatca udurlar. Timsal olaraq, Rəşid İsmayılovun hərəkatını göstərə bilərik. Naxçıvan füqərasına paylamaq üçün 900 min rublə verilmiş pulu bu cənab günün günorta çağı oğurlamaq istəyirsə də, məqsədinə nail olammayır. Oğurluğun üstü açılır... Bunu hərgah bir rus məmuru yapsaydı, söz yoxdur ki, buna tamam azərbaycanlıların bir bədxahı, hətta xaini kimi baxılardı. Lakin İsmayılovun müsəlman, həm də azərbaycanlı olduğundan naşi [olduğuna görə], onun hərəkatına hökumətin və camaatın nə nəzərlə baxacağını və buna qarşı nə kimi cəzaların dərəcəsini göstərməkdə insan aciz qalır. İsmayılov rus olsaydı, vətənin xaini sanılardı. Müsəlman olduğu halda – xəyanətdən böyük nə kimi cinayətin mürtəkibi [cinayətə qurşanmış] bulunacaqdır? Həm xəzinə oğrusu, həm də füqəranın, biçizlərin [köməksizlərin], əlillərin, şikəstlərin, gözü yaşlı fəlakətzədələrin, bir loğma çörəyə möhtac qalmışların loğmasını qəsb etmək niyyətində bulunmuş İsmayılov hanki cəzaya səzadır [layiqdir] ki, biçarələrin ah və nalələrini təskin qıla bilsin?

Bir vaxt Qarabağın bir məclisində qaçaqçılıqdan (kandravatçılıqdan) [kontrabandaçılıqdan] söhbət açılmışdı. Mollalardan biri buyurdu ki: "Qaçaqçılıq şər'ən [şəriətə görə] haramdır, zira, xəzinənin mədaxilinə zərər toxuyur. Xəzinə, hanki hökumətin əlində olur-olsun, bizim etiqadımızca beytülmaldır. Binaənileyh [ona görə], xəzinənin mədaxilinə qövlən və feilən [sözlə və əməllə] zərər yetirmək şəriətcə haramdır." Möhtərəm mollanın bu izahatı əhli-məclisi heyran buraxdı ki, necə olur da rus xəzinəsi şəriət nəzərində beytülmala müqabil tutulur? Həman xəzinə bu gün Azərbaycanın mali-məxsusu [xüsusi malı] olduğundan, keçmişdəki şübhəli fikir və sui-zənnlərə ehtiyac qalmamışdır. Buna dair şəriətin qəti və ətraflı bir fətvasını Məşixət İdarəsi nəşr qılsaydı, hamı üçün aydın olardı ki, xəzinə mənafeyini müdafiə etmək hər bir Azərbaycan müsəlmanının hüquqi-şər'iyyə və milliyyəsidir.

Ondan sonra, Yalama odunçuları kimi, hər şəxs və hər sinif xəzinə varidatının güdükçüləri olaraq istibdadın aramızda qoyduğu bid'ətin [pis adətin] kökünü kəsərlər. Əhalidən əlavə, hökumətin Fövqəladə Təftişat Komisyonu "Yalama macərası" kimi qəzetələrə dərc olunan fəqərələri [hadisələri] başlı-başına qoymayaraq, hər dəfə təftiş yapmalıdır. Heyfa ki, bu komisyonun sədri türkcə bilməyir!

*F. A.*

## DAĞISTAN GÜNÜ

Mayısın 3-ündə dəbdəbəli və təntənəli deməyə şayəstə [layiq] olan "Dağıstan günü" cəbə [ianə qutusu] gəzdirənlərdən Fazil Əfəndizadədən o günü nə cürə keçirdiyini sual eylədikdə cavabı bu oldu:

– Cəbə əlimdə olduğu halda gələn-keçən, tanış-yad deməyib önünə keçir və cəbəni önünə uzadırdım. Möhtərəm camaatımız alqışlanacaq bir dərəcədə şövq və həvəslə həmiyyətlərini ibraz edirdilər.

Fəqət şayani-təqdir [təqdirəlayiq] bir şey təəccübümə səbəb oldu. Böylə ki, əlimdə cəbə caddə üzərində o tərəf bu tərəfə qoşduğum halda, bir tərəfdən ismimin çağırıldığını "rüzgarın mümaniəti" [küləyin maneçiliyi] ilə yarıbuçuq [yarı-yarımçıq] eşitdim... Eşitdimsə də, önümdə izdiham, cəbəyə para tökülmənin arxası kəsilmədiyi və başım bu tərəfə qarışıq olduğu üçün səs gələn tərəfə baxammadım. Mən baxmadımsa da, səsin bir qaç kərə təkrarlandığını eşitdim. Səs sahibi bir çocuq olduğunu səsin incəli-yindən anladım. Əlimdəki cəbəni də buradan ayırmaq istəməyir, oraya da cavab vermək istəyirdim. Nə isə, önümdə olan izdiham azaldı, mən də səs gələn tərəfə getdim. Önümdə bir çox qadınlar gördüm. Kəndi-kəndimə: "Əcəba, məni çağıran kim idi? Nə tərəfə gedəyim?" fikrini edərkən, birdən qadınlar arasından kiçik bir mütəəllimə [qız şagird]: "Fazil, Fazil, cəbəni buraya gətir, mən də pul verəcəyəm" – deyə-deyə kamali-təcil ilə [tələsə-tələsə] mənə yaxınlaşırdı. Qızın üzünə baxdıqda əhbablarımızdan birinin kəriməsi [tanışlarımızdan birinin qızı] olduğunu tanıdım. Bu qızın bir kəndi tərəfindən para buraxmağı üçün məni bu qadınların arasına gətirməyinə qəlbimdə acıqlandım və iləri getməyib durduğum yerdə sabit olub qızı bəklədim. Fikrim yanlış imiş, qız qadınların arasından soxula-soxula yanıma gələnə qədər önümdəki qadınlardan ixtiyar yollu bir qadın kəndisi ayağa qalxıb cəbəyə üç manat ianə salmaqla o biri qadınlara da yol açdı. Tam iyirmi dəqiqəyə qədər mən burada qalıb qadınların ianələrini toplayır və onların dedikləri sözlərə heyran olurdum. Heç güman etmədiyim bu xanımların sevə-sevə verdikləri ianə ilə cəbə ağzına qədər doldu.

Cəbəni dəyişdirmək üçün oradan ayrılmaq istədikdə, qadınlardan birisi:

– Oğlum! Getmə, getmə, dayan! Mən birini də alacağam.

– Xala! Sən aldın ki! Bax, ianə nümunəsi də köksündədir.

– Oğlum, onu özüm üçün aldım, ikisini də evdə balaca nəvələrim var, onlar üçün alacağam, – deyir.

Bir qeyrisi də:

– Bacılarım, verin, Allah sizə kömək olsun. Nə versəniz əlinizlə, o gələcək sizinlə. Kəndi ianənizi kəndi cibinizdən veriniz, – deyirdi.

Xanımların bu hümməti bugünkü gördüklərimin içində ən əhəmiyyətlisidir, – deyir.

Allah böylə xanımların və xanım qızların əmsalını ziyadə eyləsin. Amin.

*Şəfiqə Əfəndizadə*

## NƏŞRİYYATIMIZIN ƏSBABİ-TƏRƏQQİ VƏ TƏDƏNNİSİ [İNKİŞAF VƏ GERİ QALMA SƏBƏBLƏRİ]*

**- 3 -**

Atinalıların [afinalıların] "İntibah dövrü" iğtişaşın ən şiddətli və əhalinin yekdigərinə [bir-birinə] xəsim [düşmən] və rəqib kəsildiyi zamanda başlanmış və məmləkətlərini pənceyi-istilalarına almış düşmənin sətvəti [həmləsi] qarşısında yalnız qayğurmaqla [təəssüflənməklə] keçinməyə məcbur olmuşlardır. Böyük bir şan və şövkətdən sonra xaki-məzəllətə [zəlillik torpağına] düşüb iztirab və inkisara [ümidsizliyə] düçar olduqlarından, fövqəltaqə [taqətləri çatmayan] bir sıxıntı altında çabalayırlardı.

İnsan dəf'inə müqtədir olammadığı bir fəlakətə düşdükdə, o fəlakətin kəndisi üzərinə olan təsirini yüngülləşdirmək üçün xilqət və əf'ali-insaniyyənin [bəşərin yaradılışının və əməllərinin] mahiyyətini, hadisat və vəqayenin [hadisələrin və olanların] səbəbini və hikmətini fəlsəfi tə'lilat və təhlilat ilə [fəlsəfi cəhətdən təhlil etmək və əsaslandırmaqla] məşğul olub, unutmağa çalışır.

Atinalılar bilxassə öylə bir təsəlliyə möhtac idilər. Çünki əziz və şanlı ikən, zəlil və həqir olmuşlardı. Keçmişə baxıb əsəfxan olurlardı [təəssüflənirdilər]. Gələcəyi nəzərə alıb, xof və xəşyətə [qorxu və dəhşətə] düşürlərdi. Bütün məfaxiri-qədimələri [keçmişdəki iftixar mənbələri] sönmüş, getmiş idi. Müntəzəm yeni bir hökumət təşkil edəmməmişlərdi. Buna görə, bütün fikirləri insanların, bilxassə kəndlilərin əhval və xüsusatının tədqiq və təhqiqinə sərf edilməkdə idi. Fəqət intibahlarının məhvəri ədəbiyyat və fəlsəfə ətrafında dönürdü. Bu "İntibah dövrü"nün rəisi və müəssisi [təsisçisi] qəbləl-milad [miladdan əvvəl] 468-400[-cü] illərdə yaşayan filosofi-şəhir [məşhur filosof] Sokrat idi.

Filosofi-müşarünileyh [adı çəkilən filosof] qayət əzmkar, səbatlı olduğu kimi, səfsətə və müğalitənin [boş sözlərin və həqiqətə əsaslanmayan mübahisələrin], saxta fəsahətin [təmtəraqlı sözlərin] dəxi ən şiddətli düşməni idi. Bu lahuti sifatı [ilahi xüsusiyyətləri] sayəsində mənsub olduğu millətin intibahını qüvvətləndirdiyi ilə bərabər, hikməti-ədəbiyyənin (fəlsəfeyi-əxlaqiyyənin) [əxlaq fəlsəfəsinin], əməli fəlsəfeyi-ədəbiyyənin (hikməti-əxlaqiy-yənin) mucidi [icad edəni], ya fəlsəfeyi-qədimənin xəyalatdan həqiqətə mühəvvili [çevirəni] olmuşdur. Bunu mütəaqib [onun ardınca], Əflatun, Ərəstu, Teofrastus, Neleus kimi məşhur filosoflar Mora müharibəsində nəş'ət [meydana çıxaraq], xitamında kəsbi-şöhrət etməklə [müharibə bitərkən şöhrət qazanmaqla] Suriyaya səyahət, misirlilərin, babillilərin ülumi-təbiiyyələrini [təbiətə dair elmlərini] tibbi-yunaniyə [yunan tibbinə] əlavə, təbabəti təbiət əsası üzrə vəz [izah], 78 kitab təlif [yazan] və 357-də vəfat edən İbokrat kimi təbibi-şəhir [məşhur həkim], ülumi-riyaziyyədə məharəti-tammə [mükəmməl bir məharət] sahibi olan Oklidos, qəti-məxrut [konik kəsiklər] haqqındakı tədqiqatı ilə məşhur olan Apollonius, həndəsə və hesaba mütəəlliq [aid] qəvanini-təbiiyyədə [təbiət qanunlarında] bir çox istikşa-fati-mühümmədə [mühüm kəşflərdə] bulunan Arximedes, ilk dəfə olaraq müluki-fərainənin [Misir hökmdarlarının, fironların] isimlərini havi [ehtiva edən] cədvəl tərtib və ərzin məsahəsini [Yer kürəsinin sahəsini ölçmək işini] icra edən Eratosten, elmi-heyət [astronomiya] mütəxəssisi Batlamyus, daha sonra Herofilos, Erasistrat və Calinus kimi alimlər yetişdirmişlər ki, maddiyyatca hökumət sürmüşlərsə də, mənəviyyatca İskəndəriyyənin parlaq zamanının sonuna və islamiyyətin zühuruna qədər hakimiyyət ehraz etdikləri [əldə etdikləri] kimi, qələmə aldıqları asar [əsərlər] dəxi islam mədəniyyətində böyük mövqe tutmuş və sırası ilə yazacağımız vəchlə əksəri ərəbcəyə tərcümə edilmişdir.

Bundan əlavə, əzmineyi-tarixiyyənin ibtidasından [qədim dövrün başlanğıcından] mədəniyyəti-islamiyyənin zühuruna qədər təvali edən [bir-birinin ardınca gəlib keçən] dövrlərdə müxtəlif qövmlərin elm, fəlsəfə və ədəbiyyatı alimləri tərəfindən vücuda gətirilən maarifi-bəşəriyyənin süzülə-süzülə qismi-əzəmi [böyük hissəsi] İskəndəriyyədə toplanmış "Museyon" nam darülfünunda [universitetdə] təlim və tədris olunurdu. Bu darülfünun isə xüləfayi-Əməviyyənin [Əməvi xəlifələrinin] səkkizincisi olub, hicrətin 99-cu sənəsində xilafətə keçən Ömər bin Əbdüləziz tərəfindən Antakyaya nəql edilmişdir.

Böylə ehtiyacata hindlilər, süryanilər, misirlilər, iranlılar dəxi giriftar olmuşlar. Ədəbiyyatlarında böyük açıqlıqlar görmüşlərdir. Lakin o açıqlıqları örtməkdən sərf-nəzər etməmişlər [vaz keçməmişlər]. Hər daima təzayüdi-ülum, təkamüli-fünuna [elmlərini artırmağa, fənlərini kamilləşdirməyə] çalışmışlardır. Əski iranlıların ülumi-ədəbiyyatına Sasanilərdən Şapur bin Ərdəşir ilə Adil Nuşirəvanın verdiyi tərəqqiyyat dəxi zikrə layiqdir. Fəqət bu xüsusatda hökumati-islamiyyənin fəaliyyətindən müfəssəl yazmalı olduğumuza görə, artıq sair millətlərdən yazdığımıza qənaət ediriz.

İslam aləmində nəşriyyat və mətbuat haqqındakı müsaidə və mənəvi ehtiyacat ağırlığının ehsası [hiss edilməsi] və iş başında əhli olmağın fəziləti daha qərib [qəribə, təəccüblü], daha heyrətlidir.

İslamiyyətin zühurunda Hicazda 15-20 nəfərdən ziyadə yazı bilən yox idi. Bunlar dəxi tarixlərdə adbaad zikr olunan kübar səhabələrdən idi. Binaənileyh [ona görə], nə qədər mühüm və yazılmalı olsaydı qələmə alınmazmış. Hətta Qurani-şərifi belə "qürra" [oxuyan, Quran oxuyan] namı verilən zatlar [şəxslər] hafizələrində saxlayırmışlar. Qürraların yeddi yüz nəfəri Yəmamə qəzvəsində [döyüşündə] şəhid olduğundan, xüləfayi-raşidin heyrət etmiş və zayiati-vaqeə [üz verən itki] ilə Quranın dəxi nöqsanpəzir olacağını və bu cəhətdən islamiyyətin ağır bir ehtiyac qarşısında olduğunu nəzəri-etinaya alıb, kəlami-şərifin toplanılmasına əmr vermişlərdir.

Gərək xüləfayi-raşidin, gərək sair xüləfayi-islamiyyə millətihakimə olmaq saiqəsi [sövqü] ilə yazılarının, dillərinin islahatı yolunda fövqəladə ciddiyyət və fəaliyyət göstərmişlər. Quranın ayələri düz oxunmaq üçün "hərəkə" və "nöqtələr" vəz etdirdikləri [qoydurduqları] kimi, etiqadati-islamiyyəyə aid bütün əhadisəxbarı [hədisləri və məlumatları] toplamağa belə külli məsarifat sərf etmişlərdir.

Əbdülməlik bin Mərvan böylə ehti-yacatı rəf etməyə [aradan qaldırmağa], ərəbləri milli ruh, milli duyğu ilə hakim eyləməyə çalışan xüləfayi-Əməviyyənin ən şiddətli və ən irəli gedənlərindən idi. İstiqlali-milliyyə və islahati-mülkiyyəyə [mülki islahatlara] aid şayani-təzkar [yad edilməyə layiq] bir çox təşəbbüsatda bulunmuşdur. O cümlədən biri də məmaliki-islamiyyədə rumcanı [yunancanı] ərəbcəyə təhvil etməsidir [çevirməsidir, dəyişdirməsidir].

Bunun zamanına, yəni hicrətin 65-ci sənəsinədək bütün hökumati-islamiyyə dairələrində mədaxil, məxaric, mühasibə, hasili ümum təhrirat [bütün yazılı işlər] rumca yazılırdı və boğçalar, məndillər, ev pərdələri, xüləfanın [xəlifələrin], ricali-dövlətin [dövlət adamlarının] və ümum əsgəri əlbisələrin üzərində "təraz" [bəzək] namı verilən üsul üzrə altun sırma, yaxud qumaşın rənginə müxalif ipək ilə rumca dualar, isimlər, rəsmlər, ləqəblər nəqş olunurdu. Zira mənsucat [toxunma mallar] tamamilə rumdan, bəzən də İrandan gətirilirdi. O cəhətdən, rum (xristian), İran (atəşpərəst) hökmdarları məzkur [deyilən] mənsucatı kəndi rəsmlərini ya hakimiyyətlərinə dəlalət edən bir taqım rəsm və şəkilləri, yaxud Ruhül-qüds naminə olan duaları havi olaraq [ehtiva edəcək şəkildə] emal etdirirlərdi.

Bu növ emal olunan əqmişə [qumaşlar, parçalar] ümum islamların evlərində ziynət məqamında qullanılırdı. Biz rus hakimiyyətini andıran, rus asarını və ənə-nati-milliyyəsini havi təzyinatdan [rus əsərlərini və milli ənənələrini ehtiva edən bəzəklərdən] həzz aldığımız kimi, onlar dəxi ruma aid mənsucatdan zövqyab olurdu [zövq alırdı]. Hətta hökuməti-islamiyyənin paraları rumda və üzərlərində ruma dair asar və əlamat [nişanlar] olaraq zərb olunurdu.

Bu xüsusatda ilk təşəbbüs edən, islahına çarələr arayan və ismi ilə müsəmması [adlandırılanı] arasında böyük təzad təşkil edən müqəddəslərimizin təl'ininə [lənətləməsinə] hədəf olmuş Əbdülməlik bin Mərvan olmuşdur. Bilümum pərdələrdə, boğçalarda, məndillərdə və əlbisələrdəki rumcanı ərəbcəyə təhvil etmişdir. Əvət, bu təhvilat isə təqdirəlayiq bir saiqeyi qeyrət və həmiyyətdən dolayı vüqu bulmuşdur. Xəlifeyi-müşarünileyhin ehtisasati-milliyyəsi [adı çəkilən xəlifənin milli duyğuları] haqqında müvərrixlər [tarixçilər] böylə bir fəqərə [hadisə] qeyd edir:

"Əbdülməlik bir gün kəndi məclisində oturarkən rumca yazılı bir boğça görmüş, mənasını bilməyə maraq etdiyindən, ərəbcəyə tərcümə edilmişdir. Müşarünileyh kəlmələrin mənasını və nə yerdə qullanıldığını anlayınca islam ölkəsində "tərraz"ın o surətlə davamını pək çirkin bulmuşdur.

"Bu hal, yəni boğçalarda böylə yazılar olub da məmalikiislamiyyənin hər tərəfində istemal edilməsi [işlənməsi] dini-islamca pək çirkindir" – demişdir.

Dərhal əlbisə və sair istemal olunan mənsucatda rumcanın tərki, əvəzində "La ilahə iləllahu" [Allahdan başqa məbud yoxdur] ibarəsi yazılacağı və buna müğayir [zidd] hərəkətdə bulunanlara şiddətli cəzalar veriləcəyi haqqında əmrlər sadir etmişdir [əmrlər vermişdir]. Bu məsələ o andan etibarən islamların nəzəri-diqqətini daha da ziyadə cəlb edib, ümum islam ölkələrində istemal olunan boğçaların, məndillərin, pərdələrin, xüləfanın, ricali-dövlətlər və əsgəri əlbi-sələrin üzərindəki rumcaların yerinə əlamatimüməyyizə [fərqləndirici işarələr] olmaq üzrə ərəbcə "La ilahə iləllahu" ibarəsi ilə xəlifənin namına və ya ləqəbinə və sair xilafətiislamiyyəyə aid işarətlər vəz olunduğu [qoyulduğu] kimi, məmaliki-islamiyyənin hər tərəfində də emalatxanalar artırılmışdır.

Əbdülməlikin bu təşəbbüsatı ərəb intibahi-milliyyəsinə pək böyük qüvvət vermək və ərəblərin hakimiyyəti-milliyyələri haqqında gözlərini açmaqla bərabər, rum imperatorunun da hiddətini mövcib [hiddətinə səbəb] olmuşdur. Zira bu hərəkət rum imperatorunun iqtisadi, dövləti siyasəti xüsusunda ağır bir zərbə tələqqi [hesab] olunurdu. Artıq məmaliki-islamiyyəyə rumca yazılı rum mənsucatı getməyə[cək], islam emalatxanasından çıxmış, üzərlərində ərəbi ibarələr nəqş edilmiş boğçalar, məndillər və sairləri yapılacaqdır.

Binaənileyh, rum imperatoru təkrarən rum "tərraz"ının istemalını bir yola qoydurmaq məqsədi ilə bir çox hədiyyələr göndərmiş və:





# Mədəniyyət





● Ədəbi simalarımız

# Ölümsüzlüyün sirrini tapan şair

**Bir dastan yaz min-min sözlük,**
**Budur əsl ölümsüzlük!**
**- deyirdi Tofiq Bayram. Bu dünyada tək umacağı Söz idi. O, ədəbiyyat vurğunu, poeziya aşiqi idi. Bu dünyaya şair ruhu ilə gəlmişdi. Yer kürəsi onun üçün başdan-başa şeiriyyət idi...**



Ömrü əlli altısında bitdi. Ancaq onsuz da olsa, yaşının üstünə yaş gəlir. Tofiq Bayramın anadan olmasının yüz illiyində bacısı Svetlana Bayramova ilə şair haqqında danışırıq. Xatirələr Svetlana xanımı uzaq illərə aparır: "Ailədə doqquz uşaq olmuşuq, altı bacı, üç qardaş. Təəssüf ki, üç bacı qalmışıq. Qardaşlarımın hamısı, bacılarımın üçü dünyasını dəyişib..." Qüssə içində deyir və susur.

Söhbətimizin kədər üzərində köklənəcəyini düşünürəm. Ancaq Svetlana xanımın səsinə birdən-birə sevinc işığı düşür: "Ən böyüyümüz Tofiq idi, - deyir. - Atamın işi ilə əlaqədar ailəmiz Azərbaycanın müxtəlif rayonlarında yaşamışdı. Və yaşadığı hər rayonun ab-havası sanki Tofiqin ruhuna, mənəviyyatına, ədalarına hopmuşdu, onun danışığına hakim kəsilmişdi. Mənə elə gəlir ki, bütün varlığı ilə ümumazərbaycan mövqeyindən çıxış etməsinin əsas səbəblərindən biri də bu idi. Əslində, bu, yalnız Tofiqə xas deyildi, bizim ailəmizin mövqeyi idi... Düzdür, soykökümüz Ərdəbil şəhərindəndir. Şahsevənlər nəslindənik. Bakıda yaşamışıq, bakılı olmuşuq. Buna baxmayaraq öz həyatımızda, öz qəlbimizdə bütün Azərbaycanı birləşdirə bilmişik. Atam heyvandarlıq üzrə kənd təsərrüfatı mütəxəssisi idi. O, müxtəlif illərdə Ağstafada, Qazaxda, İmişlidə, Əli Bayramlıda (indiki Şirvan - Z.F.), Dəvəçidə işləyib. Hansı rayonda işləməyə gedirdisə, anamı da özü ilə aparırdı. Ancaq valideynlərimizin, necə deyərlər, bir ayağı Əmircandaydı. Biz ağlımız kəsəndən Əmircanda yaşamışıq. O vaxt orada əsl ziyalılar var idi..."

Tofiq Bayram sözün sehrinə çox kiçik yaşlarından düşdü. Dünya başdan-başa şeirə, poeziyaya çevrildi gözlərində. Uşaqlıqdan sözləri elə hey bir-birinə qoşur, qafiyə deyirdi...

Svetlana xanım danışır: "Atamın yaxın dostlarından biri - Mehdixan Vəkilov 1942-ci ildə Ağstafa Rayon Partiya Komitəsinin birinci katibi seçilib. O, atama zəng edib deyib ki, mən Ağstafaya gedirəm, istəyirəm sən də gələsən. Atamın Ağstafaya getməsi belə olub. Orda böyük bir sovxozun direktoru işləyib. Mehdixan Vəkilov məşhur şair Səməd Vurğunun qardaşı idi. Tofiqin Səməd Vurğunla ilk tanışlığı da Ağstafada olub. Onda yeddi yaşı varmış. Ağstafada birinci sinfə gedirmiş. Səməd Vurğunun gəldiyini eşidən atam onu qonaq çağırıb. Şair bizim evə gəlib. Tofiq kiçik yaşlarından bir yerdə qərar tutmazdı. Ancaq bu, sadəcə, nadinclik deyildi. Təbiətcə qaynar, çılğın adam idi. Bir də sanki poeziyadan yoğrulmuşdu. Tofiq özü təpədən-dırnağa poeziya idi. Səməd Vurğun onun hərəkətlərindən bilib ki, bu, qeyri-adi uşaqdır. Atam şairin Tofiqə maraqla baxdığını görüb, deyib ki, "ay Səməd, bu, bir də görürsən öz-özünə elə bayatılar deyir ki..." Səməd Vurğun əminliklə: "O, şair olacaq" söyləyib. Beləcə, Tofiq ilk xeyir-duanı Səməd Vurğundan alıb. Sonralar bu görüş şeirə çevrilib. Tofiq dünyaşöhrətli şairlərimizdən Məhəmməd Füzulini, İmadəddin Nəsimini çox sevirdi. Molla Pənah Vaqifin yaradıcılığına yaxşı bələd idi. Öz dövrünün şairlərindən isə ən çox sevdiyi Səməd Vurğun idi".

Tofiq Bayram təhsilini Bakıda davam etdirdi. Əvvəl 97 saylı məktəbdə oxudu. Həmin məktəb səkkizillik idi. Onillik təhsilini Bülbülədəki 208 saylı orta məktəbdə tamamladı. O vaxtlar artıq şairlik istedadı hər kəsə bəlli idi. İlk şeiri "Pioner" qəzetində işıq üzü görəndə Tofiq Bayramın on dörd yaşı vardı. Svetlana xanım deyir: "Uşaq olanda anam onu elektrik qatarı ilə Pionerlər evinə gətirirdi. Orda ədəbiyyat dərnəyi fəaliyyət göstərirdi. Həmin dərnəyə o vaxt cavan olan Əlfi Qasımov rəhbərlik edirdi. Tofiq orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinə (indiki Bakı Dövlət Universiteti - Z.F.) daxil oldu. Ancaq sonralar başqa bir ali məktəbdə oxumaq istədi. Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (hazırda Azərbaycan Dövlət Pedaqoji Universiteti - Z.F.) Ədəbiyyat-tarix fakültəsinə qəbul edildi. O illərdə Tofiqin çox sevdiyi Mikayıl Rəfili, İsmayıl Şıxlı, Əbdüləzəl Dəmirçizadə, Feyzulla Qasımzadə, Ağaməd Abdullayev, Əhəd Hüseynov, Kamal Qəhrəmanov kimi böyük alimlər, ədəbiyyatşünaslar, ədəbiyyat nəzəriyyəçiləri, tənqidçilər həmin institutda çalışırdılar. İnstitutun rektoru isə o vaxtlar Mehdixan Vəkilov idi".

Tofiq Bayram ali təhsilini başa vurduqdan sonra müxtəlif yerlərdə çalışdı. O, 1959-cu ildə "Azərbaycan müəllimi" qəzeti redaksiyasında şöbə müdiri, 1960-1961-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ədəbi işçi oldu. 1961-1964-cü illərdə Mirzə Fətəli Axundov adına Dövlət Opera və Balet Teatrında ədəbi hissə müdiri, 1964-1968-ci illərdə "Ulduz" jurnalı redaksiyasında, 1968-1978-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında şöbə müdiri, 1978-ci ildə isə "Yazıçı" nəşriyyatında baş redaktor müavini işlədi. Ancaq harada çalışırsa-çalışsın, şeir yazmaq hər zaman ən ülvi arzusu, ən böyük məqsədi oldu.

Ailədə həddindən artıq sevilirdi. Səbəbi yalnız evin böyük oğlu olması deyildi. Atası Qulam bəy, anası Zivər xanım, bacı-qardaşları onun istedadı ilə, şair olması ilə fəxr edirdilər. Tofiq Bayramın dövri mətbuatda hər dəfə şeirinin dərc olunması ailədə bayrama çevrilirdi. Svetlana Bayramova xatırlayır: "Bizim ədəbiyyata, musiqiyə sevgimiz atamdan gəlirdi. Atamgil dörd qardaş, bir bacı olublar. Atamın İslam adlı qardaşı vardı. Azərbaycan Pedaqoji İnstitutunda oxuyurmuş. Müharibə başlayanda təhsili yarımçıq qalıb. İslam əmim də şeir yazırmış. Teatrı çox sevirmiş. Bir neçə dəfə Əmircanda hazırlanan tamaşalarda rol oynamışdı.

Atam isə, doğrudur, şeir yazmırdı, ancaq o, poeziyanın, musiqinin vurğunu, xiridarı idi. Bizim evimiz sanki şeir, sənət ocağıydı. O dövrün ən məşhur sənətkarları atamın dostları idilər, evimizə gəlib-gedirdilər. Biz onların mühitində formalaşırdıq. Atam Əmircanda ikimərtəbəli, gözəl bir ev tikdirmişdi, öz əlləri ilə həyətimizdə elə bağ salmışdı ki, görənlər heyran olurdu. O vaxtlar Bakının rəhbəri Əliş Ləmbəranski idi. Xarici ölkələrdən qonaqlar gəlirdi. Onlar maraqlanırdılar ki, sovet adamları necə yaşayırlar. Onda bizim həyətimizə ekskursiyaya gətirib göstərirdilər ki, sovet adamları belə yaşayırlar... Bambaşqa ab-hava vardı..."

O, Azərbaycanın neçə-neçə məşhur sənətkarını uşaqlıq illərindən atasının dostu, evlərinin əziz qonağı kimi gördü. Vaxt gəldi, onların bir çoxu ilə özü də yaxın dost, həmkar, iş yoldaşı oldu. Bir müddət Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində çalışdıqdan sonra onu Opera Teatrına dəvət edən Niyazi də atasının dostlarından idi. Orada ədəbi hissə müdiri işləyəndə görkəmli sənət adamlarını yaxından tanıdı.

Tofiq Bayramın ata ocağında məşhur dəvə qutabı qonaqlığı veriləndə o, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində işləyirdi. Məhəmməd Füzulinin yubileyi təntənə ilə qeyd edilirdi. Şairin irsi geniş tədqiq və təbliğ olunurdu. Onda Tofiq Bayramın "Füzuli" pyesi əsasında televiziya tamaşası hazırlandı. Rejissoru Şəmsi Bədəlbəyli idi. Pyes haqqında Xalq şairi Süleyman Rüstəm, Xalq artisti Şəmsi Bədəlbəyli və başqa görkəmli sənətkarlar yüksək fikirlər bildirdilər. Tofiq Bayram çox gənc idi. Elə o yaşda, 1959-cu ildə Azərbaycan Yazıçılar İttifaqına (indiki Azərbaycan Yazıçılar Birliyi) üzv qəbul edildi. Tanındı, şöhrətləndi...

Svetlana Bayramova o günlərdən söz açır: "Bir gün atam Tofiqə dedi ki, həmin dostlarını evimizə dəvət elə, onlara qonaqlıq verim. Tofiq Süleyman Rüstəmə deyib. O, təklifi məmnuniyyətlə qəbul edib, ancaq şərtini də söyləyib: "Gələrik, amma mən deyəni bişirə bilsəniz..." Süleyman Rüstəm deyib ki, bizim üçün Xilə qutabı bişirsinlər. Xilə qutabı dəvə ətindən hazırlanırdı. Tofiq tərəddüd edib: "Süleyman müəllim, başqa nə desəniz mümkündür, amma mən dəvə qutabına söz vermirəm. Gedim atamla məsləhətləşim" deyib. Evə gəldi, Süleyman Rüstəmin istəyini atama bildirdi. Atam dərhal cavab verdi: "Get de ki, gələn həftə bizim qonağımızdırlar". Tofiq soruşdu ki, dəvə ətini haradan tapacaqsan? Atam onu arxayınlaşdırdı: "Sənin işin olmasın, mən tapacağam". Atam Qobuya gedib bir çobandan dəvə aldı. Evimizin ünvanını da verdi. Çoban dəvəni Əmircana gətirdi. Bazar günü səhər uşaqlar qaça-qaça gəlib atama xəbər verdilər ki, bütün küçə "Pobeda" maşınları ilə doludur. Atam həyətə çıxdı. Gördü ki, Süleyman Rüstəm, Şəmsi Bədəlbəyli, Bəşir Səfəroğlu, Lütfəli Abdullayev... Bir sözlə, televiziyadan tanıdığımız bütün məşhurlar gəlib. Demə, Süleyman Rüstəm hamıya zəng vurub deyibmiş ki, gedirik Əmircana dəvə qutabı yeməyə. Ən çox həyəcanlanan anam idi. Atamdan soruşdu ki, ay Qulam, bu qədər qonağa qutabı necə hazırlayacağıq? Atam ona dedi ki, narahat olma. Sallaqxanada kəsdirdiyi dəvənin ətini, bir də unu payladı qonşulara, xahiş etdi ki, hamınız qutab bişirin, həm özünüz doyunca yeyin, həm də mənim qonaqlarımı yola salın. O gün, əlbəttə, başqa yeməklər də hazırlanıb süfrəyə düzüldü. Qonaqlar dəvə qutabını və digər təamları yedilər. Ancaq əsas yemək qutab oldu. Bu dəvə qutabı qonaqlığı çox məşhurlaşdı".

Tofiq Bayramın toyu da uzun müddət yaddaşlardan silinmədi. Şairin bacısı danışır: "1931-ci ildə atamın toyunda məşhur xanəndə Xan Şuşinski oxuyub. Toyu olanda atam özü gedib Xan Şuşinskini Qarabağdan gətirib. Sonralar da münasibətləri davam edib. Ailəmizin ilki tez evləndi. 1956-cı ildə Tofiqin toyuna hazırlaşanda atam gedib Xan Şuşinskiyə xatırladıb: "Yadındadır, sən mənim toyumda bir sağlıq dedin? Dedin ki, o gün olsun sənin oğlun olsun, onun toyunda da gəlim mən oxuyum. İndi Tofiq evlənir. Gərək sözünə əməl edəsən". Tofiqin toyu sanki musiqi, muğam, mahnı müsabiqəsi oldu. Xan Şuşinski, Qurban Pirimov, o vaxt gənc olan Əlibaba Məmmədov, Əbülfət Əliyev, atamın çox sevdiyi müğənni - Ağabala Abdullayev, Şurulla vardı, həm tarda çalırdı, həm də gözəl səslə oxuyurdu, qarmon ifaçısı Teymur Dəmirov... İstedadlı ifaçılar Tofiqin toyunda bir-biri ilə sanki yarışa girdilər. Qeyri-adi toy idi..."

Tofiq Bayramla həyat yoldaşı Zərifə xanım orta məktəbdə bir sinifdə oxuyublar. Parta yoldaşı olublar. Şair ona həsr etdiyi "Məhəbbət" adlı şeirində yazıb:

*Deməyin ki, nağıl açıb sevgidən,*
*Unutmuşam nədir bilik, imtahan.*
*Ya geciksəm, ya dərsimi bilməsəm,*
*Hamıdan çox utanıram o qızdan.*

Tofiq Bayram gözəl ailə başçısı oldu. Nə sevgisini, nə də qayğıkeşliyini ailəsindən əsirgədi. Ancaq məhəbbət şeirlərinin yeganə ünvanı həyat yoldaşı olmadı. Şair qəlbi gözəllərə heç zaman biganə qalmadı.

Svetlana xanım danışır ki, qızlardan ona məktublar gəlirdi, macəraları olurdu: "Zərifə qısqanc deyildi. Bəlkə qəlbində təbəddülatlar var idi, üzə vurmurdu... Tofiqi çox sevirdi. Bütün ömrünü Tofiqə həsr etdi. Onun qulluğunda dayandı. Etibarlı, anlayışlı həyat yoldaşı oldu. 2019-cu ildə dünyasını dəyişdi".

Tofiq Bayramın bir sıra məhəbbət şeirlərinin bilinən ünvanı və tarixçəsi var. Onlardan biri Azərbaycan ədəbiyyatında ən gözəl məhəbbət şeirlərindən olan, məşhur "Ay gecikən məhəbbətim"dir...

*Sən əzabsan, göz yaşısan,*
*Bəxtimin son naxışısan.*
*Bəlkə tale qarğışısan,*
*Bəlkə də ilk səadətim,*
*Ay gecikən məhəbbətim!*

Bu şeir yazılanda şair evli idi, iki uşağı vardı. Onun vurulduğu xanım isə nişanlı idi. Şair 1971-ci ildə qələmə aldığı "Ay gecikən məhəbbətim" şeirinin əlyazma şəklində olan ilkin variantını həmin xanıma çatdırdı. O da bu şeiri uzun illər sonra Svetlana xanıma verdi. Şairin bacısı 2015-ci ildə Tofiq Bayramın şeirlər kitabını çap etdirəndə "Ay gecikən məhəbbətim" şeirini iki variantda verdi.

Onun türkiyəli müğənni Sevda Aydana yazdığı şeir isə yalnız Azərbaycanda deyil, qardaş Türkiyədə də dillər əzbəri oldu.

*Bu ilahi qız səsindən*
*Əfsunlanmışam.*
*Canı mənim canımdandır*
*Qanı qanımdan.*
*Lisanını ayırmıram*
*Öz lisanımdan.*
*Bu səs necə doğma,*
*necə müqəddəs!*
*Qılıncları atəşiylə*
*Əridər bu səs.*

Sevda Aydan Türkiyəyə dönəndə Tofiq Bayramın ona həsr etdiyi əsəri də apardı. Ancaq bu şöhrət şeirin müəllifinə öz ölkəsində böyük problemlər yaratdı. Svetlana Bayramova yada salır: "O vaxt sovet ölkəsində çap olunmayan hətta bir misranın belə xaricdə çap olunması, yayılması böyük qəbahət sayılırdı. Üstəlik, Tofiq Bayram şeirində sovet rejiminin daha ciddi qadağalarını aşmışdı... Şeiri oxuyanda istər-istəməz düşünürsən ki, bəlkə də bu sevgi deyil, vurğunluqdur. Biz uzun illər Türkiyə həsrəti ilə yaşamışdıq. Tofiqin də əlinə fürsət düşdü. Nəinki bir Türkiyə vətəndaşını, türkiyəli bir qadını gördü. Onunla yaxından tanış oldu. Bu ünsiyyət Tofiqin ürəyində çox xoş hisslər, eyni zamanda nisgil oyatdı. Belə idi ki, illər sonra - 1991-ci ildə Türkiyənin ovaxtkı mədəniyyət naziri Namiq Kamal Zeybək Azərbaycana gələndə Respublika Sarayında çıxışında dedi ki, biz vaxtilə Bakını Tofiq Bayramın Sevda Aydana yazdığı şeiri ilə sevmişik, o şeiri bütün Türkiyə əzbər bilirdi. Ancaq çoxu bilmirdi ki, həmin vaxtlar Tofiqi nə qədər incitdilər. O zaman azərbaycanlı şairin həm də yalnız sevgi deyil, eyni zamanda milli kimlik məsələsini qabardan şeirinin Türkiyədə çap olunması və dillərə düşməsi barədə xəbər SSRİ-nin paytaxtına - Moskvaya çatan kimi ordan Bakıya zəng etmişdilər. Ümummilli Lider Heydər Əliyev o vaxt Dövlət Təhlükəsizlik Komitəsində (DTK) sədrin müavini vəzifəsində çalışırdı. Heydər Əliyev Niyazini yanına çağırmışdı. Demişdi ki, o cavan oğlana de ki, getsin altı ay Əmircanda qalsın və evdən bayıra çıxmasın, amma onun maaşını yaz. Beləliklə, Ümummilli Lider Tofiqi xilas etdi".

Hansı mövzuda yazır-yazsın, Tofiq Bayramın şeirlərinə səmimiyyət hakimdir. Bacısı deyir ki, onun şəxsiyyəti ilə yaradıcılığı vəhdət təşkil edirdi: "Tofiq necə insan idisə, o cür də şair idi". Tofiq Bayram üçün Azərbaycan dünyanın ən gözəl məkanı idi:

*Vətən mənim bu günüm,*
*Sabahkı toy-düyünüm.*
*Haqqım var ki, öyünüm*
*Azərbaycan deyəndə.*
*Ürəklərdə döyünüm,*
*Azərbaycan deyəndə.*

Tofiq Bayramın yaradıcılıq yolu məhsuldar olub. Ancaq bacısı hesab edir ki, o, istedadı qədər əsərlər yazmadı: "Onun sinəsində yazılmamış o qədər xəzinələr qaldı ki... Tofiq həm də gözəl tərcüməçi, ədəbiyyatşünas idi. Rəsul Həmzətov Bakıya gələndə görüşlərin birində dedi ki, mənə elə gəlir ki, Tofiq Bayram mənim şeirlərimi olduğundan daha gözəl tərcümə edib".

Tofiq Bayram 1991-ci il aprelin 19-da vəfat etdi. Dövlət Dəfn Komissiyası yaradılmışdı və belə bir qərar verilmişdi ki, Tofiq Bayram Fəxri xiyabanda dəfn edilsin, cənazəsi də Rəşid Behbudov adına Mahnı Teatrından götürülsün. Nazirlər Sovetindən həmin gecə bizə gəldilər və dəfn mərasiminin necə planlaşdırıldığını dedilər. Anam etiraz etdi: "Mənim oğlum aktyor ya müğənni deyil ki, cənazəsi səhnəyə qoyulsun, - dedi. - Öz kəndimizdə, öz adətlərimizlə dəfn edəcəyik". Tofiqin özünün də vəsiyyəti vardı ki, onu Əmircanda, Səttar Bəhlulzadənin yanında dəfn edək. Vəsiyyətini yerinə yetirdik... Ondan əsərləri və üç övladı yadigar qaldı. Təəssüf ki, Tofiqin iki oğlu vaxtsız dünyadan köçdü. Böyük oğlu Zakir çox istedadlı, olduqca savadlı idi. Moskva Mühəndislik və Fizika İnstitutunda "Nüvə fizikası" fakültəsində təhsil aldı. Sonra Azərbaycanda Kosmik Tədqiqatlar İnstitutunda işlədi. Kəşfləri var. Zakir 2004-cü ildə vəfat etdi. Tofiqin ortancıl oğlu Cavanşir iqtisadçı idi, 2020-ci ildə dünyasını dəyişdi. Kiçik oğlu Cahangir polis işləyib. İdmançı olub, yarışlarda yer tutub. Birinci Qarabağ müharibəsində iştirak edib. Qarabağ qazisidir".

Əslində, nə dözümsüz, nə də vəfasız idi ürəyi. 1988-ci ilin sonları, 1990-cı illərin əvvəllərində erməni quldurlarının Azərbaycana qarşı torpaq iddiaları ilə çıxış etmələri, Qarabağı münaqişə ocağına çevirmələri onun şair ürəyinə vurulan ən böyük zərbə oldu. Şair uca kürsülərdən hayqırırdı:

*Gözüm yoxdur üstündə bircə qara daşının*
*Ağ dumanlar gəlinlik duvağıdır Şuşanın.*
*Mən gəlinin üzündən o duvağı vermərém.*
*Namusum, ismətimdir Qarabağı vermərém!*

Tofiq Bayramın son şeiri "Qarabağı vermərém!"oldu. Bu da son təsəlli. Svetlana xanım deyir: "Yaxşı ki, Tofiq Qarabağın, Şuşanın işğal olunduğu günləri görmədi"...

**Zöhrə FƏRƏCOVA,**
**"Azərbaycan"**

# Milli Kitabxanada professor Şirməmməd Hüseynovun 100 illiyi münasibətilə sərgi açılıb

**Milli Kitabxanada görkəmli alim, Əməkdar jurnalist, professor, Prezident təqaüdçüsü Şirməmməd Hüseynovun 100 illiyi münasibətilə virtual və ənənəvi kitab sərgisi açılıb.**



Kitabxanadan bildirilib ki, sərgidə mətbuat tariximizin tədqiqatçısının fotoları, "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam, tərtibçi və redaktor olduğu kitablar yer alıb. Həmçinin alimin həyat və yaradıcılığı haqqında Azərbaycan və rus dillərində ədəbiyyatlar, dövri mətbuatda çap olunan məqalələri, fenomenal araşdırmaları, elmi tədqiqatları nümayiş olunub.

# Bəstəkar Şəfiqə Axundovanın 100 illiyinə həsr edilmiş ustad dərsləri keçirilib

**Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin təşkilatçılığı ilə görkəmli bəstəkar, Xalq artisti Şəfiqə Axundovanın anadan olmasının 100 illiyi çərçivəsində Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərinin müəllim və şagirdlərinin peşəkarlığının artırılması üçün tar və kamança ixtisasları üzrə ustad dərsləri keçirilib.**



Mərkəzdən bildirilib ki, Şəki şəhərindəki 4 nömrəli uşaq musiqi məktəbində 6 gün davam edən ustad dərsləri tar ixtisası üzrə Əməkdar artist Neymət Mürsəlov, kamança ixtisası üzrə Fariz Hüseynov tərəfindən aparılıb.

Dərslərin keçirilməsində məqsəd təhsilin səviyyəsinin yüksəldilməsi, maarifləndirmə işinin təşkili, musiqi və incəsənət məktəblərində tədris prosesinin ixtisas proqramlarının tələblərinə uyğun olaraq tənzimlənməsi, yerlərdə lazımi metodiki köməkliyin göstərilməsi, müəllim və şagirdlərin peşəkar inkişafı üçün nəzəri və praktiki biliklərinin artırılmasıdır.

Dərslərdə tar ixtisası üzrə tarın tutulma qaydalarına, ifa zamanı barmaqların simlər üzərinə applikaturaya uyğun əməl etmək şərti ilə ardıcıl qoyuluşu, şagirdlərin texniki imkanlarının artırılması məqsədilə qamma və etüd məşğələlərinə mütəmadi olaraq riayət edilməsinin zəruri olduğu qeyd olunub. Eyni zamanda proqramda ifa edilən hər bir əsərin xarakterini dinləyiciyə düzgün çatdırmaq məqsədilə nüans və ştrixlərə xüsusi diqqət yetirilməli olduğu vurğulanıb. Kamança ixtisası üzrə isə kamanın tutulma qaydası, pozisiyalardan düzgün istifadə, qammaların və etüdlərin daha çox ştrixlərlə çalınması haqqında ətraflı məlumat verilib.

Ustad dərslərinin sonunda diskussiya xarakterli fikir mübadiləsi aparılıb, müəllimləri narahat edən məsələlər müzakirə olunub, suallar cavablandırılıb.

# Xalq artisti Oqtay Ağayevin xatirəsinə həsr edilmiş konsert proqramı təqdim olunub

**Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) Musiqi sənəti fakültəsinin Estrada sənəti kafedrası tərəfindən unudulmaz müğənni, Xalq artisti Oqtay Ağayevin 90 illiyinə həsr olunmuş "Kimsən sən..." konsert proqramı təqdim olunub.**



Konsertdə ölməz sənətkarın repertuarından mahnılar səsləndirilib. Tədbirdə həmçinin Oqtay Ağayevin zəngin yaradıcılığını əks etdirən videogörüntülər nümayiş edilib.

Sonda Estrada sənəti kafedrasının müdiri professor Məryəm Babayeva çıxış edərək Xalq artistinin həyat və yaradıcılığından bəhs edib, onun böyük sənətinin bu gün də Azərbaycanın gənc musiqiçilərinə, müğənnilərinə mayak olduğunu deyib.

Konsert proqramını ADMİU-nun rəhbərliyi, professor-müəllim heyəti, ölkəmizin bir sıra ali təhsil ocaqlarının rektorları, tanınmış ictimaiyyət nümayəndələri, musiqisevərlər və Oqtay Ağayev sənətinin pərəstişkarları izləyiblər.

# Polis Akademiyasında təhsil almaq istəyən abituriyentlər üçün müsabiqə elan edilir





**Daxili İşlər Nazirliyi Polis Akademiyasına əyani təhsilə III qrupdan "Hüquqşünaslıq" ixtisasına 500, I qrupdan "İnformasiya təhlükəsizliyi" ixtisasına 25 kursantın qəbuluna dair müsabiqə elan edir.**

Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu 165 smdən az olmayan, yaşı 16-dan 18-dək, 11-ci sinifdə oxuyan və ya tam orta təhsilli, həqiqi hərbi xidmətə yararlı olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Xüsusi təyinatlı təhsil müəssisəsinə sənədlərin qəbulu 2025-ci il fevralın 23-dək namizədin daimi qeydiyyatda olduğu yer üzrə polis idarə və ya şöbələrində həyata keçirilir. "Hüquqşünaslıq" və "İnformasiya təhlükəsizliyi" ixtisas fənləri üzrə müsabiqədən keçən abituriyentlərin siyahısı Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir. Seçilən abituriyentlərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanır.

Tədris Azərbaycan dilindədir, müddəti 4 ildir.

Kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, akademiyanın ərazisində yerləşən müasir standartlara tam cavab verən yataqxanada yaşayırlar.



Məzunlara "Hüquqşünaslıq" və "İnformasiya təhlükəsizliyi" ixtisasları üzrə "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

Qəbul qaydaları haqqında daha ətraflı məlumatları (012)-590-97-76, (012) 454-12-78 nömrəli telefonlar, habelə Polis Akademiyasının 8880 qaynar xətti vasitəsilə və ya www.mia.gov.az, www.pa.edu.az internet saytlarından, Polis Akademiyasının rəsmi "İnstaqram" və "Feysbuk" sosial şəbəkələrindən əldə edə bilərsiniz.

# Erməni hərbi cinayətkarlarının işi məhkəməyə göndərilib

**Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan Respublikasının ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ Respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycan Respublikasına qarşı törədilmiş qanunsuz əməllərə dair cinayət işi məhkəməyə göndərilib.**



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumatda bildirilib ki, Azərbaycan Respublikası və xalqına qarşı törədilən təcavüz aktı, işğal, soyqırımı, sülh və insanlıq əleyhinə digər cinayətlər, müharibə cinayətləri, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi və digər çoxsaylı cinayətlərin törədilməsi faktları ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunun İstintaq idarəsində cinayət işinin istintaqı aparılıb.

2024-cü il mayın 2-də baş prokurorun qərarı ilə 1987-ci ilin oktyabr ayından 2024-cü il aprelin 22-dək törədilmiş cinayətlərin bir qismi ilə bağlı Baş Prokurorluq və respublikanın ayrı-ayrı istintaq qurumlarında istintaq edilən 1389 cinayət işi bir icraatda birləşdirilib və Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbərlik etdiyi, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Hərbi Prokurorluğun müstəntiqlərindən ibarət tərkibdə istintaq olunub.

Toplanılmış mötəbər sübutlar əsasında ümumilikdə 2548 epizod üzrə Ermənistan Respublikası Silahlı Qüvvələri və qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər - Qukasyan (Ğukasyan) Arkadi Arşaviri (Arşaviroviç), Harutyunyan Arayik Vladimiri (Vladimiroviç), Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi (Klimoviç), Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurqen Homerosi, Balayan Levon Romiki, Babayan Madat Arakeli (Arakeloviç), Beqlaryan Vasili İvani və Qazaryan Erik Robertiyə cinayətkar birlikdə iştirak etdiyi dövrlərə uyğun olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhv etmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələrlə yenidən təqsirləndirilən şəxs qismində cəlb olunublar, hər birinin müdafiə, bildiyi dilindən istifadə etmək və digər prosessual hüquqları təmin edilib. Təqsirləndirilən şəxslər vəkillə təmin olunub. Habelə istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilib.

Həm ibtidai istintaqın gedişində, həm də ibtidai istintaq tamamlandıqdan sonra təqsirləndirilən şəxslər tərəfindən verilmiş vəsatət və şikayətlərə cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılaraq müvafiq qərarlar qəbul edilib, iş üzrə təqsirləndirilən şəxslərə və cinayət prosesinin digər iştirakçılarına ibtidai istintaqın qurtarması barədə məlumat verilib, onlar cinayət işinin bütün materialları ilə tanış edilib.

Eyni zamanda çoxsaylı cinayət törətməkdə ittiham olunan digər şəxslər barəsində cinayət işi ayrıca icraata ayrılaraq ibtidai istintaq davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu həmin istintaq işi ilə əlaqədar qeyd olunan epizodlar üzrə şübhəli bilinən, eləcə də şahid qismində bir çox şəxsin Ermənistan Respublikasının ərazisində olmasına ciddi əsasları rəhbər tutaraq, Ermənistan Respublikasının aidiyyəti orqanlarını əməkdaşlığa dəvət edir.

Cinayət işi üzrə ittiham aktı Azərbaycan Respublikasının baş prokuroru tərəfindən 2024-cü il dekabrın 16-da təsdiq edilərək baxılması üçün aidiyyəti üzrə Bakı Hərbi Məhkəməsinə göndərilib.


**OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# UNESCO Ermənistana faktaraşdırıcı missiya göndərsin

## Azərbaycan QHT-ləri Azuleyə çağırış ediblər

**Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçiləri UNESCO-nun baş direktoru Odri Azuleyə açıq məktub ünvanlayıb.**



AZƏRTAC xəbər verir ki, məktubda deyilir: "Biz sizə Ermənistanın Azərbaycan xalqına məxsus mədəni və tarixi irsi məqsədli şəkildə məhv etməsindən dərin narahatlığımızı ifadə etmək və bununla bağlı əməli addımların atılmasına çağırış etmək məqsədilə müraciət edirik. Ermənistanın həyata keçirdiyi siyasət nəticəsində Qərbi Zəngəzur, Qafan, İrəvan, Göyçə, Nüvədi, Vedi və digər bölgələrdə Azərbaycan xalqının mədəni irsi məhv edilib, mənimsənilib. Məsələn, İrəvanda yerləşən Dəmirbulaq məscidi 1990-cı illərin əvvəllərində buldozerlə dağıdılıb, XVI əsrə aid Sərdar məscidi isə bir neçə mərhələdə məhv edilib. Qala məscidi, Şah Abbas məscidi, Təpəbaşı məscidi, Zal Xan məscidi, Sərtib Xan məscidi, Hacı Novruzəli bəy məscidi, Hacı Cəfər bəy məscidi, Rəcəb Paşa məscidi, Məhəmməd Sərtib Xan məscidi, Hacı İnam məscidi və Ermənistan ərazisində yerləşən 300-dən artıq digər dini və mədəni abidələr eyni aqibətlə üzləşib.

Bundan əlavə, Ermənistan ərazisində Aşağı Şorca, Qullubulaq, Saral və Ağadada kimi 500-dən artıq Azərbaycan qəbiristanlığı təhqir edilərək dağıdılıb". Azərbaycan QHT-ləri bunu qəbuledilməz sayıb, o da vurğulanıb ki, Aşıq Ələsgərin məzarı da bu cür münasibətlə üzləşib.

Qeyd olunub ki, bu genişmiqyaslı kampaniya yalnız fiziki dağıntılarla məhdudlaşmayaraq, Azərbaycan kəndlərinin tarixi adlarının da tamamilə dəyişdirilməsi və erməni adları ilə əvəzlənməsi ilə müşayiət edilib: "Ermənistan ərazisində qalan yeganə məscid - İrəvandakı Göy Məscid saxtalaşdırılaraq "fars məscidi" kimi təqdim edilir".

Məktubda xüsusi qeyd edilir ki, İrəvanda yerləşən və Azərbaycanın tarixi şəhərinin yeganə qalıqları olan Təpəbaşı məhəlləsi tamamilə məhvolma təhlükəsi ilə üzüzədir, bununla bağlı dəfələrlə məsələ qaldırılsa da, UNESCO praktiki addımlar atmayıb: "UNESCO-nun məsələyə təcili müdaxiləsi zəruridir. Təşkilatın üzv dövlətlərindən biri tərəfindən mədəni mülkiyyətin məqsədyönlü şəkildə məhvinə və Azərbaycanın mədəni irsinin, tarixi köklərinin inkar edilməsinə qarşı UNESCO prinsipial və ardıcıl mövqe nümayiş etdirməlidir. Biz - Azərbaycanın QHT nümayəndələri UNESCO-dan Ermənistan ərazisinə faktaraşdırıcı missiya göndərməsini, Azərbaycan xalqına məxsus mədəni irsin vəziyyətini monitorinq etməsini və sənədləşdirməsini, Ermənistandan UNESCO sənədləri də daxil olmaqla, beynəlxalq konvensiyalar çərçivəsində mədəni irsin qorunması üzrə öhdəliklərinə əməl etməsinin tələb olunmasını bir daha xahiş edirik".

Açıq məktubu "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası, Qərbi Azərbaycan İcması, "Miras" Mədəni İrsin Təbliği İctimai Birliyi, "İrəvan Mədəni İrsinin Təbliği" İctimai Birliyi, "Zəngəzur" cəmiyyətləri, Beynəlxalq Avrasiya Mətbuat Fondu, D.Əliyeva adına Azərbaycan Qadın Hüquqları Cəmiyyəti, Azərbaycan Milli İnsan Hüquqları Cəmiyyəti, "Hüquqların və Qanunçuluğun Müdafiəsi" İctimai Birliyi, "Obyektiv" Milli Dəyərlərin Təbliği İctimai Birliyi, "Prioritet" Sosial İqtisadi Tədqiqatlar Mərkəzi, "Sönməz Məşəl" Mədəni Əlaqələr İctimai Birliyi, "ICOMOS Azərbaycan" İctimai Birliyi, Cəfər Cabbarlı Mədəniyyət, Elm və Təhsilin İnkişafı İctimai Birliyi, "Mədəniyyət Könüllüləri" İctimai Birliyi, Azərbaycan Mədəni İrsinin Qorunması və Turizmə Dəstək Assosiasiyası, "Əbədi Turan" Kitab Fondu, "Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması", Mirzə Ələkbər Sabir Fondu, "Zirvə" Mədəniyyət və İncəsənət İctimai Birliyi, "İz" Mədəni İnkişaf və Dəstək İctimai Birliyi və Müvəkkil Hüquq Mərkəzi imzalayıblar.

Hələlik UNESCO açıq məktuba heç bir cavab verməyib.

# Azərbaycanda əhalinin sayı 10 milyon 218 mini ötüb

Ölkə əhalisinin sayı ilin əvvəlindən 37 min 766 nəfər və ya 0,4 faiz artaraq, 2024-cü il noyabrın 1-i vəziyyətinə 10 milyon 218 min 536 nəfərə çatıb. AZƏRTAC Dövlət Statistika Komitəsinə istinadla bildirir ki, əhalinin ümumi sayının 54,5 faizini şəhər, 45,5 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.



**"Şahin" MTK tərəfindən Nigar Kamal qızı Abdullayevaya verilmiş Yasamal rayonu, Fuad İbrahimbəyov küçəsi 12, mənzil 168 ünvanında yerləşən 54 kvadratmetrlik qarajın alınmasına görə ödənilmiş pul vəsaitinin qəbzləri itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov və konfederasiyanın kollektivi AHİK sədrinin müavini Musa Mirzəyevə əzizi

**NURƏDDİN MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Umud Mirzəyev, Fazil Allahverdiyev, Hidayət, Mircəfər, Müstəqim və Mircəlil İsmayılovlar, İlham və Tural İbrahimovlar, Hacı Müşfiq Hüseynov və Şahin Aslanov Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Baş İdarə rəisinin 1-ci müavini Araz Kərimova əzizi

**NURƏDDİN AZAY OĞLU MƏMMƏDOVUN**

Cəlilabad rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əli, Rasim, Mehman, Rafiq, Arif və Nail Hüseynovlar, Əlövsət Əliyev, Bəkir Əhmədov və İlham Həsənov Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Baş İdarə rəisinin 1-ci müavini Araz Kərimova əzizi

**NURƏDDİN AZAY OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4233
Sifariş 2899

Qiyməti 60 qəpik